Hüseyn BAĞIROV

# İLK AZƏRBAYCAN - ANTARKTİDA EKSPEDİSİYASI. CƏNUB QÜTBÜNƏ XİZƏK YÜRÜŞÜ

I Kitab

# Antarktida gündəliyi

BAKI - 2009

Baş redaktor: ***Əli Həsənov***
Redaktor: ***Sevda Mikayılqızı***

**Hüseyn Bağırov.** İlk Azərbaycan-Antarktida Ekspedisiyası. Cənub Qütbünə xizək yürüşü. I kitab. Antarktida gündəliyi. Bakı, 2009. *"Ziya"*. *256* səh.

***Kitab Azərbaycanımızın tarixində ilk dəfə həyata keçirilmiş önəmli bir hadisədən - bayrağımızın planetin ən əlçatmaz nöqtələrindən sayılan Antarktidanın Vinson zirvəsi və Cənub Qütbündə ucaldılmasından - millətimizin imzalar içində daha bir imzasının olmasından bəhs edir ki, bu da hörmətli Prezidentimiz cənab İlham Əliyevin böyük şövqlə həyata keçirdiyi yeniləşmədən, dövlətimizin beynəlxalq miqyasda öz layiqli yerini tutmasından xəbər verir.***

***Şübhə etmirik ki, ekstremal şəraitdə bir araya gəlmiş müxtəlif millətlərdən olan insanlar arasında "birgə yaşamaq" faktorunun necə formalaşmasından, insanın daxili qüvvəsinin, əzminin, dəyanətinin necə səfərbər olmasından, hətta çıxılmaz görünən vəziyyətlərdən belə hər kəsin öz idrakı, ağlı, yalnız ona xas olan insani keyfiyyətləri hesabına necə çıxa bilməsindən söz açan bu kitab, təkcə müvafiq elm sahələrində çalışanlar üçün deyil, həm də geniş oxucu auditoriyası üçün maraqlı olacaqdır.***

ISBN




*MƏN FƏXR EDİRƏM Kİ, MƏN AZƏRBAYCANLIYAM!*

***AZƏRBAYCAN, İLHAMLA İRƏLİ!***



# ÖN SÖZ

***Azərbaycan unikal təbii şəraitə, tükənməz sərvətlərə və inkişaf etmiş sənaye sahələrinə malik olan bir ölkədir.***

***Xalqımız əsrlər boyu torpaqlarının xaricdən təcavüzlərlə üz-üzə qalmasına, təbii sərvətlərinin kortəbii istismarına və talan edilməsinə qarşı mübarizə aparmış, böyük itkilərə baxmayaraq, bugünkü zənginliklərinin qorunub saxlanmasına nail olmuşdur.***

***Azərbaycanın müstəqillik qazanmasında, bir dövlət kimi təşəkkül tapmasında, möhkəmlənməsində, ölkə iqtisadiyyatı və sosial həyatının, eləcə də elm, mədəniyyət, idman və digər sahələrinin inkişafında Ulu Öndərimiz Heydər Əliyevin əvəzsiz xidmətləri olmuşdur. Xalqımızın Ümummilli Lideri ölkədə ekoloji vəziyyətin yaxşılaşdırılması, ətraf mühitin mühafizəsi, eləcə də təbii sərvətlərdən səmərəli istifadə edilməsi məsələlərini də həmişə xüsusi diqqət mərkəzində saxlamışdır.***

***Bu gün Ulu Öndərimiz Heydər Əliyevin siyasi və iqtisadi kursunu uğurla davam etdirən Prezidentimiz cənab İlham Əliyevin həyata keçirdiyi çoxsahəli islahatlar ölkənin sosial-iqtisadi inkişafını daha da sürətləndirmiş, əhalinin həyat səviyyəsinin, rifahının yüksəldilməsinə şərait yaratmış və Azərbaycanı dünya dövlətləri arasında ön sıralara çıxarmışdır.***

*Azərbaycan sivil, dünyəvi dövlət kimi müasir bəşəri çağırışlara qoşularaq ümumdünya miqyaslı qlobal problemlərin həllində də öz sözünü deməkdədir. İlk Azərbaycan-Antarktida ekspedisiyasının həyata keçirilməsi, Respublikamızın bayrağının Vinson zirvəsində, Cənub Qütbündə ucaldılması da bu qəbildən olan nailiyyətlərdəndir.*

*Ekspedisiya qrupu Antarktidada olduğu müddətdə beş yüzdən artıq meteoroloji müşahidə aparmış, çoxlu sayda süxur və mineral nümunələri toplamışdır. Əldə edilmiş faktiki materialların rəngarəngliyi, kameral laboratoriya işləri, ən yeni növ analizlərin tətbiq edilməsi ilə əldə edilən nəticələr, Cənub qitəsinin geoloji quruluşu, tektonikası və maqmatizmi barədə çox maraqlı fikirlərin söylənilməsinə gətirib çıxarmışdır.*

*Ölkə Prezidenti cənab İlham Əliyevin dünyanın inkişaf etmiş dövlətləri sırasında Azərbaycanın öz layiqli yerini tutması istiqamətində həyata keçirdiyi məqsədyönlü, ardıcıl tədbirlər nəticəsində qazanılan uğurlar hər bir azərbaycanlını daha yüksək zirvələrə çağırır, ruhlandırır.*

*Qarşıda daha ciddi, daha böyük işlərin görülməsi və yeni-yeni uğurlar qazanılması kimi şərəfli, möhtəşəm vəzifələr durur. Necə deyərlər, yol gedənindir.*

*Müəllif*

# I HİSSƏ.

## 1. EKSPEDİSİYAYA HAZIRLIQ

Antarktidaya yürüş barədə qərar Böyük Qafqazın Azərbaycana aid hissəsinə etdiyimiz çoxsaylı yürüşlərdən biri zamanı meydana gəldi. Bizim dağlarımızda arxanda yol çantası (adətən içində çöl şəraitinə uyğunlaşdırılmış yataq kisəsi, çadır və s. yürüş ləvazimatları olur) çoxgünlük piyada səfərlər zamanı düşünməyə həmişə imkan olur.

Fikir verdiyim bir məqam ondan ibarət idi ki, bizim dağ keçidlərinin, yaylaqların, müəyyən maraq doğuran yerlərin adları əlimdəki xəritədə azərbaycansayağı səslənmirdi. Nə bilim, Kursantlar keçidi, Kuznetsov Karnizi və s. Axı demək olmaz ki, əcnəbilərin buralara gəlməsinə qədər biz özümüz buralarda olmamış, bu dağları gəzib dolaşmamışıq. Tufan, Bazardüzü, Qızılqaya, Əsəd dağı, Qaraburğa, qışda keçilməz Salavat. Doğma dilimizdə verilmiş bu adlar əcdadlarımızın bu dağlara yaxşı bələd olduğunu və hər zirvənin, keçidin, dağ düzlərinin xarakterinə uyğun ad seçmək bacarığını təsdiq edir, əzəli məskənimiz olan bu dağların azərbaycanlılarla bağlı minilliklərdən səslənən tarixindən xəbər verir.

Əcnəbilərin bizim dağlarda gəzib dolaşaraq öz adlarını toponimlərdə buraxıb getməsi fenomeni barəsində düşünərək fikirləşirdim ki, bəs görəsən uzaq ellərdəki əlçatmaz sayılan, əsasən qərblilərin at oynatdığı yerlərə gedib çıxmağa bizə nə mane olur?

Bu suala cavab vermək, eyni zamanda buna bənzər başqa sahələrdə də dərindən fikirləşməyə əsas ola biləcək

uyğun vəziyyətləri aradan qaldırmaq üçün həmfikirlərimlə bu istiqamətdə bir iş aparmağa, ilk addımları atmağa cəhd göstərdik.

Məhz bu cəhdlərin nəticəsi olaraq, Azərbaycan Hava və Ekstremal İdman Növləri Federasiyası yarandı (avqust, 2005). Və beləliklə, sanki yad bir yerdən gətirilmiş tanış olmayan torpağa uyğunlaşaraq yaşamaq, küləklərinin, yandırıcı günəşinin tamı da başqa olan bu torpağın şəraitinə sinə gərərək duruş gətirmək kimi sınaqlarla zəngin bir çarpışma, bəzən isə heç çarpışma da yox, çabalama başlandı. Biz Fransada, Almaniyada, Hollandiyada, Amerikada, İngiltərədə, Avstraliyada geniş yayılmış deltaplan, paraplan, paraşüt, ekstremal dağçılıq və dənizçilik, qış dağ yürüşləri kimi idman növlərini, daha doğrusu həyat tərzini ölkəmizdə yaymağa çalışırdıq. Bu çalışmaların fonunda, yuxarıda qoyulan sualın cavabını axtararkən həm çətin, həm də müəyyən mənada asan olan bir ideya ağlımıza gəldi. Niyə biz Antarktidaya - Cənub Qütbünə yürüş etməmişik? Buna nə mane olur? Əslində məni heç maneələrin siyahısı da maraqlandırmırdı. Gözləmirdim ki, öhdəsindən gələ bilməyəcəyimiz bir çətinliyə rast gələk və bu da bizim üçün aşmağa nail olmaq istədiyimiz sədd sayılsın. Beləliklə hazırlığa başladıq....

Hazırlıq səkkiz aydan çox çəkdi. Antarktidaya səfər Nyu-Yorka, Moskvaya və ya Londona səfərə bənzəmir, heç bir başqa səfərlə də müqayisə oluna bilməz. İndiyə kimi Antarktidada kimlər olub? Piyada yürüşləri necə keçib? Yürüş iştirakçıları hansı ekstremal iqlim şəraiti ilə, hansı təhlükələrlə üzləşiblər? Təşkilati məsələlər, xüsusi paltar və zəruri avadanlıqlarla təmin olunma ilə bağlı təchizat problemləri necə həll olunub? Bunları haradan və

necə əldə etməli? Bütün suallar müfəssəl öyrənilməyə başlanıldı. Oraya necə gedib çıxmaq olar? Axı, bu qitəyə səfər adi hallarda olduğu kimi təyyarəyə bilet almaqla mümkün deyil! Bu, heç gəmi ilə də mümkün deyil!

Bir sözlə, hər gün bu istiqamətdə heç olmasa bir addım atmağa, məqsədə doğru inamla irəliləməyə başladıq. Müəyyən etdik ki, Antarktidada 40-a qədər elmi Antarktik stansiya mövcuddur. Bunların 90 %-i Antarktida qitəsinin iqlim şəraiti nisbətən yumşaq olan və o qədər də əlçatmaz sayılmayan sahil zonalarında yerləşirlər. Tamamilə buzla örtülmüş 14 mln. $km^2$-lik qitə ərazisi özündən bir neçə dəfə çox olan və ətraf okean sularını öz əsarətində saxlayan buz qatının altındadır. Antarktidanın içərilərində, qat-qat daha sərt şəraitdə ən müasir texnika üçün də əlçatmaz və çətin yerlərdə ancaq bir neçə ölkənin bir neçə stansiyası yerləşir. Bunlara Amerikanın Amundsen-Scott, Rusiyanın Vostok və bir-iki başqa stansiya aiddir.

ABŞ dövləti Antarktida mövzusuna ciddi fikir verir. Hər il Antarktida proqramına milyardlarla dollar vəsait xərcləyir və öz stansiyalarını dövlət səviyyəsində hər şeylə, o cümlədən nəqliyyatla təmin edir; bütün stansiyalara alimləri, mütəxəssisləri, zəruri yükləri vaxtlı-vaxtında təyyarə ilə çatdırır, təyyarə otura bilməyən yerlərə isə hər yerdə hərəkət edə bilən xüsusi texnika ilə çoxgünlük yürüşlər təşkil etməklə, müntəzəm əlaqə saxlayır.

İngiltərə də Antarktidada yerləşən stansiyalarına öz hava nəqliyyatı vasitəsilə bu cür xidmətləri göstərir. Bu xidmətləri əsasən 6-8 yerlik "Otter Twin" və ya "Sessna" təyyarələri vasitəsilə həyata keçirir. Bir sıra başqa ölkələr isə, məsələn Çili, Argentina, Braziliya və s. Antarktidaya ekspedisiyalar göndərərkən, ötən əsrin 80-ci illərinin əv-

vəllərində yaradılmış *"Antarctic Logistics and Expeditions"* (ALE) təşkilatının xidmətlərindən istifadə edir. Bu təşkilat öz təyyarələrinə, yerüstü texnikasına, çadırlara, avtomatik meteoroloji stansiyalara sahiblik edərək, son zamanlar hətta iri miqyaslı elmi layihələr də həyata keçirir. Buna misal olaraq Cənubi Koreya ilə birlikdə qlobal iqlim dəyişmələrini öyrənən proqramı göstərmək olar. Əslində, əgər öz təyyarən, bu təyyarənin müvafiq ölkələr üzərindən uçması üçün müvafiq razılaşman və ağır təyyarələrin oturması üçün Antarktidada çox məhdud sayda olan enmə üçün yararlı, açıq və düz buz meydançaların yoxdursa, onda mütləq ALE və yaxud onun partnyor təşkilatları ilə əlaqə saxlamalısan. ALE şirkətinə məxsus ağır yük təyyarəsinin Çilinin Punta-Arenas şəhərindən Antarktidada yerləşən Patriot-Hills çadır düşərgəsinə növbəti uçuş cədvəlini əldə etməlisən və bütün hazırlıqlarını həmin cədvələ əsasən bu təyyarəyə "düşmək" imkanına bağlayaraq həyata keçirməlisən.

## 1.1. Ekspedisiyanın tərkibi necə formalaşdı?

Əvvəlcədən bu işə maraq göstərən bir neçə nəfərlə, əsasən idmançılarla məsələ müzakirə olunarkən, mən öz fikrimi bildirdim ki, bu ən azı dörd-beş nəfərdən ibarət, normal fəaliyyət göstərə biləcək ekspedisiya olmalıdır. Ekspedisiya üzvləri geologiya, iqlimşünaslıq, müxtəlif idman sahələri və ekstremal şəraitdə uzunmüddətli yürüşlərdə təcrübəsi olan, 30-35 gün ifrat mənfi temperatura, çoxkilometrlik piyada yürüşlərə, çadır həyatı şəraitinin çətinliklərinə dözə bilən və eyni zamanda, ekspedisiyanın qarşısına qoya biləcəyi vəzifələri yerinə yetir-

mək iqtidarında olan insanlar olmalı idilər. Belə bir tapşırığı vermək üçün mən nədənsə yenicə yaratdığımız Azərbaycan Hava və Ekstremal İdman Növləri Federasiyası çərçivəsini münasib bildim. Düzdür, həmin vaxt biz lazımi instansiyaların rəyini bilməyə çalışdıq və bu istiqamətdə müvafiq addımların atılmasına xeyir-dua aldıq. Lakin, demək olar ki, heç kim, hətta biz özümüz də əmin deyildik ki, açığını deyək, qeyri-adi səslənən (ola bilsin ki, norveçli və hollandiyalı üçün qeyri-adi səslənmir, lakin razılaşın ki, bu heç də bizim tərəflərin adamlarının hər gün fikrindən keçirdiyi ideyalardan biri deyil) belə bir missiyanın vəzifələrini düzgün müəyyən etməyin və onu həyata keçirməyin öhdəsindən gələ biləcəyik. Ona görə də, ictimai təşkilat olan Federasiyanı bu işin irəli getməsi üçün münasib bildim. Hər halda nəticə necə olsa da, cavabdeh özümüz olacağıq.

Amma düzünü deyim, bunu necə edəcəyimizi bilməsək də, "Nə kimi situasiya yaranacaq?" sualı da beynimdə adətən pis yuxunun yaratdığı hisslər kimi fırlanmağa başlayırdı. Bir sözlə, belə işlərin ərsəyə gəlməsinə çoxlu zaman və zəhmət tələb olunduğunu nəzərə alaraq Federasiyanın icraçı direktoruna (hansı ki, belə bir vəzifəni həddən artıq ambisioz və qeyri-real hesab etdi. Amma insafən demək lazımdır ki, ilk gündən bu prosesdə iştirak etməkdə tərəddüd etmədi) seçim prosesinə və bizim oralara gedib çıxmağımız üçün yollar araşdırılmasına başlamaq barədə tapşırıq verildi.

İnternet vasitəsilə bu sahədə təcrübəsi olan ölkələrlə əlaqə yaradılmağa başlanıldı. İcraçı direktorun əsasən danışdığı dil onu ilk olaraq Rusiyadakı dairələrə aparıb çıxartdı. Uzun-uzadı danışıqlar çox vaxt apardı. Müəyyən

öhdəliklər barədə sözlər verildi. Lakin, bu öhdəlikləri çoxlu "amma", "bəlkə", "ola bilsin" kimi qeyri-müəyyən sözlər müşayiət edirdi. Və nəhayət, haradasa iyul-avqust aylarında "bəlkə", "ola bilsin"lər üstün gəldi və Rusiyadakı yoldaşların Antarktida ilə əlaqələrinə, nəqliyyat imkanlarına ümidin o qədər də əsaslı olmadığı ortaya çıxdı. İcraçı direktor "alınmadı" əhval-ruhiyyəsi ilə, "Gözləyək, bəlkə vəziyyət dəyişər" təklifini verdi.

İnternetin həyatımızda reallaşdırdığı inqilabın nəticələrini şüurumuz hələ tam "həzm" etməyib. Bir çox hallarda, biz hələ də nəyi edə bilib-bilməyəcəyimizi ənənəvi təfəkkürün meyarları ilə ölçürük. Təkid etdim ki, Antarktidada fəaliyyət göstərən başqa ölkələrlə internet vasitəsilə əlaqələr qurulsun, alternativ imkanlar araşdırılsın....

Antarktida ilə bağlı çoxsaylı saytlar mövcuddur (yeri gəlmişkən qeyd etməliyəm ki, bizim ekspedisiya öz işini başa çatdırdıqdan sonra bu barədə çox böyük hörmət notlarında yazılmış məlumatları məhz elə bu saytlar yaydı. Məlumatların yazılışında müəyyən bir təəccüb də hiss olunurdu. Azərbaycan? Antarktida? Qloballaşma gedir!) və bir neçə gün aparılan davamlı axtarışlardan sonra məlum oldu ki, Cənubi Afrika Respublikasından bir qrup insan "Afrika üçün sülh" bayrağını Antarktidaya - Cənub qitəsinə aparmaq, yürüşün sonunda isə bu bayrağı Cənub Qütbünə sancmağı planlaşdırırlar. Düzdür, o da məlum oldu ki, bu insanların da heç biri əvvəllər Antarktidada olmamışdır.

Lakin Antarktida Müqaviləsinin üzvü kimi burada öz stansiyası fəaliyyət göstərən Cənubi Afrika Respublikasının nümayəndələri bu Müqavilə əsasında Cənub qitəsinə gəlmək istəyən nisbətən kiçik və bu sahədə təcrübəsi olmayan ölkələrin nümayəndələrinə kömək etmək iqtidarın-

da olan ALE təşkilatı ilə əlaqə qurmuşdular. Biz də bu vasitə ilə ALE ilə razılaşmağa cəhd göstərə bilərdik. Belə də etdik. Bizim müraciətimizə çox skeptik yanaşıldı. Çox çətinliklə əvvəlcə bir, sonra isə iki nəfərin Antarktidaya getməsi üçün bu təşkilatın imkanlarından istifadə edə biləcəyimiz bildirildi. Düzdür, cəmi iki nəfərin getmək şansı olmasının təkcə ALE-nin mövqeyi ilə bağlı olduğuna mənim xeyli şübhələrim var idi. Sonrakı hadisələr şübhələrimin nə dərəcədə əsaslı olduğunu təsdiq etdi! Niyə planlaşdırıldığı kimi dörd-beş nəfər yox?

Birinci, icraçı direktor nədənsə seçim ideyasını sabotaj etdi. Yəni açıq etiraz etmədən işi icraya götürdü, fikrin əleyhinə heç bir arqument səsləndirmədi, lakin, icrasını elə yubatdı ki, ALE və Cənubi Afrikalılarla danışıqlarda qərar vermək zamanı çatdıqda bizim əlimizdə Antarktidaya gedə biləcək dörd-beş nəfərin siyahısı yox idi. Düşünürəm ki, burada ambisiyalar da az rol oynamamışdı. (Sonradan yürüş zamanı Antarktida mühitinin yaratdığı etiraf və səmimiyyət atmosferində bu yoldaş mənə bildirmişdi ki, mənim bu təklifim əslində incikliklə qəbul olunmuşdu. Belə çıxırdı ki, ekspedisiyanın rəhbərindən başqa hamı müəyyən seçim prosesindən keçməli və ekspedisiya üzvü olub-olmamaq bu seçimin nəticələrindən asılı olmalı idi. Bu fikrin özü məndən tapşırıq alan şəxsə dözülməz görünmüşdü). Aydın oldu ki, bu heç də Azərbaycanda bu işin öhdəsindən gələ biləcək cürətli və fiziki imkanları olan adamların qıtlığı ilə bağlı deyil. (Mən isə, ümumiyyətlə ekspedisiya başa çatandan sonra düşünürəm ki, bu işin öhdəsindən minlərlə azərbaycanlı gələ bilər. Bu iş nə qədər çətin iş olsa da, kiçik təcrübəmə söykənərək bunu deyə bilərəm). Hətta mənim tanıdığım, bu ekspedisiyada yerini

gördüyüm bir neçə fotojurnalist və alimləri yanıma dəvət edərək bu mövzuda apardığım söhbət də nəticə vermədi. Heç kəs “yox” demədi, amma hər bir razılığın yanında bir “əmma” da var idi. Aydındır ki, belə bir şəraitdə, nəticəsinə özümün də əmin olmadığım halda, başqalarının da bu işdə iştirakına təkid etmək düz olmazdı. Bu insanların başına bir iş gəlsəydi, mən və mənim yaxınlarım onların qohum-əqrəbasına nə cavab verərdi? Bəzi hallarda isə söhbət etdiyim adamların artıq Antarktidaya yürüşə hazırlıq işlərinə cavabdeh olan şəxs tərəfindən təlimatlandırıldığı hiss olunurdu. Söhbətdən belə çıxırdı ki, onlardan xahiş olunub ki, razılıq verməsinlər, çünki başqasının yerini tutmuş olacaqlar. Əlbəttə məsələyə belə yanaşmanın absurd olmasına baxmayaraq, bütün bunların vəziyyətə təsirindən qaçmaq da mümkün olmadı.

İkinci bir tərəfdən, ALE üçün hər bir insanı Antarktidaya çatdırmaq və onu geri qaytarmaq çox ağır və baha başa gəlir. Heç kəs, o cümlədən ALE-dəki qərar verənlər də Azərbaycanı Antarktidaya ekspedisiya təşkil edən ölkələrin sıralarında görməmişdilər, indi də görmürdülər. Antarktida stansiyalarına beş nəfər üçün hazırlıq işlərini aparmaq və qızıldan da baha yanacaq təşkil etmək, çadırları, kirşələri və s. oraya çatdırmaq və sonra da, hansı səbəbdənsə səfər baş tutmadıqda, bunların əziyyətini çəkmək. Əlbəttə, bunu heç kəs istəməz. Buna görə də məsələ ciddiləşəndə daha bir nəfərin ekspedisiyaya qatılmasına dəstək verilməsinə razılıq verildi ki, görək bu işdən nə çıxır.

Nəticədə, birinci Azərbaycan-Antarktida Cənub Qütbünə ekspedisiyanın iki nəfərlik tərkibdə həyata keçirilməsinə son hazırlıq mərhələsi başlandı...

## 1.2. Son hazırlıqlar

...Təcili surətdə əldə etdiyimiz xüsusi siyahı üzrə ifrat aşağı temperaturlara dözən, insanın 24 saat mənfi 40°-50° temperaturda sağ qalmasını təmin edən avadanlıq, geyim, cihazlar almaq üçün ayrı-ayrı ölkələrə adamlar göndərilməyə başlanıldı. Bu məqsədlə təkcə Moskvaya Federasiyanın icraçı direktoru tərəfindən üç dəfə səfər edildi. Moskvaya başqa məqsədlə göndərilən Federasiyanın vitse-prezidenti Sarvan Rəsulova da müəyyən avadanlıq alıb gətirilməsi tapşırıldı və icra olundu.

Dağ idman növləri ilə məşğul olan Aleksandr və Yevgeniya Nəcəfovların Moskvada olmalarından istifadə edərək, onlardan da müəyyən əşyaların, cihazların, xüsusi soyuq, ifrat enerji itkiləri şəraitində, çox yüksək dağlıq ərazilərdə ürəyin, qan-damar sisteminin, qaraciyərin, böyrəklərin tam səfərbər rejimdə çalışmasına kömək edən, onları kollapsdan qoruyan dərmanların alınıb gətirilməsi xahiş olundu və bu xahiş də yerinə yetirildi.

Türkiyədən və Avstriyadan (bu ölkələrin iri şəhərlərində dağçılıq, sualtı və hava idman növləri üçün tələb olunan xüsusi keyfiyyətlərə malik geyim və avadanlıqlar satan mağazalar fəaliyyət göstərir. Ümid edirik ki, belə bir mərkəzin Bakıda da yaradılmasına nail olacağıq. Düşünürəm ki, bu bizə çox lazımdır. Bəlkə də Azərbaycanda qış yürüşlərinin, paraplanerizmin, deltaplanerizmin, paraşütçülüyün inkişafının lazımi səviyyədə olmamasının səbəblərindən biri də elə budur) xüsusi eynəklərin (Antarktidada əgər bir neçə saat bu cür iri, sifətin yarısını tutan eynəksiz gəzsən, "qar korluğu" deyilən xəstəliyə tutularsan, görmə qabiliyyətinin 80-90%-i

itər və yaxud 15-20 dəqiqə ifrat soyuqda qaldıqdan sonra göz bəbəklərin donub partlaya bilər), xüsusi maskaların (hətta bəzən düzgün seçilməyərək geyinilmiş maska da, ayrı-ayrı ölkələrin ekspedisiya üzvlərinin çənə, yanaq və burunlarının dərin donmasına səbəb olmuşdu), xüsusi nazik, yüngül (bütün günü ayaq üstə yürüş şəraitində olarkən, əyninə geyindiyin, kirşəndə daşıdığın hər bir şeyin çəkisi həyati əhəmiyyət daşıyır) və eyni zamanda isti saxlayan, lakin tərləməyə qoymayan (Antarktida şəraitində tərləmək yarım saatdan sonra əynindəki paltarlarının buz zirehinə çevrilməsi deməkdir) alt paltarların, xizək sürərkən istifadə olunan ehtiyat teleskopik çubuqların, küləyin istiqamətini və sürətini, havanın təzyiqini və dayandığın yerin dəniz səviyyəsindən hündürlüyünü ölçən və bir sıra başqa geyim və cihazların alınması və gətirilməsi təmin olundu. Antarktidaya ekspedisiyanın hazırlanması üçün beş nəfər ayrı-ayrı insan səkkiz dəfə müxtəlif xarici ölkələrə səfərlər etməli oldular.

Gətirilən avadanlığı, geyimi yoxlamaq lazım idi. Xoşbəxtlikdən bizim Böyük Qafqaz dağlarımız olduğundan uzağa getmək lazım gəlmir. Həm hündürlüyə uyğunlaşmaq, yataq kisəsinin ifrat mənfi temperatura dözüm qabiliyyətini yoxlamaq, qu tükü ilə doldurulmuş gödəkcə və şalvarın hərəkətsiz olduğun zaman mənfi temperaturlarda donmanın qarşısını ala bilib-bilməməsini aydınlaşdırmaq üçün noyabr-dekabr aylarında Qafqaz dağlarına bir neçə yürüş təşkil olundu. Şahdağ zirvəsinin keçidində (dəniz səviyyəsindən 3700 m yüksəklikdə) Tufan qanadının belində (4000 m) gecə düşərgələri salındı.

Yürüş xizəklə və kramponlarla (buz üzərində yerimək üçün ayaqqabıya bərkidilən xüsusi möhkəm metaldan hazırlanmış dişlərlə) həyata keçirilməli idi. Əvvəllər biz

Azərbaycan buzlaqlarında kramponlarla çox hərəkət etmişdik. Ancaq heç zaman xizəklərdən istifadə etməmişdik. Moskvadan gətirdiyimiz xizəkləri də sınadıq. Nəticədə bir neçə günlük yürüş zamanı bizim xizək üzərində hərəkətimiz əvəzinə, xizəklər bizim çiynimizdə səyahət etdi. Xizək sürməyi öyrənməyə vaxt da az idi. Bununla belə düşünürəm ki, xizəkçiliyə ciddi fikir verməliyik. Özü də söhbət təkcə sürətli dağ idman xizəkçiliyindən getmir. Qalın qar örtüyü olan bütün yerlərdə, o cümlədən, mailliyi az olan dağ ərazilərində də xizəklə yerimək uzunboğaz çəkmə ilə yeriməkdən qat-qat rahatdır. Həm də bu, hərəkətin sürətini dəfələrlə artırır. Elə bizim sonrakı Antarktida təcrübəmiz də bunu təsdiq etdi. Məlum oldu ki, biz xizəklə çox yaxşı yeriyə bilirik və eyni zamanda xizəksiz dizə qədər qara bataraq, hərəkət edə bilmədiyimiz yerdə xizəklə çox rahat yerimək olur.




***Eksklyuziv yazılı külək və rütubət keçirməyən qore-teks gödəkcəsi***



*Böyük Qafqazın Şahdağ massivində yerləşən İlham zirvəsi*



*Azərbaycan Hava və Ekstremal İdman Növləri Federasiyasının idmançıları Böyük Qafqazın Qızıl Qaya Massivində yerləşən Heydər zirvəsinə yürüş zamanı*



***Şahdağ massivinə təlim-məşq yürüşü***



***İlham zirvəsində.***
***(4042m)***




***İlham zirvəsində***



***Heydər zirvəsində***



***Heydər zirvəsinə ziyarət.***
***10 may 2009-cu il***



***Bayrağımız Heydər zirvəsində***

2008-ci ilin noyabr-dekabr ayları tamamilə intensiv hazırlıq həyəcanları ilə keçdi. Adi halda xırda görünən hər bir məsələ, qarşımızda duran vəzifənin fonunda ciddi problemə çevrilərək xüsusi səylər tələb edirdi. Məlum oldu ki, xüsusi "Everest" uzunboğaz çəkmələri isti corabla geyinildikdə ayaqları sıxır. Deməli, yenidən xarici ölkələrin birinə kimsə getməli, bir ölçü daha böyük olan çəkmələri gətirməli idi. Elə bu çəkmələr üçün uyğunlaşdırılmış kramponlar da, sınaq zamanı nədənsə qırmaqlardan çıxaraq iki yerə ayrılırdı. Bizim dağ şəraitində onu yenidən ayaqqabıya bağlamaq xeyli vaxt aparırdısa, təsəvvür edin ki, Antarktidada - ətrafda min kilometrlərlə heç bir yardımın mövcud olmadığı bir şəraitdə yürüş zamanı 3-4 dəqiqədən çox dayanmanın sadəcə olaraq, həyat üçün təhlükəli olduğu bir zamanda, bu doğrudan da necə ciddi problemə çevrilə bilərdi. Deməli, bu kramponların da ya başqa bir növü əldə edilməli (yenə də ancaq hansısa xarici ölkədən), ya da onların konstruksiyası dəyişdirilməli və etibarlılığı dəfələrlə yoxlanılmalı idi.

## 1.3. Sınaq yürüşləri

Sınaq yürüşlərindən birini Böyük Qafqazın Tufan dağına etdik. Məqsədimiz sadəcə dağa qalxmaq deyildi. Biz həm nə qədər mümkündürsə yüksək bir yerdə gecələyərək ifrat yüksəkliyə orqanizmimizi uyğunlaşdırmalı (3000-4000 metr yüksəkliklərdə artıq oksigen çatışmazlığı, "yüksəklik xəstəliyi" insanı haldan salır, hərəkətləri yavaşıdır, baş ağrılarına, yuxusuzluğa, başqa mənfi fəsadlara səbəb olur. Antarktidada yürüşün demək olar ki, 80-90%-i 3000-4000 metr və hətta 5000 metrə qədər yüksəkliklərdə baş tutmalı idi), həm də cəhd edib Böyük Qafqazı aşaraq (yürüş Qubanın Xınalıq kəndindən başlamışdı) Qəbələyə enməli idik. Qalın qarla örtülmüş dağüstü plato ilə bir neçə günlük hərəkət bütün ləvazimat və avadanlıqlar üçün, elə bizim özümüz üçün də çox yaxşı sınaq və məşq ola bilərdi.

Əvvəlcədən deyim ki, yürüşün müəyyən mərhələsində kramponların düzgün seçilməməsi nəticəsində çox dik buzlaqdan keçmək mümkün olmadı və mən hətta bir dəfə dik buzlu yamacla yeriyərkən müvazinətimi itirdim və bir xeyli məsafəni yuvarlana-yuvarlana buzun üstü ilə aşağıya doğru sürüşdüm. Nəhayət, buzun üzərinə çıxan qara daşlara ilişərək, birtəhər yuvarlanmanı dayandıra bildiyim zaman aşağıya doğru hərəkət edən nəsə məni ötüb keçdi və səs sala-sala dərənin dibinə, öz yoluna davam etdi. Diqqətlə baxdıqda bunun hələ yuxarıda yıxılarkən arxa çantamdan buzun üstünə düşən qırmızı rəngli, isti saxlayan üzlüyün içində olan termosun olduğunu anladım. Hətta, "Nə yaxşı ki, biz artıq bir yerdə deyilik"

deyə, fikirləşməyə də macal tapdım. Bir az özümə gələndən sonra ətrafıma baxdım və parçalara bölünmüş fotoaparatın qalıqlarını gördüm.

Nə isə, o zaman biz yolumuzu davam etdirdik, lakin növbəti buzlu dik bizi yuxarıda dediyim kimi geri qayıtmağa məcbur etdi. İlin bu vaxtı günəş dağlarda saat 5-6 arası yox olur. Həmin saat, onsuz da soyuq olan hava daha da kəskin soyuyur və qaranlıq düşür. Buna görə də, nə qədər göz-gözü görür təcili çadır qurmalı və gecələməyə hazırlaşmalısan. Həmin axşam biz çadırımızı elə bir yerdə qurmuşduq ki, bir tərəfdən Xınalıq kəndinin evlərindən gələn işıqlar, o biri tərəfdən isə Qəbələnin işıqları görünürdü. Qəbələdən bir qədər kənarda isə məlum Qəbələ RLS-nin nəhəng və bir az da irəliyə doğru əyilmiş binası görünürdü.

## 2. BAŞLANDI!

Hardasa 2008-ci il dekabrın 10-u 15-i arası biz artıq yüklərimizi yığmağa və yola hazırlaşmağa başladıq. Yataq kisələri, isti paltarlar, cihazlar, xizəklər, bunlar təxminən 150 kq-a yaxın və 8-10 bağlama təşkil edirdi. Biletlərimiz artıq əlimizdə idi. Dekabrın 24-də, gecə bütün bu hazırladığımız yüklərlə İstanbula yola düşdük. Bir neçə saat İstanbul aeroportunda yüklərimizi gömrükdən keçirdərək, Madrid reysinə və oradan da Çilinin paytaxtı Santyaqoya, daha sonra isə ən cənub şəhəri olan Punta-Arenasa qeydə aldırdıq. Əfsuslar olsun ki, Türk Hava Yolları bizə çox əziyyət verdi. Bu qədər yükü Bakıdan yola düşdüyümüz son məntəqəyə tam qeydə almadı. Yükün bir qismini İstanbula qədər qeydə aldırdıq və biz bunun məqbul olmadığını dedikdə, şirkətin nümayəndəsi “Rahatsız olmayınız əfəndim, baqajınız nərəyə istərsiniz-

sə, oraya kadar aparılıcaq" deyərək, bizi başından etməyə çalışdı. Yaxşı ki, ona inanmadıq, yoxsa İstanbulda ilişib qalan yüklərimizin bir qismi Antarktida əvəzinə İstanbul aeroportunun yiyəsiz baqajlar anbarını görəcəkdi...

Nəhayət, Madridə çatdıq. Bir qədər gözləmədən sonra Santyaqoya uçan təyyarəyə - nəhəng, rahat 15-16 saat uçuşa uyğunlaşmış bir təyyarəyə keçdik. Dekabrın 25-də Santyaqoda Punta-Arenas təyyarəsini gözlədiyimiz zaman Çilinin yayının nə qədər mülayim olduğunu və əynimizdəki isti paltarların bu şəraitə nə qədər uyğunsuz olduğunu təkcə aeroportdakıların bizə gülümsəyərək baxmalarından deyil, elə özümüz də hiss etdik.

Punta-Arenasa uçuş çox kiçik bir təyyarə ilə həyata keçirildi. Ümumiyyətlə, Çili Cənubi Amerikanın qərb hissəsində, Kordilyer dağlarının qərb ətəklərində yerləşən çox ensiz, lakin 4500 km uzunluğunda bir ərazidə yerləşir. Yaxşı inkişaf etmişdir. Hiss olunurdu ki, əhalisinin əksəriyyəti yerli hindu tayfaları ilə Avropadan gələn immiqrantların qarışığından ibarətdir. Çox sakit, mədəni insanlardır. Ölkələri də çox səliqəli-sahmanlı görünürdü. Bir söz soruşursansa, sənə diqqət göstərir, kömək etməyə çalışırlar.

Bir neçə saatlıq uçuşumuzun birinci hissəsində illüminatordan səliqəli kvadratlara bölünmüş tarlalar, meyvə bağları, yaraşıqlı damları olan kəndlər, şəhərlər görünürdü. Sonra isə tədricən bütün bunlar yox oldu. Əvəzində həmişəyaşıl ağaclardan ibarət meşəliklər və adda-budda açıq yaşıl rəngli çəmənliklər görünməyə başladı. Yolların da görünməməsindən hiss olunurdu ki, buralarda təbiət toxunulmaz qalmışdı. Cənuba doğru yaxınlaşdıqca qarla örtülmüş təpələrin və buz bağlamış körfəzlərin sayı çoxalmağa başladı.

## 2.1. Punta-Arenas

Punta-Arenas bizi çox soyuq və rütubətli hava ilə qarşıladı. Nisbətən kiçik və sakit aeroportu var idi. Heç bir problem olmadan yüklərimizi aeroportun qarşısındakı meydançaya yığdıq və yükümüz çox olduğuna görə bir mikroavtobus axtarmağa başladıq. Düzü bu heç çətin də olmadı. Yükümüzü mikroavtobusa yerləşdirdiyimiz zaman aeroportdan 35-40 yaşlarında qarasaç, ucaboy bir xanım çıxaraq bizə yaxınlaşdı. Həmin an gözə çarpdı ki, qadının bir əlində bir neçə barmağı çatışmır. Yaxınlıqda başqa münasib taksinin olmadığına görə bizimlə Punta-Arenasa qədər getmək imkanının olub-olmamasını soruşdu. Biz etiraz etmədik. Yolda istər-istəməz sual-cavab, hal-əhval tutma başlandı. Məlum oldu ki, xanım məşhur Norveçli alpinistdir və barmaqlarını da Everest dağında donvurmadan itirib. Biz onu bir də Vinson dağının zirvəsinə qalxaraq geri döndüyümüz zaman gördük. Onun yürüşü uğurlu başa çatmışdı. Biz isə hələ Cənub Qütbünə doğru hərəkətimizi davam etdirməli idik.

Punta-Arenas şəhərində o qədər də böyük olmayan "Terra-Delfüeqos" mehmanxanasında bizi isti otaqlar gözləyirdi. 40-50 saatlıq aeroport, təyyarə dəyişmələrindən sonra, ən çox arzusunda olduğumuz da elə bu idi. Yerləşəndən sonra ALE-nin adamlarının bizimlə əlaqəyə girməsini gözləməli idik. Vaxtı hədər itirməmək üçün qısa istirahətdən sonra şəhərlə tanış olmağı qərarlaşdırdıq. Şəhər Odlu Torpaq adalarının birində yerləşir. Port şəhəri olmaqla, Magellan boğazı vasitəsilə Cənub okeanlarına çıxır. XIX əsrdən balina ovu ilə məşğul olan gəmilərin və gəmiçilərin sığınacaq yeri kimi inkişaf etməyə başlamış, iqliminin sərt olmasına baxmayaraq, həm də kənd təsərrüfatının (əsasən qoyunçuluqla məşğul-

durlar, çünki ətrafda böyük və ilin 7-8 ayı müsbət 5°-10° temperaturlarda olduğundan həmişə yaşıl qalan çəmən və otlaqları boldur) inkişaf etdiyi bir regionun mərkəzidir. Son zamanlarda buralarda böyük qaz ehtiyatları tapılmış və bu da şəhərin nisbətən zəngin olmasına təsir etmişdir. Şəhərdə 125000 nəfər əhali yaşayır. Bunlar əsasən vaxtilə İtaliyadan, İspaniyadan və Xorvatiyadan gəlmiş immiqrantların törəmələri və onlarla müəyyən dərəcədə qaynayıb-qarışmış hindulardan ibarətdir. Şəhərin bir çox küçələri slavyan adları daşıyır. Görünür bu da xorvatların təsiridir. Ən böyük kilsə də katolik-xorvat kilsəsidir. Antarktidanın sahillərində aysberqlərə tamaşa etməyə gələn çoxsaylı Amerika və Avropa turistlərini gətirən kruiz gəmiləri də özlərinin əsas bazaları kimi bu şəhəri seçmişdilər. Ona görə də bu kiçik, soyuq yayı olan şəhərin küçələrində çoxsaylı turistlərə rast gəlmək olur.



***Punta-Arenas***



***Punta-Arenasın əsas meydanlarından biri***



***Uzaqda kruiz gəmiləri görünür***





***Gözoxşayan yaşıllıq*** ***Bu həm də şəhərçilik ənənəsidir***



***Punta-Arenasda keçirilən brifinqdə***




*Şəhərdən bir görüntü*



*Antarktidaya uçuşa hazırlıq*



*Yüklər aeroporta daşınır, oradan da Antarktidaya*




*Yükləri və tədqiqatçıları Antarktidaya aparan "İL-76" təyyarəsi*

## 2.2. Cənubi afrikalılar, Mayk Horn və Antarktida Müqaviləsi




***Məşhur estremal səyahətçi Mayk Hornun öz əli ilə yazdığı ünvanı***

Min zəhmətlə bir neçə ölkələrə adamları ezam edərək, əldə edə bildiyimiz ləvazimatı, xüsusi geyimləri, avadanlığı buraya gətirmək heç də vacib deyilmiş. Şəhər həm də ekstremal soyuq şəraitdə işləyəcək ekspedisiyalar üçün istehsal olunmuş bütün bu əşyaların satışı ilə məşğul olan mağazalarla dolu idi. Həm də, burada daha etibarlılarını əldə etmək olardı. Əslində biz də bu fürsəti əldən vermədik və müəyyən çatışmayan əşyaları və yaxud keyfiyyətinə o qədər də etibar etmədiklərimizin əvəzinə daha yaxşılarını burada əldə etdik. Dekabrın 27-də nəhayət qarşıdakı 31 günlük Antarktida yürüşündə bizimlə çiyin-çiyinə gedəcək cənubi afrikalı yürüşçülər də Punta-Arenasa gəlib çıxdılar və bizimlə eyni mehmanxanada yerləşdilər. Onlarla birlikdə bir dəstə cənubi afrikalı alpinistlər də gəlmişdilər. Alpinistlərin məqsədi Antarktidanın ən yüksək zirvəsi olan 5000 metrlik Vinson dağına qalxmaq və sonra vətənlərinə qayıtmaq idi. Gələnlərin hamısı vaxtilə əcdadları Hollandiyadan, İngiltərədən Cənubi Afrikaya köçmüş immiqrantların törəmələri idi. Hiss olunurdu ki, mad-

di imkanları yaxşı olan hər bir ağdərili cənubi afrikalı üçün belə riskli səyahətlər bir növ arzuolunan, necə deyərlər adrenalin mənbəyidir. Bu ölkənin 11 vətəndaşı Everest dağının zirvəsinə qalxmış, bir çox başqa mürəkkəb səyahətlərin iştirakçıları olmuşlar. Hətta dünyanın ən məşhur ekstremal səyahətçilərindən biri olan və hal-hazırda İsveçrədə yaşayan Mayk Horn da Cənubi Afrika vətəndaşıdır (yeri gəlmişkən Arktika qışı zamanı işıq üzü görmədən Kanada sahillərindən 63 günə xizəklə Şimal qütbünə yürüş edə bilən ilk insan da elə Mayk Horndur).

Antarktidadakı missiyamızı başa çatdırdıqdan sonra geri qayıtmaq üçün Patriot-Hills stansiyasında bizi Çiliyə aparacaq yük təyyarəsini gözlədiyimiz zaman Mayk Horn, bizimlə birlikdə nisbətən iri qərargah çadırında olan öz cənubi afrikalı həmvətənlərinə baş çəkmək üçün bura gəlmişdi. Məlum oldu ki, Monako şahzadəsi Albert iki oğlu ilə Cənub Qütbünə təyyarə ilə səfər etmiş və qütbə çatmağa qalmış 7-8 km məsafəni bir günlük xizək yürüşü ilə başa çatdırmışdır. Bu işdə onlara yardımçı əlbəttə ki, dünyada ən yaxşı və təcrübəli təlimatçılardan biri olan Mayk Horn ola bilərdi və ona görə də, şahzadə ondan Antarktidaya gəlməsini xahiş etmişdi. Horn da, şahzadəni Antarktidadan geriyə yola saldıqdan sonra bizim çadıra gəlmişdi. Biz onunla orada tanış olduq. Çox maraqlı söhbətimiz alındı. Mən onu Azərbaycana dəvət etdim. O, bu dəvəti məmnuniyyətlə qəbul etdi və gizlətmədi ki, Qafqaz onun üçün xüsusən maraqlı regiondur.

Hava çox küləkli olduğundan uçuş üçün şərait yox idi. Buna görə də, biz üç gün Punta-Arenasda ilişib qaldıq. Nəhayət təcili surətdə yüklərin son baxışı keçirildi. Nəyi özümüzlə aparacağıq, nələr isə oteldə qalacaq? Bunun

üçün son çağırış səsləndi. Antarktidaya gedəcək yüklər otelin qarşısına qalaqlandı. ALE nümayəndələri yük avtomobili ilə otelə gəldilər. Gələnlər avtomobildən bir yer tərəzisi çıxartdılar və çox işgüzarcasına bütün yüklərin kimə məxsus olması yazılarını yoxlayaraq çəkisini müəyyən etməklə, qeydlər apardılar və yükləri avtomobilə dolduraraq, aeroporta istiqamət götürdülər.

Bu da son gözləmə dəqiqələri. Nəhayət biz də aeroporta yola düşdük. Aeroportda heç bir gömrük sərhəd baxışı keçirilmədən bizi bir zala topladılar.

Baxmayaraq ki, Antarktida Müqaviləsi mövcuddur (1959-cu ildə imzalanıb) və Çili bu Müqavilənin üzvüdür (Müqavilə iştirakçıları öhdəlik götürmüşlər ki, heç bir ölkə Antarktidaya ərazi iddiaları ilə yanaşmayacaq və bu qitə heç kimə məxsus olmayan təbii ehtiyatlarının kəşfiyyatı və istismarı qadağan olunmaqla, ancaq elmi-tədqiqat işləri üçün açıq olan ekoloji rezervat olaraq qalacaq) reallıqda isə Antarktidada müxtəlif formalarda təmsil olunan bütün ölkələr kimi, o da öz iddialarından tam əl çəkməmişdir və Cənub qitəsinin müəyyən ərazisini özününkü sayır. Əslində orada heç bir sərhəd, sərhədçi, hökumət orqanları, ümumiyyətlə 5-10 tədqiqatçı və ekstremal səyahətçidən başqa heç kim yoxdur. Lakin, öz prinsipial mövqeyini nümayiş etdirmək üçün Çili ərazisini Antarktida istiqamətində tərk edərkən heç bir sənəd və yük yoxlanılmır (lap elə ölkədaxili aviareyslərdəki kimi).

Yorucu gözləmə saatları keçdi və nəhayət biz təyyarənin bortuna qalxdıq. Bu çox köhnə, üstündə "Alma-Atı Airlines" sözləri yazılmış Rusiya istehsalı olan İl-76 yük təyyarəsi idi. Üstündəki yazıya baxmayaraq, təyyarənin özü kimi ekipajı da Rusiya "istehsalı" idi, salonu isə keç-

miş kolxoz anbarı ilə hansısa elektromexanika sexinin hibridinə oxşayırdı. Salonun arxa hissəsinə bizim yüklərimiz yığılmışdı. Qabaq hissədə adi təyyarədəkindən daha kiçik və darısqal 25-30 kreslo qoyulmuşdu. Bu kreslolar ümumi ab-havaya tamamilə yad və burada təsadüfi görünürdülər. Təyyarənin yanlarından heç bir örtüyü olmayan və zahirən çox köhnə görünən müxtəlif qalınlıqda və rənglərdə plastik örtüklü məftillər keçirdi. Düz qarşımızda pilotların oturduğu kabinəni bizdən ayıran bir divar dururdu. Divarın qarşısında kiçik kənd mədəniyyət evlərinə xas olan bir “səhnəcik”, onun üstündə isə köhnə taxtadan düzəldilmiş bir stol var idi. Stola sınıq-salxaq və qoltuqlu bir kreslo da söykənmişdi. Kresloda əyləşən adam isə lap elə anbar qarovulçusuna oxşayırdı. Uzunboğaz çəkmələrini də çıxarıb cütləşdirərək səliqə ilə öz yanında qoymuşdu. Ayaqlarında isə köhnə “domaşnik” görünürdü.

Uçuş dörd saat yarım davam etdi.

## 2.3. Patriot-Hills

Nəhayət Patriot-Hills stansiyasının 1,5 kilometrliyində (bu yerlərdə həmişə güclü külək olduğundan üstünə heç vaxt qar oturmayan təbii mavi buz meydançası əmələ gəlmişdir. Təyyarələr bu yerdən enmə-qalxma zolağı kimi istifadə edirlər) salonda olanların hamısı Mars planetinə çıxacaqlarmış kimi xüsusi qu tükündən düzəldilmiş gödəkcələrinin yaxalarını yaxşı-yaxşı düymələdilər, papaqlarını və isti əlcəklərini geyindilər və nigarançılıqla təyyarənin qapısının açılmasını gözləməyə başladılar.

Bu da Antarktida! Ağ sonsuzluq.

Hava buludlu olduğu üçün hətta səma da ağ idi. Bir

neçə kilometrlikdə əslində 1500-1800 m hündürlüyündə olan, lakin qalın buz qatının altında qalaraq ancaq 500-600 metrlik təpələri görünən Patriot dağları yüksəlirdi. Yeganə fərqli rəng bu dağların sıldırım, elə buna görə də qarsız və buzsuz qayalarının qaraltısı idi. Təyyarədən düşərək, uzaqda siluetləri zorla seçilən Antarktida stansiyasının çadırlarına doğru getməyə başladıq. Buzun qarla örtülü hissələrində nisbətən normal yerimək olurdusa, açıq buz üstündə hərəkət etmək üçün çox diqqətli olmaq lazım idi. Əslində bu heç hamar buz da deyildi. Elə bil ki, xırda ləpələri olan su səthi qəflətən donmuşdu. Lakin bu onun sürüşkənliyini azaltmamışdı. Yeriməyi isə demək olar ki, mümkünsüz etmişdi. Yıxılanda bu ləpələrin necə iti və sərt olduğunu hiss edirdim.

Nəhayət, düşərgəyə yaxınlaşdıq. Düşərgənin sağ tərəfində çox səliqəli mavi və narıncı rənglərdə eyni tipli 20-25 çadır düzülmüşdü. Sonradan bildik ki, bu daim stansiyada qalan işçilərin yaşayış yerləridir. Bir də ki, bu çadırlar 40-50 min ABŞ dolları verərək Antarktidaya gəlmək, xizəkli kiçik təyyarə ilə Cənub Qütbünə uçmaq, orada bir-iki saat şəkil çəkdirərək yenə də buraya qayıdıb növbəti yük təyyarəsini gözləmək və uçub geriyə - vətənlərinə dönməklə kifayətlənən çox az saylı və çox zəngin Amerika, Avropa və Yaponiyalılar tərəfindən, necə deyərlər "lyüks" çadır kimi istifadə olunurdu. Sol tərəfdə isə iki çox kiçik, xizəkli "Otter Twin" (Kanada istehsalı) təyyarələri durmuşdu. Bir neçə iri çadır da var idi. Görünür bunlar da texniki-təchizat çadırları idi. Bizi nisbətən arxa planda olan ən iri çadıra apardılar. Bu çadırda hətta bir neçə stol da qoyulmuşdu. Antarktidanın yazılmamış qanununa - köhnə ənənəsinə sadiq qalaraq yeni gələnlər üçün "Xoş

gəldin!” süfrəsi açılmışdı. Çadırda hətta elektrik lampaları də var idi. Çadırın xaricində günəş şüalarını elektrik enerjisinə çevirən panellər də qurulmuşdu. 40-50 dəqiqəlik hal-əhvaldan sonra bizə öz çadırlarımızı qurmaq üçün düşərgənin cənub hissəsinin sol tərəfində yer göstərdilər. Bir saata qədər həmin yerdə qarın üst yumşaq qatını təmizləməli olduq. Külək qarla çadırın üstünü örtərək yıxmasın deyə, təmizlədiyimiz qardan mühafizə divarı da “tikdik”. Elə bu təmizlədiyimiz qar qalacığına bənzər meydançada da öz çadırımızı qurduq. Hamı kimi!




*Nəhayət Antarktidadayıq!*



***Patriot-Hills düşərgəsinə doğru***



***Hamar buz üzərində yeriməyi öyrənirik***



*"Otter Twin" xizəkli təyyarələri*



***Bizim üçün ayrılmış ərazi. Arxa planda bizim toplantı çadırımız görünür***



***Qərargah çadırı günəş panelləri ilə təchiz olunub***



***Patriot-Hills Antarktida stansiyasına məxsus müxtəlif texnika***



***eni il gecəsi (buna "gündüz"ü də demək olardı)***



***Gözləmək... başqa heç bir şey qalmır***



***Qar çovğunundan sonra çadırlarımızın ətrafını təmizləmək lazım gəlirdi (arxa planda Cənub Qütbünə kaytla yürüşə hazırlaşanlar məşq edirlər)***




***Patriot dağlarına yürüş yorucu idi***



***Açıq buz***



*Kaytla məşq edən yürüşçü.*
*Uzaqda Braziliyanın Antarktida stansiyasının*
*çadırları görünür*



*Xizəklərimizi yürüşə hazırlayırıq*

## 2.4. Gözləmək, yatmaq, tədqiqat aparmaq və yenə də gözləmək...

Mən heç vaxt, heç yerdə belə möhkəm, şirin, heç bir yuxu görmədən yatmamışdım. Hətta düşündüm ki, görünür Antarktida hələ qədim zamanlarda təcrid olunub ki, burada canlıların və onlara xas olan dramatik münasibətlərin energetik izləri demək olar ki, yoxdur və sənə heç nə təsir etmir, o cümlədən rahat yatmağa da. Gəldiyimiz gün havanın temperaturu mənfi 14°-15° idi.

Ertəsi gün temperatur düşməyə başladı, külək gücləndi. Qar da yağırdı. Bu çox qeyri-adi idi. Çünki Antarktida ən az yağıntısı və nisbi rütubətlilik kəmiyyəti ən aşağı olan qitə sayılır. Görünür qlobal iqlim dəyişmələri nəticəsində istiqamətini dəyişməyə başlamış, nisbətən sabit, qlobal hava axınları bu yerlərə rütubətli hava kütlələrini gətirməyə başlamışdı. Bu da ilk gündən izləməyə başladığımız, sonralar da dəfələrlə rastlaşdığımız Antarktidada, ümumiyyətlə meteorologiyada qeyri-adi sayılan fenomenlərə gətirib çıxartmışdır. Burada söhbət, nəinki beş-altı gün davam edən qar yağıntısından, həm də Cənub Qütbünə yürüş zamanı 3500 m hündürlükdə, buz platosunun üstündə mənfi 42° temperaturda süd kimi qatı, qəfil ortaya çıxan dumanlardan və başqa bu kimi təbiət hadisələrindən gedir.

Vinson massivinə doğru hərəkət etməkdən hələ söhbət gedə bilməzdi. Ona görə də, bu vaxtı hədər keçirməmək üçün bütün meteoroloji müşahidə ölçülərinin aparılmasına və nəticələrin xüsusi gündəlikdə qeyd edilməsinə başladıq. Bizim vizual müşahidələrlə buludluluğu, yağıntı-

nın intensivliyini, küləyin istiqamətini müəyyənləşdirmək imkanlarımız var idi. Bundan başqa biz xüsusi peşəkar cihazlar vasitəsilə durduğumuz yerin dəniz səviyyəsindən yüksəkliyini, atmosfer təzyiqini, havanın temperaturunu (günəş çıxdığı zaman günəş altında və kölgədə, ümumiyyətlə isə biz bu cihazın köməyi ilə eyni zamanda qarın və buzun temperaturunu, çöldə və çadırda havanın temperaturunu qeydə alırdıq), nisbi rütubətliliyi, küləyin sürətini və bir sıra başqa ölçüləri apara bilirdik. Bütün müşahidə ölçülərinin gündə bir neçə dəfə olmaq şərti ilə aparılması ekspedisiyanın ikinci iştirakçısına tapşırılmışdı. Bəzi hallarda hava şəraiti tələb edirdi ki, bunu ikimiz bir yerdə aparaq, o zaman biz belə də edirdik.

Növbəti gün hava şəraitinin yaxşılaşmadığını görüncə, bir neçə kilometrlikdə yerləşən Patriot dağlarını tədqiq etmək qərarına gəldik. Birinci yürüşümüz 6-7 saat çəkdi və biz 5 km-ə qədər məsafəni qət edə bildik. Bu yürüşdə ayağımıza sadəcə uzunboğaz çəkmə geyinmişdik və bir neçə kilometrdən sonra buz qatının mailliyini dəyişərək iti bucaq altında enməyə başlaması sonrakı hərəkəti mümkünsüz etdi. Çünki bu mailliliklə buz üzərində birtəhər irəli gedə bilsəydik belə, geriyə qalxmaq mümkün olmazdı. Ertəsi gün kramponları da çəkmələrimizə bərkidərək yürüşümüzü təkrar etdik və dağlara çatdıq. Sıldırım qayalı hissələrdə qaya parçaları qoparaq buzun və qarın üstünə düşmüşdü. Temperatur hər zaman mənfi olduğuna görə qarda ərimə və sonra da donma prosesi getmirdi. Yəni, qar dənəcikləri bir-birinə və daşlara bərk yapışmırdı.

Beləliklə, maraqlı görünən müəyyən qaya və mineral parçalarını toplamağa başladıq. Aydın məsələdir ki, heç

birimiz geoloq olmadığımızdan bunu hansısa elmi meyarlara söykənərək etmirdik. Lakin, Azərbaycan geologiya elminin Antarktida süxurlarını və minerallarını tədqiq etmək kimi unikal şansı bir də nə vaxt ola bilərdi? Həmin gün geriyə, bizə doğmalaşmış öz çadırımıza çox yorğun, lakin məmnun qayıtdıq.

Növbəti gün Patriot dağlarının əks tərəfini də tədqiq etmək fikrinə düşərək təkrar yola çıxdıq. Onsuz da hava şəraiti hələ Vinson dağı istiqamətində hərəkətə başlamağa imkan vermirdi. Bu yürüşümüz çox ağır oldu. Patriot dağlarının ən yüksək zirvəsinə (bu, durduğumuz yerdən 550 m hündürlükdə idi, buz qatının qalınlığını da nəzərə alsaq demək olar ki, hündürlük dəniz səviyyəsindən 1300-1500 m-ə bərabərdir) çathaçatda kramponlarımın biri qırıldı. Bu isə nəinki irəliyə hərəkəti mümkünsüz etdi, eyni zamanda geri qayıtmaq imkanlarını da sual altında qoydu. Xoşbəxtlikdən bu yürüşdə bizə qoşulan Barend Engelbrext adlı ingilis səyahətçisinin arxa çantasında belə hallar üçün ehtiyat hissələri varmış. Yarım saat itirdik, lakin yerimə qabiliyyətini bərpa edə bildik. Dağların əks tərəfi Cənub Qütbünə doğru tədricən yüksələn ucsuz-bucaqsız buz günbəzindən ibarət idi.

Zirvədən geriyə gəldiyimiz yolla dönmədik. Əksinə tədricən enən silsilənin düz üstü ilə hərəkətimizi xeyli davam etdirdik. Bu yolda da maraqlı məqamlarla rastlaşdıq. Sıldırım qayalıqlardan və buzla örtülü, mailliliyi nisbətən az olan yerlərin çətinliklərindən yaxa qurtarmaq üçün az-çox rahat yol axtarırdıq. Hələ düşərgədə ikən bir qrup amerikalının bizdən bir gün əvvəl bu zirvəyə qalxdığını eşitmişdik. Elə bizi də, bu zirvəyə qalxmağa həvəsləndirən bu xəbər olmuşdu. Enişə başlayanda izlərə rast gəldik.

Görünür həmin qrupun izləri idi. Geriyə yol tapmaq üçün bu bizə xeyli kömək etdi. Antarktida səfərimizin son günlərində məlum oldu ki, amerikalı qrupun bu kiçik zirvəyə qalxması onun az qala yeganə uğuru olmuşdur. Üç dəfə cəhd etmişdilərsə də, Vinson dağına qalxa bilməmişdilər. Sonuncu gün Çiliyə təyyarə gözləyərkən, onlar da bizimlə bir yerdə, eyni gözləmə çadırında idilər. Çox məyus görünürdülər. Onların yerinə olmaq istəməzdim.

O ki, qaldı bizim Patriot-Hillsin zirvəsindən geri dönməyimizə, bu yolda biz bir neçə dəfə üzü günəşə açıq olan bir neçə amfiteatrdan keçməli olduq. Bu yerlərə günəşə açıq yarımkraterlər də demək olardı. Divarları həddən artıq dik olduğu üçün zəif külək belə orada qarın çox qalmasına imkan vermirdi. Nəticədə günəş maneəsiz olaraq qara qayaları az da olsa isindirə bilirdi. Bu isə kraterin dibindəki nisbətən düz yerdən də buzların buxarlanaraq tez yox olmasına səbəb olurdu. Keçdiyimiz bu kimi krater dibi düz yerləri geoloqlar üçün cənnət adlandırmaq olardı. Milyon illərdə heç bir şeyin, hətta mikrobun da belə toxunmadığı müxtəlif rəngli mineral və süxur parçaları amfiteatrın dibini örtürdü. Aydın məsələdir ki, mən də bu imkandan xeyli bəhrələnmişdim və çadırlara doğru hərəkətim zamanı bu daşların ağırlığını hiss edirdim.

## 2.5. Antarktida insanı sınayır

Antarktidada düşərgə həyatına başladığımız ilk anlardan yol gəldiyim insanların davranışlarında nəsə yeni çalarlar hiss etməyə başladım. Ümumiyyətlə, Antarktidada insanın xasiyyətini bizim öyrəşdiyimiz qanunlar, qaydalar, davranış ənənələri müəyyən etmir. Məşhur avstriya-

lı Ziqmund Freydin sözləri ilə desək, insanın daxilinin gizli motivləri və ehtirasları üzə çıxır, hər kəs istədiyi yox, olduğu kimi görünməyə başlayır. Cəmi bir-iki gündən sonra vaxtın axarını tamamilə yeni - Antarktida şəraitində sağ qalmaq üçün icrası məcburi olan qaydalar tənzimləməyə başlayır, insanın normal həyatdakı varlığını, xasiyyətini, davranışını müəyyən edən xüsusiyyətləri sıxışdırıb çıxarır və onlarda eyforiya əhval-ruhiyyəsi yaradır. Burada dövlət, hökumət, polis, partiya, həmkarlar təşkilatı, nə bilim məhəllə komitəsi, qapıbir qonşu, məktəb, müəllim - bunların heç biri yoxdur. İnsanlar eyforiyaya qapıldığı zaman isə bütün bu sərbəst, öz ixtiyarına buraxılma vəziyyətinin 25-30 gündən sonra bitəcəyini unudurlar və əgər hansısa dəyərlər, prinsiplər, qaydalar bir kəsin qanına hopubsa, necə deyərlər "geninə yeriyibsə", bu şəraitdə o elə də qalır. Lakin, kimsə yuxarıda sadaladığımız təsir mənbələrinin təzyiqi nəticəsində məcbur olub, özünü müəyyən cür aparırdısa, Antarktida şəraitində onun qısa zaman içində başqa bir insan olduğu üzə çıxır. Bu çox ciddi psixoloji məqamdır. Hətta məşhur ingilis dəniz zabiti, 1912-ci ilin yanvarında Cənub Qütbünə ikinci ayaq basmış bir insan öz ekspedisiyası zamanı dəmir nizam-intizamı qoruyub saxlamaq üçün ekspedisiya üzvlərinin bir neçəsini yarı yoldan geri qaytarmağa məcbur olmuşdu.

Biz də bu cür çətinliklərdən kənarda qalmadıq. Hətta ekspedisiyanın ikinci günü özümlə apardığım şəxs "Bundan sonra hər kəs özü-özünə cavabdehdir!", deyə bəyanat verdi. Mən nədənsə buna təəccüb etmədim, hətta fikirləşdim ki, bu vaxta qədər bizim adamların buralara gəlməməsinin bir səbəbi də belə yanaşmanın, fəlsəfənin, sindromun həyatımızda yer tutmasıdır. Həmçinin bu yuxa-

rıda qeyd etdiyim eyforiyanın və onun xarakterinin özünəməxsus xüsusiyyətləri idi. Mən məcbur olub hər şeyə - ekspedisiyanın bütün əsas məqsədlərinin yerinə yetirilməsinə də, elə bu şəxsin özünün sağ-salamat geri qayıtmasına da şəxsən cavabdeh olduğumu bir daha ona qətiyyətlə bildirməli oldum. Ondan ancaq öz yükünü daşımağını, yürüş zamanı geri qalmamağını və imkanı olarsa, əvvəlcədən razılaşdığımız kimi, mütəmadi olaraq meteoroloji ölçüləri düzgün götürərək gündəliyə yazmasını gözlədiyimi nəzərinə çatdırdım.

Ümumiyyətlə, bizim hər birimizə varlığımızın sarsılmaz və nəhəng sütunları kimi görünən qayda-qanunlarımızın, dəyərlərimizin, yaxşı və pis haqqında təsəvvürlərimizin, adət-ənənələrimizin nə dərəcədə törəmə amillər olduqlarını, universal olmadıqlarını, konkret şəraitin məhsulu olduqlarını və adi olmayan şəraitdə insana doğru-dürüst qərar verməkdə, vəziyyəti düzgün təhlil etməkdə heç bir köməklik göstərmədiyini anlayırsan. Bütün bu vəziyyətlərdə insana çıxış yolu göstərən yeganə mənbə, onun özü, qəlbi, bilikləri və məntiqi olur. Ümumiyyətlə, Antarktidada sağ qalmağın və hansısa vəzifənin öhdəsindən gəlməyin ən vacib olan üç prinsipial şərti var, onları da çox tez anlayırsan və qəbul edirsən:

***I. Səbr.*** Hava şəraiti pisdir, səbrlə gözləməlisən. "Səbrim çatmır" deyə, başqa cür hərəkət etmək imkanı sadəcə olaraq heç kimə verilmir. Nə qədər lazımdırsa, o qədər səbrlə gözləməlisən. Külək nə zaman dayanarsa dayanar. Sən heç nə edə bilməzsən. Soyuq havada bütün cihazların batareyaları çox qısa zamanda "ölür". Yeganə enerji mənbəyi özünlə apardığın kiçik günəş panelləridir. Bunu da əsasən "İridium" rabitə sistemindən istifadə etmək

üçün qoruyursan. Günəş yoxdursa, enerji də yoxdur, rabitə də. Tələsmək, yaxud hirslənmək, ya da, "Bu mənə lazımdı?" deyə donquldanmaq - bütün bunlar mənasızdır.

Sadəcə səbr et!

***II. Dözüm.*** Mənfi temperaturlarda (Patriot-Hills stansiyasında və ətrafında hələ ki, ciddi mənfi temperaturla rastlaşmamışdıq. Əsas soyuqlar Vinson dağının zirvəsinə yaxın yerlərdə və Cənub Qütbünə hərəkət edərkən platoda başlandı, mənfi 35°-45°) bir yox, iki, hətta üç qatlı əlcəklərdə belə (birinci qat nisbətən nazik yun əlcək, ikinci qat küləyin qarşısını kəsən daha iri, içi tüklü dəridən və yaxud içi sintetik isti qatla təmin olunmuş xüsusi qore-teks materialından, üçüncü əlcək isə qu tükündən hazırlanmış bir baş barmağı və əl üçün yeri olan yekə yumşaq üst əlcəklərdir) əllər daima ağrıyır. Bu donma prosesinin birinci mərhələsidir.

Çox diqqətli olmalısan. Ağrı kəsildisə, hiss etməlisən ki, bu qan dövranının bərpası hesabına oldu yoxsa barmaqların tamamilə dondular? Bədənin don vuran hissəsində əsəb sistemi məhv olur və nə o hissəni, nə də o hissə ilə bağlı ağrıları hiss etmirsən. İstənilən halda bu ağrılara dözüm nümayiş etdirməlisən. Başqa çarəsi yoxdur. İstehsalçısı tərəfindən yüksək keyfiyyətləri barədə verilmiş zəmanətə baxmayaraq, xüsusi çəkmələrin qüsurları da var idi. Hərəkət etdiyin zaman çoxlu enerji istehsal edirsən. Bu enerji rütubətli isti şəklində bədəndən ayrılır. Lakin, hətta çəkmənin içində belə, mənfi temperatur olduğu üçün bu rütubət mənfi temperatur başlanan xətdə donaraq buza çevrilir. Bu xətt bəzən ayağına geyindiyin ikinci və ya üçüncü corabın üstündən keçir (deməli, coraba hopan rütubət donmağa başlayır və siz buz zirehinə çevrilən corabın içində ye-

riməyə və ya düşərgə qurulana qədər qalmağa məcbursunuz) və yaxud, çəkmənin dibində və divarlarında rütubətin buza çevrilməsi ilə nəticələnir ki, buna görə də bütün günü içərisində buz qatı olan çəkmədə donmaqda davam etməyə, bu vəziyyətin bütün narahatlıqlarına dözməyə məcbur olursan.

Baxmayaraq ki, bir sıra mənbələr Antarktida şəraitində qore-teks materialından hazırlanmış, küləyin qarşısını yaxşı alan, yüngül, lakin "nəfəs almayan" gödəkcədən imtina etməyi məsləhət görürdülər, ekspedisiyaya özümlə apardığım və ekspedisiyadan əvvəl lazımi geyim və ləvazimat almaq üçün dəfələrlə xaricə göndərdiyim şəxs isə məhz bu cür gödəkcələrə üstünlük verərək, Rusiya istehsalı olanları gətirmişdi. Bunlar isə doğrudan da özünü doğrultmadı. Hərəkət etdiyimiz zaman rütubətli isti bədəndən ayrılaraq, soyuq və "nəfəs almayan" gödəkcəyə toxunaraq, sürətlə soyuyurdu və rütubət gödəkcənin altından geyindiyimiz sıx toxunmuş yun alt gödəkcəsinin üstünə qar və buz şəklində otururdu. Bunun nəticəsində ən çox əziyyət çəkən kürəklərim oldu. Bütün günü təsvir etdiyimiz buz zirehinin içərisində qalmaq lazım gəlirdi. Bütün bunların yaratdığı narahatlıqları sözlə təsvir etmək çətindir. Amma dözməlisən!

***III. İntizam.*** Çox intizamlı olmaq gərəkdir. İntizam qaydalarını pozarsan, Antarktida səni xəbərdarlıq etmədən məhv edər. Yürüş zamanı hər saatdan bir 4-5 dəqiqədən çox istirahətə dayanmaq olmaz. Yoxsa, həmin andan donmağa başlayarsan. Yürüş zamanı öz yoldaşlarından çox geridə qalmaq olmaz. Onlar səni duraraq gözləyə bilməzlər, yoxsa özləri də donub həlak ola bilərlər. Sən də çox geri qalıb gözdən itə bilərsən, xüsusilə küləkli havada izlər də itdikdən sonra bu, 1-2 saat ərzində məhv olmaq deməkdir.

Yürüş zamanı iki dəfə bu məsələdə intizamsızlıq göstərən bir cənubi afrikalı ilə bağlı kiçik konflikt yaşamalı oldum. Alyaskanın Mak-Kinli dağına qalxarkən artıq bir barmağını itirmiş və əslində çox yaxşı yol yoldaşı olan Donald O Konnor adlı şəxs bir dəfə, süd kimi dumanlı havada çox geri qaldı və dumanda gözdən itdi. Belə havada biz heç öz izlərimizi də görə bilmirdik. Onun itməsindən xəbər tutan kimi hamımız dayandıq və mən gözləməyi təklif etdim. Cənubi afrikalılar qətiyyətlə bu təklifi rədd etdilər və onların başçısı Şon Disni, "Gözləsək biz də donub ölərik, bunu edə bilmərik, biz irəli getməliyik, başqa yolumuz yoxdur", dedi. Onda razılaşdıq ki, heç olmasa hərəkət sürətini azaldaq, onların itmiş yoldaşlarına şans verək. Belə də etdik.

Bir müddətdən sonra dumanda Donald görünməyə başladı. Çox həyəcanlı idi. Xizəklərlə və xizək çubuqları ilə nəfəsini ahəngdar saxlamaq üçün ritmik hərəkətlər etmək əvəzinə, xaotik halda əl-qol ata-ata gəlirdi. Bu cür tempdə o, çox davam gətirə bilməzdi. Görünürdü ki, təşviş içərisindədir. Bu hadisə ona dərs oldu, mənim özümlə apardığım şəxsdən fərqli olaraq daha heç vaxt geri qalmadı.

Cənubi afrikalılar nisbətən daha cavan və fiziki cəhətdən yaxşı hazırlıqlı idilər. Çox iti yeriyirdilər. Mən özümü məcbur edib eyni tempdə bəzən ikinci, bəzən üçüncü və ya dördüncü olmaqla, onlardan geri qalmırdım. Nəticədə birinci 1-2 saatı tər içində, sonrakı 4-5 saatı isə buz paltarında yeriməyə məcbur idim (hər gün 7-8 saatdan çox yerimək olmurdu). Özümlə apardığım şəxs isə mütəmadi olaraq geri qalırdı (bir tərəfdən onu başa düşmək olardı, gücü çatmırdı). Bir dəfə o, çox geri

qalaraq gözdən itdiyi vaxt mən cənubi afrikalılardan onu gözləməyi xahiş etdim. Yenə də rədd cavabı aldım, lakin buna görə onları qınamağa haqqım yox idi. Belə olan halda özüm bir qədər tək gözlədim və qarşımdakıların artıq nöqtəyə çevrilməyə başladıqları bir məqamda arxada da bir nöqtə görməyə başladım. Növbəti dayanacağa qədər elə bu qaydada hərəkət etməli olduq. Dayanacaqda cənubi afrikalıların istirahət etdikləri vaxt biz onlara çatmağa çalışdıq. Nəhayət çatdıqdan sonra mən macal tapıb özümlə apardığım şəxsdən daha geri qalmamağı xahiş etdim. Cavabı belə oldu ki, o iti yeriyəndə tərləyir, istədiyi tempdə hərəkət etməyə üstünlük verir. Anladım ki, nəyi isə izah etməyin və yaxud hansısa əmri verməyin artıq yeri deyil (əmrim yerinə yetirilməzdisə, nə edərdim ki? Onu geridə qoyaraq, özüm sürətlə uzaqlaşa bilməzdim ki!).

7-8 saat hərəkətdən sonra çadır quraraq gecələmək üçün düşərgə yaratmalısan. Onsuz da donmuş və yorğun olursan, barmaqların da sənə qulaq asmır. Yorğun və enerjisiz bədənə isə soyuq daha sürətlə daxil olur, elə bil ki, iradən də donur. Bu itaətsiz barmaqlarla 3-4 dəqiqəyə çadır qurmalı, onun bütün qırmaqlarını bərkitməli, yataq kisəsini, döşəkcələri və s. çadıra yığmalısan. Bu işi 3-4 dəqiqəyə görə bilməsən, barmaqlar ağrıdan tamamilə keyləşir və donmanın ikinci əlamətləri hiss olunmağa başlayır. Belə barmaqlarla isə nəinki qırmaq bərkitmək, ümumiyyətlə heç nə etmək olmur. Nizam-intizamlı olmalısan ki, hər işi vaxtında və ardıcıl, vaxt itirmədən görməyi bacarasan. Əks halda qitəni özünə ram etmiş "Əbədi Soyuq" sənin də canını böyük məmnuniyyətlə alacaq.

## 2.6. Elm üçün çalışmalar

Ekspedisiya dövründə meteoroloji müşahidələrin də düzgün təşkil olunması üçün özümüzlə bir neçə cihaz götürmüşdük. Xüsusi formada hazırlanmış gündəliyimiz də bizimlə idi və Antarktidada olduğumuz ilk gündən müşahidələri aparmağa başladıq. Çalışırdıq ki, hər gün heç olmasa altı dəfə, üç saatdan bir müvafiq ölçüləri aparaq və bunları müvafiq surətdə gündəliyə qeyd edək. Bu prosesdə biz havanın gün çıxarsa günəş altında (belə günlərin sayı çox da olmadı. Yeri gəlmişkən onu da qeyd edim ki, öyrəşdiyimiz şəraitdən fərqli olaraq, Antarktidada günəş şüalarının düşdüyü açıq yerlərdə havanın, qar və buz səthinin temperaturu kölgədəkindən bir o qədər də yüksək olmurdu), əsasən isə buludlu-dumanlı havada və yaxud kölgədə temperatur ölçülərini qeydə alırdıq. Çadırın içindəki temperaturu da mütəmadi olaraq ölçürdük. Düzdür, bu barədə qeydləri yazmaq üçün gündəlikdə bir qrafa yox idi. Deməliyəm ki, əgər Patriot-Hills stansiyasında çöldə temperatur mənfi 8°-15° ətrafında dəyişirdisə və günəşli havalarda günəş şüaları çadırın üstünü nisbətən qızdıraraq, onun içindəki temperaturu mənfi 2°-3°-yə çatdıra bilirdisə, Vinson dağı ətrafında və xüsusilə Cənub Qütbünə yürüş zamanı buz platosu üzərində qurduğumuz çadırın içində temperatur bir qayda olaraq mənfi 20°-25° olurdu. Bu inanılmazdır, lakin mənfi 45° küləkli havada çadırı birtəhər quraraq onun içinə mümkün qədər tez girərkən, oradakı 25°-28° şaxta insana bir xilas və rahatlıq kimi görünürdü. Bu barədə söhbətə hələ qayıdacağıq. Temperatur ölçülərini adi termometrlə yox, peşəkar və etibarlı cihazla aparır-

dıq. Bu cihaz həm də qarın və buzun temperaturu haqqında məlumat götürməyə imkan verirdi. Bundan başqa yalnız batareya ilə işləyən cihazların ifrat mənfi temperaturlarda batareyalarının "ölməsi" ilə bağlı sıradan çıxdığı bir zamanda mənim İngiltərədən gətirdiyim küləyin sürətini, atmosfer təzyiqini ölçə bilən xüsusi cihaz öz işini bir saniyə belə dayandırmamışdı. Məşhur "Minoks" (*Minox)* şirkətinin istehsalı olan bu cihazın köməyi ilə küləyin dəqiq istiqamətini də müəyyən edə bilirdik. Eyni zamanda, bu cihaz temperatur ölçən peşəkar cihazın dəqiqliyini təsdiq etmək üçün də istifadə olunurdu. Çünki, elektron işləmə prinsiplərinə söykənən bu cihaz istənilən mənfi temperaturu etibarlı şəkildə müəyyən edərək göstərirdi. Başqa bir cihazın köməyi ilə biz çox vacib göstərici olan rütubətliliyi də mütəmadi ölçürdük və bu barədə müvafiq qeydlər aparırdıq.

Antarktida şəraitində rütubətliliyin ölçülməsi həddən artıq vacib tədqiqat elementidir. Çünki Antarktida ifrat mənfi temperaturların hökm sürdüyü və təbii şəraitinə görə çox quru havası olan bir yer kimi tanınmışdır və çox vaxt apardığımız ölçülər orada rütubətliliyin 15-30% arasında olduğunu göstərirdi. Lakin, qlobal iqlim dəyişmələrinin bariz şəkildə özünü göstərən əlamətlərindən biri də, okean üzərində çox rütubətli hava kütlələrinin öz ənənəvi hərəkət istiqamətlərini dəyişərək Antarktida üzərindən keçməsi və bunun nəticəsində qeyri-adi sayılan çox mənfi temperatur və yüksək rütubətlilik effektini yaratmasıdır. Biz də bunu dəfələrlə müşahidə etdik və qeydə aldıq. Elə bir neçə gün mütəmadi qarın yağması da (yağıntıları, buludluluğu vizual müşahidə apararaq, bu barədə qeydlərimizi gündəliyə yazırdıq) illər boyu yağıntı üzünə həsrət qalan (hər

halda elmi ədəbiyyatlar belə iddia edir) Antarktida üçün çox qeyri-adi hadisə idi.

Sual oluna bilər, adətən buraya qar yağmırsa, onda bu qədər qar haradandır? Əslində bu, çox mənfi temperaturlarda havada az da olsa mövcud olan rütubətin səthə qar kristalları şəklində düşməsinin nəticəsidir. Yəni demək olar ki, Antarktidada qarlar donmuş şehdən ibarətdir. Bir sıra hallarda, yəni çox fırtınalı havada meteoroloji ölçülərin aparılması tapşırığını almış özümlə apardığım ekspedisiya üzvünün vəziyyətinə ancaq acımaq olardı. Birtəhər şaxtaya duruş gətirmək üçün yataq kisəsindən çıxmalı, bir neçə qat isti paltarları, gödəkcələri, əlcəkləri, papaqları geyinməli, ölçü cihazlarının batareyaları tez "ölməsin" deyə bədəninə mümkün qədər yaxın - gödəkcənin qoltuğunda gizlədərək çölə çıxmalı, bütün ölçüləri çox qısa zamanda (donmamaq üçün) aparmalı və nəticələr barədə məlumatları geri qayıdaraq çadırda gündəliyə yazmalı idi. Çox vaxt vicdan əzabı məni də çadırdan çölə qovurdu.

Nə isə. Bütün bu fəaliyyətin nəticəsi bir neçə səhifəlik qeydlərdə, rəqəmlərdə öz əksini tapmışdır və əgər bu kitab işıq üzü görərsə, meteoroloqlara qlobal iqlim dəyişmələri, onların işığında Antarktidadakı prosesləri izləməkdə, hansısa təhlilləri aparmaqda, nəticələrə gəlməkdə, fikir yürütməkdə azacıq da olsa yardım edərsə və peşəkar meteoroloqların hansısa bir qiymətini alarsa - onda deməli bütün bu fəaliyyət əbəs deyilmiş!

## 2.7. Yeni il gecəsi çadırda

Beləliklə, 2008-ci ilin sonuncu günü də gəldi və keçdi. 20-25 nəfər tədqiqatçı, alpinist, öz riskləri bahasına müxtəlif bayraqlar və şüarlar altında ekspedisiyalar təşkil etmiş insanlar aqibətin hökmü ilə yeni il gecəsini burada - ucsuz-bucaqsız buz və şaxta səhrasında itib-batan yeganə canlıların toplaşdığı bir nöqtədə keçirməli idilər.

Bu tənha, təcrid olunmuş vəziyyətlə bağlı hissləri tək bu gecə yox, bir neçə dəfə keçirtmişdik. Elə Patriot-Hills dağlarının ən yüksək nöqtəsində olarkən, onlarla kilometr ətrafı görə bilmişdik və bu ucu-bucağı olmayan bəyaz sonsuzluqda düşərgəmiz çox kiçicik, çox yazıq və bu əbədilik içində itib-batmış kimi görünürdü.

Həqiqətən də, bu belə idi! Bir neçə yüz kilometr bizdən uzaqlarda, əsasən sahil zolaqlarında yerləşən 5-6 Antarktida stansiyasından başqa min kilometrlərlə məsafədə ətrafımızda heç bir insan məskəni yox idi. Nəinki insan, ümumiyyətlə canlı belə yox idi.

Yeni il gecəsi hərəsi bir ölkədən olan 20-25 nəfərlik dəstə əsas qərargah çadırına yığışaraq, hərə özü ilə torbasında olan və şəraitə uyğun gələn yeməklərdən nəyi vardısa onu gətirmişdi. Biz də, hansısa möcüzə nəticəsində Çili gömrükçülərinin gözündən yayınmış kiçik bir dəri tuluğunda saxlanılan (suvenir kimi aldığımız) Azərbaycan şərabını və bir də, kiçik bir qutuda xalq arasında "rahatluqum" deyilən şirniyyatı özümüzlə oraya apardıq. Gətirdiklərimizin bir göz qırpımında masadan yoxa çıxması bizdə məmnunluq hissi doğurdu.

İki masanın üstündə kimsə bir almanı iki yerə bölərək

ekspedisiya üzvlərinin təmsil etdikləri dövlətlərin milli bayraqlarını nazik çubuqlarla ora sancaraq yerləşdirmişdi. Yanımdakı yoldaşı "Tez bizim bayrağımızı da gətir!", deyə çadıra göndərdim. Deməliyəm ki, qaça-qaça gedərək, tez də qayıtdı. Stansiyada daim yaşayan bir tədqiqatçı xanım kiçik bayrağımız üçün çubuq axtararaq vurnuxduğumuzu görüb, bizi bu məqsədlər üçün istehsal olunmuş çubuqların yerləşdiyi şkafa doğru çağırdı.

Bir dəqiqədən sonra biz ingilis, amerikan, yapon, Kanada, Cənubi Afrika, Almaniya bayraqlarının arasında eyni qayda ilə yerləşdirilmiş bayrağımıza qürur hissi ilə baxırdıq.

Qeyd etməliyəm ki, görməyə adət etmədikləri bu bayraq (ola bilsin ki, buralarda ilk dəfə idi ki, aylı-ulduzlu bayraq asılmışdı) hamının diqqətini cəlb etmişdi. Çadırdakıların əksəriyyəti bizim bayraqsancma "mücadiləmizə" baxarkən maraqlarını gizlətmirdilər. Ümumiyyətlə, düşərgədə iki nəfər azərbaycanlının olması burada daim yaşayanlar və bizim kimi yolüstü ilişib qalanlar tərəfindən az qala Antarktidanın özü qədər qeyri-adi bir hadisə kimi çox canlı maraqla qarşılanmışdı. Buradakıların hamısı, hətta tanımadığımız adamlar belə, artıq bizi qiyabi də olsa tanıyırdılar. Bəzən bir işlə bağlı kiməsə müraciət etdikdə, "Hə, siz həmin azərbaycanlılarsınız?!", deyə reaksiya verirdilər. Düşərgənin rəhbərləri də hərəsi bir bəhanə taparaq, çadırımıza təşrif buyururdular. Bəziləri bizim buraya gəlişimizin məqsədi ilə maraqlanırdılar. Belələrinə "Məqsədimiz elə sizinki ilə eynidir", deyə cavab verirdik. Ölkəmizlə, dağlarımızla çox maraqlanırdılar. Ekstremal idmanın bizdə mövcudluğu belə, nədənsə onlar tərəfindən təəccüblə qarşılanırdı. Təəccübü isə, sonradan bizimlə əməkdaşlıq etmək istəkləri əvəz edirdi.

## 2.8. 2009-cu ilin ilk günləri

Yeni - 2009-cu ilin ilk günü qasırğa gah zəifləyir, gah da güclənirdi. Temperatur da çox aşağı deyildi, yəqin ki, 7-8 dərəcə şaxta olardı. Rütubət yüksək, görmə məsafəsi çox az idi. Ətraf yarım metr hündürlükdə qarla örtülü idi. Bəzi yerlərdə isə o qədər qar var idi ki, hətta içərisində batmaq olardı.

Çadırlarımız artıq bir balaca isinmişdi.

Belə havada hərəkəti davam etdirmək mümkün deyildi. Buna görə də hazırlıq işlərinə davam etdik. Çalışırdıq ki, meteoroloji tədqiqatları müəyyən rejimlə aparaq. Vinson dağı ərazisində temperaturun çox aşağı olacağını nəzərə alaraq əşyalarımızı seçməyə çalışırdıq. Bura bir buzlaqdır və buzlaqla üzü yuxarı qalxmaq lazımdır. Ən yaxşı halda havanın temperaturu mənfi 35 dərəcə, bəlkə ondan da aşağı olur. Maskaları, papaqları geyinib görürük ki, saniyədə 12 metr sürətlə əsən külək 7-8 dərəcə şaxtada üzü kəsir, qaşlar isə kəskin soyuqdan ağrımağa başlayır. Belə havada külək kəsicidir. Bu dağlar üçün isə külək adi haldır. Hər ehtimala qarşı ciddi sınaqlara hazır olmalıyıq. Hətta bu maskaların da bizə çox kömək edəcəyini düşünmürəm. Yaxşı ki, qarşıda hərəkətdə olacağımız 5 gün var. Hərəkətə başlasaq, İnşallah öhdəsindən gələrik!

Bu gün təlimatçı cənubi afrikalıların lideri, ingilis mənşəli cənubi afrikalıdır. O, özü ilə Böyük Britaniyadan bir neçə nəfər gətirmiş və ağız dolusu ingilislərin buradakı böyük işlərindən, qəhrəmanlıqlarından və qələbə çalmaq üçün evdə oturmaq deyil, yaxşı çalışmaq, vuruşmaq və lazım gələrsə hətta həlak olmağa hazır olmalarından danışır. Hiss olunurdu ki, onlar Antarktidada olduqları üçün qürur

hissi keçirirlər. Fəxr edirlər ki, Antarktidanı ilk kəşf edənlərdən olmaqla, yeri gələndə risk edə bilirlər.

Çox yaxşı! Bizi də bura gəlməyə hansısa məqsədlər, hisslər istiqamətləndirmişdi və onlara burada biri də əlavə olundu. Qismət olsa, qarşıya qoyduğumuz vəzifələri uğurla həyata keçirə bilsək, ölkəmizin, xalqımızın adını Antarktidada olmayanların siyahısından silməyimizlə də fəxr edəcəyik. Ən azı artıq heç kim bizə bu işdən qaçdığımızı irad tuta bilməyəcək!

Artıq buradakıların çoxunu tanıyırdıq. Bizi də artıq tanıyırdılar və hamı da bilirdi ki, burada Azərbaycandan iki nəfər var. İlk gün Qazaxıstanla qarışdırırdılar, sonra yadlarında qaldıq. Mənə belə gəlir ki, daha çox müsəlman ölkəsindən olduğumuz üçün yadda qaldıq. Ancaq biz onlara başa salırdıq ki, Azərbaycan sivil, dünyəvi, demokratik bir ölkədir. Mən üzərində ay və ulduz olan bayrağımızı yeni il gecəsi öz stolumuzun üstünə - digər bayraqlarla yanaşı qoyarkən, bəzilərinin üzünün ifadəsinin dəyişdiyini gördüm. Bunu qısqanclıq, paxıllıq kimi də başa düşmək olardı. Çünki müstəqillik yoluna yeni qədəm qoymuş bir ölkə bütün çətinlikləri dəf edərək Antarktidaya qədər gəlib çıxmışdı. Biz onlara Antarktidada da gəlib çatdıq!

Onlar bizim haqqımızda həmişə cürbəcür obrazlarda düşünüblər: islam dövlətləri, potensial terrorçular, qərb sivilizasiyası tərəfindən qəbul edilməyənlər və s. Bu özü sübut edir ki, belə psevdoideologiyalardan irəli gələn nə cür müxtəlif yanaşmalar mövcuddur. Düşərgədə olanlar isə yanımıza gəlir, bizimlə maraqlanır, Azərbaycan barədə soruşur və ünsiyyət qururdular. Digər nailiyyətlərimizlə də maraqlanırdılar.

Bir sözlə, bura bir az özündən razı və qürurlu insan-

lar toplaşmışdılar. Mən birinci dəfə idi ki, fərqli ölkələrdən bu cür insanlarla rastlaşırdım. Onlar burada bizi ciddi qəbul etməyə məcbur idilər. Biz axı teatrda, restoranda deyildik. Biz onlarla bir yerdə - Antarktidadaydıq!

Sonrakı üç gün güclü qar çovğunu olduğundan Çilinin Patriot Hills stansiyasında qalmaqla, ancaq hər 3 saatdan bir küləyin sürətini, istiqamətini və digər parametrləri ölçə bilirdik.

Patriot Hills ALE-nin yerləşdiyi ərazidir. Yəni, ALE Norveç, ABŞ, Yeni Zellandiya, Avstraliya, Argentina və Çili kimi dövlətlərlə sıx əməkdaşlıq edərək Antarktidanın bir çox hissələrində fəaliyyətdə olan bir təşkilatdır. Ancaq 1959-cu ildə imzalanan Antarktida Müqaviləsinə görə oranı heç kim öz əraziləri elan edə bilməz.

Bu gün bu ilin ilk günəş parıltısını müşahidə etdik, rütubət 71-72% olmaqla, temperatur, qeyd etdiyim kimi, mənfi 5-dən yuxarı, mənfi 15-dən aşağı düşmədi.

Qar yağmaqda davam edirdi, ayağımızın altında buzun qalınlığı 500 metrdir. Odur ki, çadır nəinki soyuq havanın təsiri altında, həm də buzdan gələn əbədi soyuğun təsiri altında donmuşdur. Lakin biz elə bil ki, bu soyuğu hiss etmirdik. Yəqin pis əməllər, pis niyyətlər olmadığı üçün buranın enerjisi də çox təmiz idi. Birinci dəfə idi ki, mən çadırda çox yaxşı və rahat yatırdım. Dünən səhər 7-də gözlərimi açdım, ancaq sonra yenidən 09-30-a qədər yuxuya daldım. Ümumiyyətlə, yuxunu yaxşı alırsan, heç yuxu da görmürsən.

XX əsrin əvvəllərində, 1911-ci ildə burada ilk dəfə norveçli Amundsen olmuşdur. Norveç o zaman indi biz olduğumuz kimi gənc, isveçlilərdən təzə ayrılmış, tanınmağa və dəstəyə ehtiyacı olan bir dövlət idi. Bizə orada da-

nışdılar ki, - bu ədəbiyyatda da öz əksini tapıb - Amundsenlə eyni vaxta Antarktidada Skott adlı bir ingilis də olmuşdu. Cənub Qütbünə yola çıxmazdan əvvəl Skott, Amundsendən ingilislərin Cənub Qütbündə birinci olmalarına icazə verməsini xahiş edib. Təbii ki, bu özündən razılıq əlaməti idi. Amundsen Skottun xahişinə cavab olaraq bildirib ki, Cənub Qütbünə yox şimala gedir. Ancaq əslində o, Cənub Qütbünə gedirdi. Hətta bunun üçün daha qısa bir yol seçmişdi və özü ilə qrenlandiyalı bir qütb mütəxəssisi, həmçinin itləri götürmüşdü. Qidaları düzgün seçən Amundsen Cənub Qütbünə müvəffəqiyyətlə çatır və Norveçin bayrağını dalğalandırır.

Skott isə İngilis Hərbi Dəniz Xidmətinin dəstəyi ilə, yalnız 36 gündən sonra çətinliklə gəlib qütbə çatır. O dəniz zabiti, kapitan idi, dövlətin dəstəyinə arxalanırdı. Hətta özü ilə xüsusi olaraq Sibirdən alınmış poni-atlar götürmüşdü. Bu atlar soyuğa dözümlü monqol atları idi. Yolda atların hamısı acından ölür. Ona görə deyirlər ki, gərək özünlə itləri götürəsən ki, birini öldürüb o birilərinə yedirdə biləsən. Lakin atı öldürüb o birilərinə yedirdə bilməzsən. Gərək çoxlu samanı, yatmağa şəraiti olsun. Ona görə də Skott yolda çoxlu at, it və insan itirir. Yarıac halda gəlib Cənub Qütbünə çıxır və ingilislərin birinci olmadıqlarını görüncə çox məyus olur. Geri qayıdanda işləri daha da mürəkkəbləşir, ərzaqları da qalmadığı üçün sahilə çatmamış onların hamısı həlak olurlar.

Beləcə, Cənub Qütbünün yaxınlığında yerləşən amerikan stansiyası bu ilk iki pionerin - Amundsen və Skottun adı ilə adlandırılmışdır.

Bura bizim kimi yolu hissə-hissə gələnlər və sahildən birbaşa özləri gedənlər də olur. Mənə dedilər ki, iki

nəfər cənubi afrikalı 65 gün ərzində sahildən birbaşa Cənub Qütbünə qədər gəliblər. Bir sözlə, Cənub Qütbünə çatmaq şərəfli bir işdir və bizim ekspedisiyamızı bu hələ qabaqda gözləyir. Ancaq mən çox istərdim ki, biz burada elmi cəhətdən də faydalı məlumatlar toplaya bilək və qayıtdıqdan sonra geniş elmi məruzə hazırlayaq. Bizim tərəfimizdən bir yol açılmış olsun ki, insanlar gələcəkdə bu yolu davam etdirə bilsinlər. Bəlkə gələcəkdə Koreya, Argentina, Peru kimi biz də sahil adalarının birində öz stansiyamızı qurmağı fikirləşərik. Yaxud ruslar tərəfindən artıq tərk edilmiş bir stansiyanı icarəyə götürərik. Məsələn, "Əlçatmazlıq qütb"*ündə Vostok stansiyası... O bütün sahillərdən eyni uzaqlıqda yerləşir. Cənub Qütbü Antarktidada elə yerləşib ki, o bir sahilə yaxın, digərinə isə uzaqdır. Ancaq Vostok bütün sahillərdən eyni uzaqlıqda olduğu üçün "Əlçatmazlıq qütbü" adlanır. Orda stansiya tamamilə buza qərq olub. Lakin onu bərpa etmək və yanacaqla təmin edərək həyat olan bir yerə çevirmək olar.

Hər yerdə yazırlar ki, bura çox quru qitədir. Ancaq ekspedisiya dövründə bu təsdiqini tapmır. Ola bilər ki, qlobal iqlim dəyişikliklərinin bir təzahürüdür ki, hətta Antarktidada da hava qarlı və nəmlidir.

Yanvarın 5-də, səhər yeməyindən sonra yenidən Patriot Hills təpələrinə üz tutduq. Bütün gün ərzində 8 km məsafə qət etdik. Əvvəlcə 700-800 metr qalınlığındakı buzlu düzənliklə hərəkət etdik, sonra isə qayalıqlara dırmanmağa başladıq və cəmi 1325 metr yüksəkliyə qalxdıq. Güclü külək əsməyə başladı. Buludların arxasından yüksələn günəşlə soyuğun vəhdəti pis təsir bağışlayırdı.

---

**Pole of inaccessibility; polyus nedostupnosti*

Yorğun halda biz təpədən aşağı düşdük.Yorğun olmaqla yanaşı, həm də içməli suyum qurtarmışdı. Yeri gəlmişkən, yuxarı dırmananda termosumdakı isti sudan hamıya verdim. Hamı məmnuniyyətlə içdi. Ancaq geri qayıdarkən dayandığımız yerlərdə hərə öz suyunu içirdi, mən isə susuz qaldım. Növbəti dəfə fasilə zamanı hətta adını belə dəqiq xatırlamadığım bir cavan ingilis oğlan yaxınlaşıb niyə belə susqun olduğumu soruşanda dedim ki, düşərgəyə tez çatıb su içmək istəyirəm. O, özünün qalan 100-120 qram suyunu mənə verdi.

Sürətli addımlarla enməyə başlayarkən, çəkmələrimin qırmağı yenə də, özü də iki dəfə qırıldı. Bu çox təhlükəlidir, kimdə belə bir hadisə baş versə fəlakət ola bilər. Zarafat deyil, buzun üstündəsən.

Bəzi yerləri buz tutmadığı üçün suxur növlərini götürmək olurdu və mən oradan qranit, kvars, kirəc daşı, həm də çox qədim kirəc daşı tapdım. Nə vaxtsa, bu kirəc daşı yəqin ki, dənizdə olub, sonra yüksək təzyiqlə mərmərə oxşayan bir materiala çevrilib.

Yuxarıdan bizim düşərgə görünürdü. Çadırlardan başqa burada insanların da olduğunu göstərən heç bir işarə yox idi. Buz qübbələrindən başqa, dağın hər iki tərəfi böyük bir buzla örtülmüşdü. Uzaqda sıra dağlar da görünürdü və biz bu iki dağ silsiləsi arasında idik.

## 3. VİNSON ZİRVƏSİNƏ DOĞRU!

Nəhayət, 2009-cu il yanvarın 6-da hava sürətlə yaxşılaşmağa başladı. Dəstəmiz yürüşü davam etdirmək üçün hazır vəziyyətə gətirildi. Günün sonunda kiçik, 6 yerlik Kanada istehsalı olan xizəkli "Otter-Twin" təyyarəsi bizi

yüklərimizin bir hissəsi ilə (yüklərin qalan hissəsini səliqə ilə yol çantalarına yığaraq, elə çadırımızı qurduğumuz yerdə qarın üzərində qoyub getdik. Burada oğurluq olmur. Heç kəs başqasının əşyalarına əl vurmur) birlikdə yerləşdiyimiz düşərgədən 900 km şərqdə yerləşən Elsuort dağlarına, Vinson massivinin ətəklərində buzun üzərində qurulmuş kiçik bir (5-6 çadırdan ibarət) düşərgəyə gətirdi.

Artıq günün sonu olduğu üçün (baxmayaraq ki, qarşıda bizi qaranlıq gecə gözləmirdi) qərara alındı ki, çadırlarımızı burada qurub gözləyək. Bu dəfə düşərgəmiz bir neçə metr enində olan çatlarla dolu buzlağın üzərində qurulmuşdu. Çat-çat buzları hər tərəfdən elə bil ki, axmaqda davam edən dağlar əhatə etmişdi. Düşünürəm ki, əgər bir insan Marsa enərsə, təxminən belə bir landşaftın şahidi olacaq.

Səhər tezdən kirşələrimizi (onları bizə ALE icarəyə vermişdi), adama 5 litr yanacaq (elə 5 litrlik bir kanistrdə), hardasa 5-6 kq qurudulmuş yemək, isti corab və paltarlardan ibarət şəxsi əşyalarımız, buz baltaları, çadırlarımız, yataq kisələrimiz, termoslarda su ehtiyatımız və sairədən ibarət yüklərlə dolduraraq xüsusi qurğuların vasitəsilə çiyinlərimizə və belimizə bağladığımız qayışlara qoşduq. Xizəklərimizi uzunboğaz çəkmələrimizə bərkitdik.

Teleskopik çubuqlarımızın ölçülərini özümüzə görə nizamladıq və burada artıq temperaturun mənfi 20°-25° olduğunu nəzərə alaraq, papaqlara bərkidilmiş üz maskalarını və eynəklərimizi geyərək uzun və yorucu yürüşə başladıq.

Buz üzərindəki üstünü qar örtmüş çatlarla çox ehtiyatlı olmaq lazım idi. Bu çatların birinə yaxınlaşaraq, foto-

şəklini də çəkdik. Elə bil ki, bu çat sonsuzluğa qədər davam edirdi və getdikcə bizim gözlədiyimiz kimi qaranlığa qovuşmurdu, mavi sonsuzluğa çevrilirdi. Hər il "qravas" deyilən bu çatlara Antarktidada 2-3 adam düşür. Onlar yıxılarkən, çatın getdikcə daralaraq insan bədənindən daha dar ölçüyə çatdıqları nöqtədə ilişib qaldıqları üçün (bu zaman dərinlik 10, 15, 20 m də ola bilər) bir qayda olaraq yoldaşları tərəfindən ya sağ-salamat, ya da qolu-qıçı sınmış vəziyyətdə çıxarılırlar. Hər 2-3 ildən bir bir-iki nəfəri çıxartmaq olmur və onlar həlak olurlar. 2008-ci ildə belə çata yıxılan bir xizəkçinin arxasınca daşıdığı kirşənin də uçması və sürətlə düşərək onun belinə çırpılması ciddi zədə ilə nəticələnmişdi. Lakin, hər halda xizəkçi oradan sağ çıxarılmışdı. Bir sözlə, çox diqqətli olmaq lazımdır.

Getdiyimiz yol çox dik olmasa da, bizi getdikcə daha çox yuxarı qaldırırdı. Buz çatlarına düşməmək üçün üç nəfərlik dəstələrə bölünərək, iplə bir-birimizə bağlanmışdıq. Bu psixoloji və hərəkət narahatlığı yaradırdı. Çünki hər xizəkçinin bir tempdə yerimə qabiliyyəti var və ona uyğun nəfəs alır. Burada isə ortada gedən qarşıdakı və arxadakı şəxsin tempinə, qarşıdakı və sonuncu şəxs isə ortadakının tempinə uyğunlaşmalı idi. Birinci mərhələdə biz yaxşı münasibət qurduğumuz cənubi afrikalıların ayrı-ayrı üçlüklərində yürüşə davam etmişdik. Sonradan dağa qalxma prosesində biz öz ekspedisiyamızın tərkibində getməyə üstünlük verdik.

Getdikcə daralan, iki tərəfində çatlarla dolu buz layları ilə örtülmüş və dağların da göründüyü bir dərənin dibi ilə gedirdik. Lakin, bu qitənin hər yerində olduğu kimi bu dərədə də onu əhatə edən dik divarlar buz və qardan ibarət olub, öz bəyaz rəngi ilə gözləri qamaşdırırdı. Bizdən

əvvəl bu yolu getmiş bir qrup tərəfindən iri və üstündəki nazik qar örtüyünün istənilən məqamda uça biləcəyi real görünən çatların üzərində bərkidilmiş kiçik, qırmızı rəngli bayraqlar təhlükəsiz irəliləməyimizə kömək edirdi. Çatın üzərindəki bərkimiş qar körpüsünün üzəri ilə yeriyərkən altdakı boşluğun səsini eşidə bilirdik. Tədricən dərə bizi hələ uzaqda gördüyümüz və elə bil ki, bu dərənin yolunu kəsmiş sıldırım qayalı və yüksək görünən dağ silsiləsinə gətirib çıxartdı. Bu, Vinson massivinin başlanğıcı idi.

Onu da qeyd etməliyəm ki, gecələdiyimiz baza düşərgəsi dəniz səviyyəsindən 2200-2300 m yüksəklikdə yerləşirdi. Tədricən qalxmaqda olan yolumuzda xizəklər geriyə və yanlara sürüşməsin deyə onların altlarına xüsusi örtük yapışdırılmışdı ki, bu da bizə arzusunda olduğumuz mənzilə - 3000 m yüksəklikdə yerləşən aşağı düşərgəyə hərəkət etməyə kömək edirdi. Biz sıldırım qayalığın dibindən 90° bucaq altında sola döndük. Yol getdikcə daha dik yoxuşa çevrilməyə başladı. İçərisində 40-50 kq, bəlkə də bir az da çox yük olan kisələri qoşquya yükləyərək, 2-3 m uzunluğunda və 3-4 mm qalınlığında möhkəm, bir az da elastik iplə çiyinlərimizə və belimizə bağlayaraq arxamızca dartıb aparmaq bizə yaman əziyyət verir və elə bil ki, geriyə dartırdı.

Nəhayət, 9-10 km bu yoxuşla gedərək bir tərəfdə - sağımızda ucalmaqda davam edən sıldırım qayalı dağlar, əks tərəfdə isə hündürlüyü 300-400 m-dən çox olmayan və az qala buz üzərində 90° bucaqla yüksələn qayalar və çatlarla dolu olan bir buz vadisinə gəlib çıxdıq. Burada bir çadır qurulmuşdu. Məlum oldu ki, gecələmək üçün ətraflarda bundan münasib yer yoxdur və növbəti düşərgəmiz bura olacaqdır.

## 3.1. Aşağı düşərgədə

Bu düşərgəyə “aşağı düşərgə” adı verilmişdir. Tez-tələsik çadırlarımızı qurduq, bütün günü termosda gəzdirdiyimiz və qəbul etdiyimiz bir litr suyun və ayaqüstü çeynəyə bildiyimiz bir neçə dilim ətin və qurudulmuş əriyin enerjisi ilə bu məsafəni qət edə bilmişdik. Həddən artıq yorğun, ac olduğumuzdan, düşərgə qurmağa başlayandan bir neçə dəqiqə sonra lap donmuş halda idik.

Məlum oldu ki, məhz bu saatlarda sağ tərəfimizdəki uca sıldırım dağların arxasında gizlənməyə tələsən günəş gözdən itən kimi, çadır qurduğumuz yer bu dağların kölgəsinə düşür və həmin vaxt onsuz da mənfi 23°-25° olan temperaturun daha 7°-8° düşməsinə səbəb olur. Bu bizim üçün yeni təcrübə idi. Sahilə nisbətən yaxın olan Patriot-Hills stansiyasında belə temperaturlara az rast gəlmişdik. Soyuqdan burnumuzun ucunda əmələ gələn su damcısı bir neçə saniyə sonra buza çevrilərək, qışda dağ rayonlarımızda kənd evlərinin damlarından sallanan uzunsov buz parçalarına bənzəyirdi. Tələm-tələsik çadırlarımızda özümüzlə gətirdiyimiz kiçik primusları kirşəmizdəki kanistrdə olan yanacaqla dolduraraq işə saldıq. Heç olmasa əllərimizi qızdıraraq bir iş görmək üçün yararlı vəziyyətə gətirməli idik. Burada artıq ümumi qərargah çadırı yox idi. Hər kəs yeməyini öz çadırında hazırlamalı idi. Hərənin özü ilə götürdüyü və termosda saxladığı su da yolda içilmişdi. Əslində bu suyu da qarı əridərək əldə etmişdik. Amma bu suyu biz baza düşərgəsində saxlanılan, nisbətən böyük primus üzərində bir neçə litrlik bir qazana qarı dolduraraq və sonra onu əridib hamının arasında bölüşdürməklə əldə etmişdik.

İndi bir balaca əllərimizi hərəkətə gətirən kimi özümüzlə gəzdirdiyimiz xüsusi yürüş qazançasını qarla doldurub primusda əritməyə başladıq. İş burasındadır ki, eyni miqdarda qar əriyib suya çevrilən kimi qazanda az yer tutur. Ona görə də, qazançaya daima qar əlavə etməli olurduq. Nəhayət, 40-50 dəqiqədən sonra onu su ilə doldura bildik. Əllərimizin donunu bir az açmışdıq. Lakin, bunu yorğun, susuz, donmuş bədən haqqında demək olmazdı. İnsanın belə şəraitdə elə bil ki, beyni də keyləşir və bütün varlığınla ancaq bir şeyi düşünə bilirsən, “Hər şeyi düzgün etməliyəm, bu vəziyyətdən qurtulmalıyam!”. Əldə edilən suyun iki parçını (400-450 qr-nı) tələm-tələsik qaynadaraq, özünlə gətirdiyin iki kiçik kağız paketdəki qurudulmuş şorbanı qaynar suya boşaldırsan, yaxşı-yaxşı qarışdırırsan və iki dəqiqəyə hazırlanmış bu şorbanı içməyə başlayırsan. Bu zaman özünü qış yuxusundan oyanaraq “dirilməyə” başlayan canlılar kimi hiss edirsən. Beynindəki fikirlərin çeşidi sürətlə artmağa başlayır.

Apardığımız meteoroloji müşahidələr göstərirdi ki, temperatur artıq mənfi 30°-32°-yə çatmışdır. Buludluluq sıfıra bərabər idi. İlk dəfə idi ki, Antarktidada üç təbii rəngi eyni zamanda müşahidə edirdik. Bəyaz qar, qara qayalar və bundan öncə heç yerdə, heç zaman görmədiyin dərin və mavi səma. Külək də demək olar ki, yox idi. Təbii ki, müvafiq qeydləri meteoroloji gündəlikdə də apardıq və sonra da yataq kisəmizə girərək “ölü” kimi yatdıq.

Səhər hamıdan tez çadırı tərk edən mən oldum. Hələ də kölgədə idik, günəş görünmürdü. Həddən artıq soyuq idi. Əslində elə oyanmağımın səbəbi də, yataq kisəsində donmağım idi. Çöldə temperaturu ölçdükdə mənfi 40° olduğunu gördüm. Amma qu tükündən olan gödəkcədə ol-

sam da temperaturun cihazsız da belə, çox aşağı olduğunu hiss edirdim. Yeganə çarəm yenidən qaçıb çadıra girmək və yataq kisəsində qızınmağa cəhd göstərmək idi.

Nəhayət, 1-2 saatdan sonra günəş göründü. Bunu heç çadırdan çıxmadan anladım. Çünki günəşin göründüyü tərəfdən çadırın divarı daha işıqlı oldu və tədricən qızmağa başladı. Temperaturun 10°-12° qalxması və mənfi 27°-28°-yə çatması az-çox dözülməsi mümkün olan bir şərait yaratdı. Dünəndən tədarükünü gördüyümüz və termosda saxladığımız sudan çay hazırlamaq istədim. Lakin, termosun qapağı da donmuşdu, açılmırdı. Məcbur olub öncə primusda termosun özünü qızdırmağa başladım. Nəhayət plastik qapağın (ümumiyyətlə, özümüzlə apardığımız bütün cihazlar, boşqablar, qaşıq və çəngəllər demək olar ki, hər şey plastik kütlədən olmalı idi. Əgər nəsə mütləq metaldan olmalı idisə, onun da altına yumşaq material qoyaraq, yapışqan lentlə sarımalı idin ki, mənfi 15-45° temperaturlarda əlin metala toxunmasın. Yeganə açıq metal əşyamız qazançamız və çaydanımız idi. Bir neçə dəfə təhlükəsizlik qaydalarını unudaraq, özümlə apardığım ekspedisiya üzvünün çöldən çadırın içinə mənə ötürdüyü qarla dolu qazançanı avtomatik olaraq, əlcəksiz götürməyim "ilan vurmuş" kimi kəskin ağrı, barmaqlarımın qazana yapışması və birtəhər qopartdıqdan sonra isə dərinin həmin saat boz rəngə düşməsi ilə nəticələnmişdi. Xüsusi dərmanların sayəsində, bu bozarmış dəri açıq yaralara çevrilmədi, qabar kimi şişdi və bir neçə gün ağrıyandan sonra yeni dəri ilə əvəz olunaraq qopub düşdü) bir hissəsinin əriməsi bahasına termosu aça bildim və içindəki suyun da donduğunu gördüm. Bütün qar-buz əritmə prosesini sıfırdan başlamamaq üçün özümüzlə gəzdirdiyimiz çaydanı qarla doldurdum və

primusda əridib suya çevirdim (Bir çaydan qarı əlridəndə olsa-olsa 100 qr su alınırdı). Bunu qaynadaraq termosdakı buzun üstünə tökməklə onu tədricən soyuq suya çevirə bildim. Sonrakı günlərdə də hər səhər bu metoda əl atmalı olduq.

## 3.2. Yuxarı duşərgəyə doğru

İki ekspedisiyanın üzvləri bir yerə toplanaraq Vinson dağının zirvəsinə qalxmanın strategiyasını müzakirə etdi. Yerləşdiyimiz 3100-3200 m yüksəklikdə olan aşağı düşərgədən yuxarı düşərgəyə - 4000 metrdən çox yüksəkliyə - olduqca dik buzun üstü ilə bir neçə kilometr qalxaraq çata bilərdik. Özü də bunu arxa çantamızda özümüzlə aparmalı olduğumuz bir neçə günlük azuqə, yanacaq, ümumilikdə isə 35-40 kiloqramlıq yük ilə etməli idik. Hətta iplərlə belə bunu etmək çox çətin olacaqdı.

Yeri gəlmişkən qeyd edim ki, Patriot-Hills dağına bizdən bir neçə gün əvvəl qalxmış ingilis-amerikan-holland-polşa qrupu bir neçə gün sonra məhz burada uğursuzluğa düçar olmuş, iki gün dalbadal tam yüklə bu diki qalxmağa cəhd göstərsələr də, məyus halda geri qayıtmalı olmuşdular.

Biz başqa strategiya seçdik. Bu gün yükümüzün yarısını, əsasən azuqə, yanacaq və aşağı düşərgədə bizə lazım olmayacaq, ancaq zirvəyə doğru sonuncu həmlə zamanı gərəyimiz olacaq bir sıra ləvazimatı özümüzlə götürərək yola düşdük. Yerləşdiyimiz vadidən nisbətən yoxuşlu olan və buz çatlarının arasından keçən təxminən 1,5 km-lik yolu qət edib, buz dikinə yaxınlaşdıq. Vinson yürüşünün ən ağır hissəsi də buradan başlandı. Saatda 100-150 m-dən artıq hərəkət edə bilmirdik. Özümüzü bədənimizə bağladı-

ğımız xüsusi qayışlar sistemi ilə buza bərkidilmiş iplərdən asaraq, ayağımızdakı kramponları var gücümüzlə az qala divar kimi dik görünən buzun canına yeridərək "cumayr" deyilən qurğunun köməyi ilə əllərimizlə ipdən bərk-bərk tutaraq bütün bədənimizi yuxarı çəkərək hərəkət edirdik. 4-5 saatdan sonra buz divarında üzə çıxan bir neçə qayaya rast gəldik. Burada nəfəsimizi dərdik.

Təxminən 500-600 m yüksəkliyə qalxa bilmişdik. Bu qayalardan sonra buz divarı yenidən davam edirdi və təxminən 150-200 m yuxarıda daha bir neçə qaya görünürdü.

Nəfəsimizi dərəndən sonra iradəmizi toplayaraq, heç olmasa o qayalara qədər yolumuzu davam etdirməyi qərarlaşdırdıq. Taqətdən düşmüş şəkildə oraya çatdıq və gətirdiyimiz yükləri bu qayaların arasında, üstünə ətrafda olan daşları düzüb bərkidərək, orada gizlətdik və geri qayıtmağa başladıq.

Strategiyamız da məhz bundan ibarət idi - öz imkanlarımızı yoxlayaq, yüklərimizin bir qismini nə qədər mümkünsə yüksəkliyə qaldıraraq ora qoyaq, geri qayıdaraq növbəti günü istirahət edək. Yalnız bundan sonra yerdə qalan yük və çadırlarla artıq istirahət etmiş, güc toplamış halda buz dikinin xüsusiyyətlərinə bələd olaraq, yaxşı adaptasiya olunaraq artıq lazımi aklimatizasiyanı keçmiş halda yola çıxaq. Yolda yükümüzün qalığını da götürərək, dikin qalan hissəsini də qət edərək, növbəti düşərgə yerinə yaxınlaşaq.

Bu düşərgə isə artıq 4100 m yüksəklikdə olacaq.

## 3.3. İstirahət günü və ya odla buz arasında

Növbəti gün, razılaşdırıldığı kimi istirahətə həsr olundu. Əvvəlki günlərdə iki nəfərlik kiçik çadırda darısqallıq şəraitində primusda nə isə qızdırmaq, qurutmaq, hazırlamaq prosesində bir problemlə də üzləşmişdik. Primusun yaratdığı təhlükələri unudaraq nəyi isə götürmək üçün əlini uzadırsan, yaxud yataq kisəsinin üstündə daha rahat oturmaq üçün mövqeyini dəyişirsən, bir də xəbər tutursan ki, qu tükündən olan gödəkcənin yaxası, yaxud qolu və ya yataq kisəsinin kənarı, qurutmaq üçün primusa yaxın tutduğun papağın üstü və yaxud başqa bir əşya od tutub yanmağa başlayır. Təşviş içində odu tez söndürürsən. Bu, doğrudan da təhlükəlidir. Xüsusi keyfiyyətlərə malik olan, ifrat mənfi temperaturlara uyğunlaşmış, əsasən sintetik materialdan hazırlanan və yaxud yundan olan əşyalar bir göz qırpımında yanıb külə dönə bilərlər. Heç kəs də köməyinə gəlməz. Bu da kəlmeyi-şəhadətini dilə gətirmək üçün 100%-lik əsasdır!

Ona görə də, primusu işlədərkən çox diqqətli idik. Buna baxmayaraq, yuxarıda sadaladığım hallardan da yaxa qurtara bilmirdik. Əgər nəyi isə yadımdan çıxarmamışamsa, yürüş zamanı 9 dəfə yanğın təhlükəsi ilə üzləşdik və yanmaya məruz qalmış əşyaları tələm-tələsik yapışqan lentlə təmir etməli olduq. Bu isə çox ciddi problem idi. Əşyaların çoxu, içinə qu tükü doldurulmuş sintetik materiallardan hazırlanmışdı. Sərbəst vəziyyətdə qu tükü gödəkcənin, şalvarın və ya yataq kisəsinin divarlarını şişirdir və bu da soyuğun keçməsinin qarşısını alır. Yanma nəticəsində əmələ gəlmiş dəliklərdən içəridəki havanın və qu tükünün təzyiqi altında bu əşyalardan qu tükləri hər tərəfə sə-

pələnərək ətrafda uçmağa başlayır. Yəni, əşya özünün istilik saxlama qabiliyyətini itirir.

Vəziyyəti belə dəqiqliyi ilə əvvəlcədən təsəvvür etmirdimsə də, hər ehtimala qarşı özümlə kiçik qablarda xüsusi yapışqanlar götürmüşdüm. Əfsuslar olsun ki, yürüşün elə ilk günlərində iştirakçıların demək olar ki hər birinə müxtəlif xırda işləri görmək üçün yapışqan lazım oldu və təbii ki, gətirdiyim yapışqanlar da, səxavətlə hər bir kəsə paylandı. Tək bircə qab yapışqan gödəkcəmin cibində qalmışdı. Ondan ekspedisiyanın sonuna qədər qənaətlə istifadə edə-edə, ən etibarlı dostum kimi əzizləyirdim.

Bu istirahət gününün verdiyi imkandan istifadə edərək, yuxarıda qeyd etdiyim kimi kiçik yanğınlardan sonra yapışqanlı lentlə və bəzən hətta yaralı və ağrıyan yerə yapışdırmaq üçün nəzərdə tutulan, üstünə xüsusi dərman vurulmuş tibbi yapışqanlı parça hissələri ilə nə cür gəldi təmir olunmuş əşyalara necə deyərlər "baxış keçirtdik" və qənaət edib saxlaya bildiyim yapışqanın və belə işlər üçün özümüzlə apardığımız müxtəlif növ sintetik parça hissələrinin köməyi ilə daha səliqəli və əsaslı təmir işləri apardım. Öz işimdən çox razı idim. Əşyalarım artıq istənilən məqamda içindən tükü tökülməyə hazır kimi görünmürdü. Misal üçün, bizim dağlara yürüşlərdən fərqli olaraq, Antarktidada çıxıb ətrafı "gəzmək-dolanmaq" anlayışı yoxdur. Birincisi, çox soyuqdur. Əgər məqsədli və hazırlıqlı hərəkət etmirsənsə, sadəcə, görəsən burada nə var deyə, ətrafda çox gəzə bilmirsən. İkincisi, bir qayda olaraq ətrafda əslində gördüyündən başqa heç nə olmurdu. Nə bitkilər var, nə də canlılar. Nəhəng buz kütləsinin yer səthinin maillik fərqindən asılı olaraq, yavaş-yavaş aşağıya doğru, gözəgörünməz sürətlə axması nəticəsində əmələ gələn çoxsaylı və çox təhlükəli dərin çatlardan başqa.



***Buz çatları***



***Buz axını***

## 3.4. Buzadırmanma sınağı

Ertəsi gün səhər yürüşü davam etdirmək üçün hər şey hazır idi. Dik buzun başlandığı yerə gəlib çıxdıq və özümüzü bir-birimizə bağladığımız iplərdən başqa, bu dik buza bərkidilmiş xüsusi karabin deyilən və zahirən çox sadə görünən metal halqa vasitəsilə də asdıq və hərəkətə başladıq. Buza bərkidilmiş ipin ucuna - bərkidilmə yerinə çatdıqda, karabini açaraq yuxarı hissədə asılmış ipə sancmaq lazım idi. Üç nəfərin bir-birinə bağlandığı qruplarda getdiyimiz üçün belə ipdən-ipə keçmə məqamında arxandakı və ya qarşındakı yoldaşına karabinini açaraq o biri ipə keçəcəyin məqamın bir neçə saniyə tələb edəcəyi barədə xəbərdarlıq etmək üçün, "Dəyişirəm!" - deyə ucadan qışqırtı səsi bu buzlu qayaları bürümüşdü. Bunu etməli idin. Ona görə ki, irəlidəki və arxadakı ekspedisiya üzvləri hərəkətlərini dayandırsınlar, səndən yuxarıdakı ipi dartaraq, arxadakı isə həddən artıq yaxın gələrək, iplərdə qarma-qarışıqlıq yaratmasınlar.

Nəhayət taqətdən düşmüş şəkildə iki gün əvvəl daşların arasında yerləşdirdiyimiz yüklərimizə çatdıq. Bir az istirahət edərək bu yükləri də arxa çantamıza yerləşdirdik. Yük çox olduğundan hamısı çantaya yerləşmirdi. Məcbur olub, bəzi əşyalarla dolu kisələrimizi arxa çantamızın çölündən bağlamalı olduq. Ümid edirdik ki, yolun çox hissəsini keçmişik. Özümüzü inandırmağa çalışırdıq ki, qarşıda diklə davam edəcəyimiz iplərdən asılaraq buz baltaları, cumayrla ağır yük altında zorla qət etməli olduğumuz məsafə bir o qədər də uzun olmayacaq. Düz deyiblərmiş ki, ümid sonuncu ölür. Burada ikinci dəfə idi ki, Antarktidanın elə bil ki, başımızın, bədənimizin içinə yeridərək səsləndirdiyi qəribə ritmlər eşidilməyə başlandı. Sanki, ölüvay vəziyyətə düşmüş çox yorğun, susuz hüceyrələrimin

hər biri bu ritmin səssiz sədalarını "hökmdarın çağırışı" kimi qəbul edərək, özünü toparlayır, necə deyərlər ürpəşərək, tamam başqa bir varlığa çevrilirdilər. Anlaşılmaz bir həyəcanla müşahidə olunan bu metamorfoza açıq-aydın şəkildə demək olar ki, qəflətən hərəkət sürətimin xeyli artmasına səbəb oldu. Bunu mənimlə bir ipə bağlı cənubi afrikalı yol-yoldaşlarım da hiss etdilər və baş vermiş bu dəyişikliyə öz təəccüblərini gizlətmədən, bir neçə yarızarafat replikalar da səsləndirdilər, "Sənin yükünü artırmaq bizə sərf etmir, dost!"...

...Nəhayət zirvədəyik! Əsl məyusluq hissinin nə olduğunu da burada anladıq. Bu heç də yolun sonu deyilmiş. Çox yorğun olmağımıza baxmayaraq, buradan da təqribən 2,5-3 km-ə qədər dərə-təpə buzun üzəri ilə hərəkət etməli olduq. Axır ki, növbəti təpəciyin arxasına, bizdən qabaqda gedən yoldaşların artıq çadırlarını qurmağa başladığı yerə çatdıq.

## 3.5. Yuxarı düşərgənin psixoloji kolliziyaları

Cənubi afrikalılar, buralara əvvəllər gəlmiş alpinistlər vaxtaşırı çox güclü əsən qarlı küləklərdən çadırlarını və özlərini qorumaq üçün qarı qazıb, qar kərpiclərindən yarımdairə şəklində hörərək düzəltdikləri hazır yuvalarda öz çadırlarını quraşdırırdılar. Məndən aralıda, bir az qabaqda gedən və başqa üçlükdə olan özümlə apardığım şəxs isə, heç üstündə yumşaq qarın da olmadığı buzlaşmış və çox hamar bir meydança seçərək (o biri çadırlardan bir xeyli aralı), bizim çadırı qurmağa başlamışdı. Bu şəxsin seçdiyi yerin bu qədər hamar və düz olmasının səbəbini anlamaq çətin deyildi. Çünki, arxadan heç bir təpəciklə və ya qardan düzəldilmiş hansısa kiçik bir buz divarı ilə mühafizə olunmayan bu yer lap "külək əjdahasının ağzı" idi.



***Yuxarı düşərgədə***



***Soyuq sükut...***



*Yuxarı düşərgədə. Sol kənardakı  külək əleyhinə tələsik düzəldilmiş buz divarı ilə əhatəli bizim çadırdır*



*Azərbaycan ekspedisiyasının çadırı*



***Daha bir yorucu gün də belə keçdi...***

Bu yoldaşın özünün dediyinə görə ömrünü bir peşəkar kimi yürüşlərə həsr etmişdi və özünü təcrübəli dağçı sayırdı. Bu baxımdan onun çadır üçün belə yer seçməsini heç cür əsaslandırmaq mümkün deyildi. Yaxınlaşaraq çadırın qurulmasına kömək etməyə başladım, qalan çadırları göstərərək seçimdəki fərqi və güclü külək əsərsə, yarana biləcək təhlükəni onun diqqətinə çatdırdım. Qonşu çadırdan belə hallar üçün gəzdirdiyimiz qısa saplı "çalov beli" və mişarı götürərək, bir az kənarda qardan kərpic kəsmək üçün münasib bir yer tapdım, kərpic kəsməyə və külək ehtimalı olan istiqamətdə çadırımıza qar divarı quraşdırmağa başladım.

Çox yorğun olmağıma baxmayaraq bir saat, bəlkə də saatyarım bu işlə çox intensiv məşğul oldum. Nəticədə, həm özüm sakitləşdim, həm də çadırımızın külək

vuran tərəfindən bir metr hündürlüyə qədər yarımdairəvi buz divarı quruldu.

Əfsuslar olsun ki, 3000 m-dən çox yüksəklikdə yerləşməyimizə baxmayaraq, günəşin Vinson dağlarının arxasında gizlənməsi nəticəsində 24 saat günəş şüaları altında olmaq ümidimizin yanlış olduğunu gördük. Onsuz da kəskin soyuq hava, daha sərt şəkildə soyudu. Tələm-tələsik meteoroloji ölçüləri apararaq, tez çadırın içində gizləndik. Yeməyimizi hazırlayaraq bu günə də beləcə yekun vurduq. Sabah tezdən bizi çox məsuliyyətli və həlledici gün gözləyirdi.

Öncəki günün təcrübəsinə əsaslanaraq və hesab edərək ki, səhər tezdən nə qədər ki, çadırlarımız dağların kölgəsində qalacaq və həddən artıq soyuq şəraitdə son hazırlıqları başa vurmalı olacağıq, üstəlik də zirvəyə doğru hərəkətə başlamaq əlavə çətinliklər yaradacaq, belə qərara gəldik ki, bunu gündüz saat 12-dən tez etməyək.

Lakin çox keçmədən həmin gün zirvəyə doğru gedən üç nəfərlik qrup tamamilə taqətdən düşmüş halda düşərgəyə qayıtdı. Bu, qaranlıq olmasa da, gecə vaxtı sayılan 11-30-da baş verdi. Bu üçlükdə Punta-Arenas aeroportundan şəhərə qədər bizə yol yoldaşlığı etmiş həmin norveçli xanım da vardı. Zarafatla yerdə qalan barmaqlarının vəziyyətini soruşdum. Taqətsiz şəkildə gülümsünərək hər şeyin çox ağır olsa da, uğurla keçdiyini bildirdi. Məsləhət gördü ki, səhər yola daha tez çıxaq.

Bu təkliflə cənubi afrikalılar da razılaşdı, biz də.

### 3.6. 4500 metr yüksəklikdə buz yürüşü

Səhər 9-30-da yola çıxdıq. Bizi çox ağır bir gün gözləyirdi. Zirvəyə doğru, getdikcə dikə qalxan 5-6 km yol getməli, bir o qədər də geri qayıtmalı idik. Başqalarının təcrübəsi göstərirdi ki, ən yaxşı halda belə, buna 12-14 saat vaxt gedəcək. Bu günə qədər həddən artıq soyuq, şaxtalı hava şəraitində istirahətsiz, ardıcıl hərəkətdə olmaq şərti ilə bu qədər müddəti açıq havada keçirməmişdik. Bilirdik ki, hansısa yolüstü yüngülvari də olsa yemək barədə danışmaq belə qeyri-ciddidir. Hərəmiz cibimizdə bir neçə quru ərik və yarım parça tünd qara şokolad götürmüşdük.

Yenə də üçlüklərə bölündük. Azərbaycan ekspedisiyasına cənubi afrikalılarla gəlmiş yeganə İngiltərə vətəndaşı da qoşuldu. Artıq yüksək templə başladığımız hərəkətin ikinci saatında özümüzü çox yorğun hiss edirdik. 200-250 m enində, hər iki tərəfdən 300-400 m hündürlüyündə qayalı-buzlu dağların uzandığı bir dağ vadisi ilə, “axan” buz dili üzərində yeriyirdik. Çoxsaylı çatların üzərindən keçməli olurduq. Bəzi yerlərdə bizdən əvvəl keçənlərin xəbərdarlıq üçün çatlar üzərində sancdığı kiçik qamış çubuqlara bərkidilmiş qırmızı bayraqlar əyilmiş və ya artıq yıxılmış şəkildə gözə görünürdü. Bəzi yerlərdə külək ayaq izlərini də hələ tamamilə yox etməmişdi və növbəti dəfə belə bayraqcığa və yaxud qəflətən peyda olan ayaq izlərinə rast gələndə hərəkətimizin düzgün istiqamətdə davam etdiyinə əmin olurduq.

Çox soyuq idi. Düşünürəm ki, mənfi 26°-30°-dən az deyildi. Sağ tərəfdən - dağlardan kiçik, lakin daşdan da möhkəm qar-buz dənəcikləri ilə gödəkcəmizi “bombardman” edən kəsici, sərt külək əsirdi. Bu həm yeriməyə mane olur-

du, həm də donma təhlükəsi ilə apardığımız mübarizədə işimizi daha da çətinləşdirirdi. Ayaqlarımızın və ələlxüsus əllərimizin barmaqları soyuqdan ağrıyırdı. Üz-gözümüzdən, burnumuzdan buz sallanmışdı. Marşrutun bəzi hissələri dik, qalan hissələri isə daha da dik olduğundan və küləyin getdikcə üzümüzə əsməsi nəticəsində az qala ikiqat əyilərək çox kiçik addımlarla yavaş-yavaş hərəkət edə bilirdik. Antarktidada olduğum 11-12 gün müddətində deyə bilərəm ki, ən çətin məqamları yaşayırdıq. Soyuqdan donmanın əlamətlərindən biri də Antarktida təcrübəsi olanlar tərəfindən belə təsvir edilmişdir ki, əllərin və ayaqların ağrımasından sonra həddindən artıq yorğunluq hiss edirsən və qarın üstünə yıxılaraq istirahət etmək istəyirsən. Onların rəyinə görə, bu donmanın ikinci mərhələsi deməkdir. Əgər iradəni toplayıb hərəkəti davam etməyi bacarmadınsa, getdikcə güclənən bu istəyə təslim olub, oturaraq və ya uzanaraq "istirahət etmək" istədikdə növbəti və sonuncu donvurma mərhələsi başlayır. Elə bil ki, səni yuxu aparır, heç bir ağrı hiss etmədən huşsuz bir yuxuya doğru gedirsən. Vəssalam!

Çətinlik yaradan bir məqam da üç nəfərin bir ipə bağlı olmasıdır. Üstünlük verdiyin, nəfəsinə uyğun bir ritm seçib, hərəkət edə bilmir, gah qarşıdakına, gah da arxadakına uyğunlaşmalı olursan. Bu da hərəkət ritmini pozur. Külək üz-gözümüzü dondurmasın deyə, iri plastik şüşədən və üzə kip yapışsın deyə çərçivəsinin kənarları rezindən olan eynək və xüsusi materialdan hazırlanmış, ağız yerində nəfəsliyi və burnu mühafizə etmək üçün xüsusi dizayn olunmuş maska taxmışdıq. Başımıza balaklava deyilən başı, boynu və çiyinləri örtən və ancaq üzün kiçik bir hissəsini açıq saxlayan yun və sintetik materialın qarışığından hazırlanmış papaq geyinmişdik.



***Çatlarla dolu buz axını. Aşağıda köhnə düşərgə yeri görünür***



***4500m yüksəklikdə yerləşən buz vadisi ilə Vinson zirvəsinə doğru yolumuza davam edirik***



*Zirvələr qalın buz qatının içində  təpəciklər kimi boylanır*

## 3.7. Mistika, ruhun səfərbərliyi və ya, Antarktida kimə tapşırılıb?

Hərəkət zamanı enerji itkisi o qədər intensiv idi ki, hətta eynəyin içərisində gözlərdən və onların ətrafından azacıq da olsa buxarlanan isti rütubət uçub getməyə macal tapmamış, eynəyin şüşələri üzərində donaraq onların şəffaflığını 90-95% azaldırdı. Ətrafı zorla görürdük. Elə bil ki, trans vəziyyətində hərəkət edirdik. Bütün varlığın, beyninin bütün gücü bir əmri səsləndirirdi, "Davam et, təslim olma!" Məhz bu dəqiqələrdə ikinci dəfə idi ki, Antarktidanın "səsini" duymağa başlamışdım. Gah uşaq çığırtısı, gah haray çəkən qadın səsi insanı diksindirir və ətrafa boylanmağa vadar edirdi. Ətrafda təbii ki, heç kim yox idi. Özüm də hiss edirdim ki, bu iniltilər bizə ünvanlanmayıb. Sadəcə olaraq, bu yanından keçdiyimiz qapının qəflətən açılıb-örtülməsi

zamanı eşidilən və bizə heç bir aidiyyəti olmayan səslərə bənzəyirdi və bütün varlığımla əvvəllər duyduğum həmin ritmi eşidirdim. Elə bil ki, minlərlə insan, yaxud hansısa başqa canlı, yaxud ruh hansısa bir ağır mübarizədə nəyəsə və ya kiməsə səfərbər olaraq, eyni ritmdə nida səslərini ucaldır, nəfəs alırdı. Sən də bu gözəgörünməz qoşunun bir hissəsinə çevrilirdin. Sən artıq sən olmurdun, bütün varlığınla bu ordunun bir hissəsini təşkil edirdin. Özüm də hiss etmədən uca Yaradana müraciət edə-edə gedirdim və bundan birdən xəbər tutdum: "Ya İlahi, ya müqəddəslər, ya atamın cəddi, ya anamın ruhu, ya müqəddəs Vətənim! Mən bunu etməliyəm, mənə kömək olun!"...

Bütün bunlar donma prosesinin nəticələri idi. Üstəgəl, yorğun, donmuş ayaqların altındakı buzun xizəklərə sürtülərək belə səslər çıxarması bu effektləri yaradırdı. Nə etdiyimi anladıqda bu barədə düşünməyə başladım. Ağlıma gələn bir fikrə gülümsündüm də, "Əvvəllər bu yolu keçənlərin demək olar ki, hamısı İsa məzhəbinin daşıyıcıları olub. Görəsən niyə?". Hər halda bilmirdim, yəqin bunu dünyada heç kim də bilmir ki, Antarktida İlahi tərəfindən kimə tapşırılıb. Bəlkə İsa Peyğəmbərə? Yəqin belədir ki, o, öz ardıcıllarına bu vaxta qədər kömək edib.

## 3.8. Zirvə!

Görünür, bütün yorğunluğa baxmayaraq daha sürətlə yeriməyə başlamışdıq. Çünki qarşıda gedən cənubi afrikalıların dəstəsinə çatmışdıq (onlar bizdən bir neçə dəqiqə tez yola çıxdıqları üçün elə qarşıda da gedirdilər). Başa düşürdük ki, əgər zirvəyə qalxmaq şansı bizə verilibsə, orada bir-birimizə mane olmamaq daha məsləhətlidir. Ona görə də, bir neçə dəqiqə istirahət üçün dayanmaq qərarına gəldik. Artıq 7 saatdan çox idi ki, yolda idik. Dayandığımız yer elə

bil ki, qayaların buz dilini iki yerə parçalayaraq üzə çıxdığı bir nöqtədə idi. Yol getdiyimiz vadi burada qurtarırdı. Qarşımızda çox dik qayalı yoxuş görünürdü. Tədricən bu yoxuşun üstünə qalxdıqda, arzusunda olduğumuz Vinson dağının arxa hissəsinə çatdığımızı gördük! Zirvəyə bir neçə yüz metr qalmışdı! Çox sürüşkən və dik, günbəzə bənzər bir yerlə Vinson massivinin belinə doğru qalxmağa başladıq. Nəhayət 9 saat hərəkətdən sonra biz dağın belində idik!

Nəfəsimizi dərib, içərisində isti gödəkcə, termos və bir neçə başqa əşyalar olan, o qədər də ağır olmayan arxa çantamızı burada qoyaraq, ölkəmizin bayrağını, bir tərəfində "Mən fəxr edirəm ki, mən azərbaycanlıyam!" sözləri yazılmış və Azərbaycanı 90-cı illərin əvvəllərində xaosdan qurtarmış, sabitlik və inkişaf yoluna çıxarmış Ümummilli Lider Heydər Əliyevin, o biri tərəfində isə "Azərbaycan İlhamla irəli!" sözləri yazılmış, Azərbaycan Respublikasını çox qətiyyətlə, bacarıqla idarə edən Prezident İlham Əliyevin əksi olan bürüncdən hazırlanmış və qızıl suyuna salınmış diametri 25-30 sm, çəkisi 4-5 kq olan medalyonu götürərək, dağın beli ilə zirvəyə doğru hərəkət etdik. 15-20 dəqiqəlik hərəkətdən sonra nəhayət zirvəyə çatdıq!

Nəhayət! Nəhayət biz qarşımıza qoyduğumuz vəzifələrdən heç olmasa birini (hələlik) yerinə yetirə bildik! Bu, bizim özümüzə olan inamımızı, güvəncimizi artırdı. Artıq Antarktika ekspedisiyası haqqında danışmaq olardı. 5-8 dəqiqə zirvənin üzərində bayrağımızı qaldıraraq və gətirdiyimiz medalyonu zirvəyə sancaraq, fotoşəkillər çəkdikdən sonra geri qayıtmağa başladıq. Bundan artıq burada qalmaq mümkün deyildi. Kəsici külək şaxtayla birlikdə bunu mümkünsüz edirdi. Fotoşəkilləri də bu şəraitdə hələ də işləməkdə davam edən kiçik (alt paltarımızın cibinə yerləşdirdiyimiz və yalnız bunun nəticəsində donmayan) "Casio" fotoaparatı ilə çəkə bilmişdik.



*Vinson zirvəsi*



*Zirvəyə doğru*



***Dik buz yamacında, yük altında hərəkət etmək elə-belə iş deyil***



***İrəli! Ancaq irəli!***



***Kiçik tənəffüs***



***Zirvəyə lap az qalıb***



*Zirvəyə çatırıq*



*Zirvədə!*



***Azərbaycan bayrağı Vinson zirvəsində!***



***Mən fəxr edirəm ki, Azərbaycanlıyam!***



***Yeni zirvələrə doğru İlhamla irəli!***



*Yolumuz buz çatlarının arasından keçir*



*Elsuort dağlarının buzlu yamaclarında*



*Vinson zirvəsindən sonra*



*Vinson zirvəsinin fəthindən sonra*



*Baza düşərgəsindən alt düşərgəyə doğru*

## 3.9. Fizika qanunları ilə mübarizədə

Ümumiyyətlə deməliyəm ki, Antarktida şəraiti batareyalarla işləyən və hərəkət edən hissələri çox olan cihazlar üçün çox ciddi sınaq oldu. Özümüzlə apardığımız "Samsunq" videokamerası (çox kiçik olduğu üçün çəkisi və tutduğu yer bizi qane edirdi) iki səbəbdən demək olar ki, heç işləmədi. Birincisi, akkumulyatorları "öldüyünə" görə. Buradakı temperaturlarda bütün enerji daşıyıcılar, yəni batareyalar, akkumulyatorlar bir neçə dəqiqənin içində boşalaraq, yararsız hala düşür və bunun qarşısını almağın yeganə vasitəsi onları 24 saat ərzində müsbət temperaturda saxlamaqdır, bu isə faktiki mümkün deyildir. Hətta hansısa akkumulyatoru bədənə nisbətən yaxın cibdə qoruyub saxlaya bildinsə belə, cihazdan istifadə etmək istəyər-

kən, tutaq ki, video çəkiliş aparmaq istəyərkən 10-15 saniyədən sonra videokamera artıq sönürdü, akkumulyator boşalırdı. Videokamera kimi cihazların işləməməsinin ikinci səbəbi isə onların çoxlu sayda hərəkət edən hissələrinin olması idi. Bu hissələrin üzərində azacıq da olsa rütubət hər zaman olur. Rütubət donaraq, cihazın hərəkətinə mane olur, onu iflic edirdi. Bu baxımdan özümüzlə apardığımız iki fotoaparat və bir videokameradan yalnız kiçik "*Casio*" fotoaparatı daha etibarlı çıxdı. Düzdür yarımpeşəkar "*Sony*" fotoaparatı ilə də minə qədər fotoşəkil çəkə bilmişdik. Lakin, onun akkumulyatorlarını qorumaq daha çətin idi. Meteoroloji cihazların batareyalarını tez-tez dəyişməli olurduq. Ehtiyat batareyaları isə öz yataq kisəmizdə gəzdirirdik.

## 3.10. Geriyə

Geriyə, üzüaşağı getdiyimiz üçün daha sürətlə hərəkət edə bilirdik. Buna baxmayaraq ümumilikdə yol 14 saatdan çox vaxt apardı. Düşərgəyə çatdığımız zaman o qədər yorulmuşduq ki, hərəkət belə edə bilmirdik. Təcili qar əridərək, su əldə etməliydik. Bu qədər uzun fasilədən sonra donmamaq üçün nə isə ciddi bir şey yemək lazım idi. Düşərgədə bizdən bir gün əvvəl dağdan düşmüş üç nəfər bizə yaxınlaşaraq nə isə demək (görünür təbrik etmək) istəyirdilər, lakin mən o qədər taqətsiz idim ki, onların heç birini eşitmədən, ancaq üst gödəkcəmi çıxardaraq (bu qore-teks gödəkcəsinin Antarktika şəraiti üçün yararsız olduğunun bu gün, növbəti dəfə burada şahidi oldum - yol boyu bədənin buxarlanan rütubətini buraxmadığı üçün iç qatı az qala 1 sm qalınlıqda buzla örtülmüşdü. Gödəkcəni bir-

təhər çırparaq buzların bir qisminin tökülməsini istədim, sonra da onu çadırın bir küncünə tulladım) yataq kisəmə girdim və həmin saniyə yarı huşsuz, yarı yuxulu vəziyyətə keçdim. Nədənsə düşündüm ki, bu hal mənə yürüşü davam etdirməyə imkan verməyəcək. Bütün bədənim ağrıyırdı. Lakin, bir neçə saat yatdıqdan sonra nisbətən özümə gələrək, nəsə etmək qabiliyyətimin bərpa olunduğunu hiss etdim.

Növbəti günü, səhər tezdən istirahətə vaxt ayırmadan geri qayıtmağı qərarlaşdırdıq və çadırlarımızı yığışdıraraq hərəkətə başladıq. Bir neçə saata, sonsuzluq kimi görünən buz dikinin üstü ilə iplərlə aşağı endik və bir qədər də yeriyəndən sonra nəhayət aşağı düşərgəyə çatdıq. Burada da çox qalmamaq qərarını verdik.



***Parıltılı, açıq buzlar***



***Buz çatları***



***Çatlarla dolu buzlar***

Bütün əşyalarımızı toplayaraq kirşələrimizə yerləşdirdik və kirşələrə qoşularaq əsas baza düşərgəsinə doğru hərəkət etdik. Günün sonuna biz artıq düşərgəyə çatmışdıq. Çadır belə qurmadan bizi Patriot-Hillsə aparacaq təyyarəni gözləməyə başladıq. Onda fikir verdim ki, ağır, şaxtalı hava şəraitinə hesablanmış üçqat uzunboğaz çəkmələrimin yumşaq qırmızı rəngində olan boğaz hissəsi yol boyu kramponlara ilişməkdən dəlik-dəlik olmuşdu. Bəzi yerlərdə isə xüsusi materialdan hazırlanan üst qatının parçası cırılaraq sallanmışdı. Lakin, bütün bunlar məni artıq narahat etmirdi. Çünki bu çəkmələr öz missiyalarını bitirmişdilər. Vinson dağı arxada qalmışdı! Cənub Qütbünə doğru isə xizəklə hərəkətə uyğunlaşdırılmış "Baffin" çəkmələri bizə gərək olacaqdı.

## 4. CƏNUB QÜTBÜNƏ DOĞRU

### 4.1. Son hazırlıqlar

Gecəyarı artıq Patriot-Hills düşərgəsində idik. Nədənsə bizdə əminlik yaranmışdı ki, yürüşümüzün ən ağır hissəsi artıq arxada qalıb. Ağlımıza belə gətirmirdik ki, Vinson dağına qalxdığımız zaman son iki mərhələdə rastlaşdığımız çətinliklərdən daha ağırı ola bilər. Elə bu eyforiya hissi ilə Cənub Qütbünə yürüşə hazırlaşmağa başladıq. Əşyalarımızı bir də gözdən keçirərək lazım olanlarını ayırdıq, kirşələrə yığdıq və xizəklə hərəkətdə özümüzü sınamaq üçün xüsusi qoşqu qayışlarını geyinib, kirşələrə qoşularaq xizəklərdə düşərgənin ətrafında 4-5 km-lik bir dairə üzrə sınaq yürüşünə çıxdıq. Buzun üstündə bərkimiş qar topalarına rast gəldikdə, kirşə onlara ilişərək bizi geri dartırdı. Bundan başqa

elə bir çətinlik hiss etmədik. Xizəklə hərə bir üslubda gedirdi: kimisi ayaqlarını sürüşdürərək, kimisi isə elə bil addımlayaraq yeriyirdi. Özümüzlə Bakıdan 4 cüt teleskopik çubuq gətirmişdik. Bunların iki cütü Moskvadan alınmış, iki cütü isə qərb ölkələrinin birindən gətirilmişdi. Ehtiyata saxlamışdıq bunları. Məşqin sonuna az qalmış çubuqlarımın biri sındı. Yaxşı ki, düşərgənin yaxınlığında sındı.

Cənub Qütbünə yürüşə başlamaq üçün olduğumuz yerdən Antarktida platosuna uçmalı idik. Bu plato Tili dağlarından sonra Antarktidanın mərkəzi hissəsini əhatə edən, ərazisi 7-8 mln. $km^2$, qalınlığı 3-3,5 km nəhəng sal və qütbə doğru getdikcə yüksəlməkdə olan buz layından ibarət idi. Olduğumuz yerdən də xizəklə hərəkət etmək mümkün idi.



***Antarktida mənzərələrindən***



***Elsuort dağları***



***Patriot-Hills stansiyasında***



***Patriot-Hills dağlarına tufan gəlir***



***Mavi buzun günəş şüaları altında parıltısı***



***Dağ buzlaqları***



***Cənub Qütbünə doğru***



***Çox yorğun olduğum bir an***



***Cənub Qütbünə aparan yolda kiçik tənəffüs***



*Üz-göz buz içində*

Lakin, bu halda biz düşərgəmizdən Cənub Qütbünə qədər olan 1200 km-lik marşrut üzrə üzərində radiomayak olan yemək və yanacaq ehtiyatı konteynerlərini əvvəlcədən təyyarə vasitəsilə ora ataraq, özümüzə yol ehtiyatı yaratmalı idik. Çünki, özümüzün darta biləcəyimiz kirşələrlə 10-12 gündən artıq yol getmək, ərzaq və yanacaq daşımaq demək olar ki, mümkün deyildi. Bu məsafəni isə ən yaxşı halda 60-70 günə qət etmək olardı. Və yaxud, iri kirşələri dartmaq üçün özümüzlə 8-10 arktik it gətirməli idik. Amundsen də belə etmişdi. Axı adambaşına bir neçə kiloqramlıq yük daşımaq lazım gələcəkdi. Lakin, 1959-cu ildə imzalanmış Antarktika Müqaviləsinə görə bu qitənin ekosistemine yad olan itlərin bura gətirilməsi artıq qadağandır. Buna görə də biz yol boyu yemək və yanacaq ehtiyatı yaradılması ideyasının özünü bir qədər süni saydıq

və platodan axıra qədər ancaq öz fiziki imkanlarımıza söykənərək, Cənub Qütbünə çatmağı qərarlaşdırdıq. ALE təşkilatının prezidenti Peter Medovele dediyi kimi, bu bəlkə bir qədər az vaxt aparır, lakin çətinlikləri zərrə qədər də azaltmır və daha təbiidir.

Dörd gün gözləməli olduq. Düşərgəmizdə hava şəraiti heç də pis deyildi. Elə bil ki, yayın ən qızmar çağı başlamışdı. Bəzən temperatur mənfi 6°-7°-yə qədər qalxırdı. İş o yerə çatmışdı ki, bu stansiyada yaşayan və tədqiqatla məşğul olanlar hətta bir gün futbol oynamağa da çıxdılar. Bu bir qədər qəribə görünürdü.



***Buz üzərində futbol...***

Bizə izah etdilər ki, platoda hava şəraiti yaxşı deyil. Tili dağlarında (bizim yerləşdiyimiz stansiyadan 600-650 km qütbə doğru yerləşir və bu dağlardan sonra qütbə qədər buzun üzərində heç bir çıxıntı müşahidə olunmur) bir avtomatik meteoroloji stansiya quraşdırılmışdı. Külək generatoru ilə işləyən bu stansiya avtomatik rejimdə radioimpuls vasitəsi ilə meteoroloji məlumatlar verir. Nəhayət, yanvarın 14-də hazırlıq komandası verildi. Tam hazır vəziyyətdə, isti paltarlarımız əynimizdə bütün günü gözlədik.

## 4.2. Birinci gün

Növbəti gün səhər yenidən hazırlıq komandası verildi. Yanvarın 16-da, saat 11-12 radələrində nəhayət ki, tələm-tələsik dolu kirşələrimizi də darta-darta kiçik "Otter-Twin" təyyarəsinə doğru qaçdıq (buna qaçmaq demək olarsa) və 20 dəqiqədən sonra artıq bu təyyarənin dörd oturacağının yerində bizim kirşələrimiz qalaqlanmışdı, arxa altı oturacaqda isə ilk Azərbaycan-Antarktida ekspedisiyasının iki və Cənubi Afrikanın "Afrika üçün sülh" bayrağı altında gedən dörd üzvü əyləşmişdi. Uçacağımız məsafə o qədər uzun idi ki, hətta bu təyyarə də əlavə yanacaq doldurmadan onu qət edə bilməzdi. İki saat yarımlıq uçuşdan sonra Tili dağlarında buz üzərinə endik.

Dağlar dedikdə, 3000 metrlik qalın buz qatının üzərində "boylanan"100-150 m-lik qayalı zirvələrdən söhbət gedir. Antarktida buzları bu uca dağları demək olar ki, tamamilə "udmuşdur". Bu şişman qayaların arasında öz xizəkləri ilə elə qarın üstünə oturan təyyarəmiz 20-30 çəlləkdən, yuxarıda adı çəkilən meteoroloji stansiyadan (2-3 antena və həmin antenaların dibində quraşdırılmış bir neçə cihaz və

külək generatorundan ibarət) və demək olar ki, tamamilə qarın altında qalmış, yazıq və tənha görünən bir çadırdan ibarət məntəqənin yanında dayandı. Təyyarəçilər özləri ilə gətirdiyi kiçik motopompanı çölə çıxardaraq işə saldılar və onun köməyi ilə çəlləklərdən təyyarəyə yanacaq doldurmağa başladılar. Biz də çölə çıxdıq. Buranı Patriot-Hillsdəki hava şəraiti ilə müqayisə etmək belə olmazdı. Çox soyuq idi. Düşünürəm ki, haradasa 30°-35° şaxtadan az deyildi.

Bura yanacağın necə gətirilməsini soruşduq. Təyyarəçilər bizə izah etdilər ki, bunun üçün iki vasitə var. Birincisi, belə sərt şəraitdə hərəkət edə bilən traktorlara nəhəng kirşələr qoşulur. Bu kirşələrin üstünə isə yanacaqla dolu çəlləklər yığılır. Sonra bu traktorlar bir neçə ay çəkən ağır yürüşə çıxırlar. Bu çox bahalı və təhlükəli bir tədbirdir. İkinci variantda isə elə "Otter-Twin" təyyarəsi 8-9 çəlləklə buraya enir və yanacaq ehtiyatı yaradır. Məhz buna görədir ki, Antarktida ekspedisiyaları bahalı tədbir sayılır.

Bir azdan heç düşünmədən ki, iki saatdan sonra bu təyyarəni birdəfəlik tərk edəcəyik və Allah bilir neçə gün bundan daha sərt hava şəraitində Antarktida buzları ilə təkbətək qalacağıq, tələm-tələsik təyyarəyə qayıtdıq. Əməlli başlı donmuşduq.

Nəhayət, təyyarə havaya qalxdı. 1 saat 50 dəqiqə davam edən uçuşdan sonra Antarktika platosunda, ətrafdakı başqa yerlərdən ancaq nisbətən daha hamar qar örtüyü ilə fərqlənən bir yerdə yenidən buz üstünə endik. Biz kirşələrimizi boşaltdıq, gözlərimiz qamaşdığı üçün dağ eynəklərimizi taxdıq, çox soyuq olduğu üçün isti qu tükündən olan gödəkcələrimizi də düyməléyərək pilotlarla xudahafizləşdik. Onlardan biri "Sizə həsəd aparmıram", deyə zarafat etdi. O birisi isə bir xanım idi və "Bir neçə mövsümdür ki,

buraya işləməyə gəlirəm, lakin, Cənub Qütbü yürüşünün nə olduğunu hələ də bilmirəm", dedi. Təyyarə havaya qalxdı, üstümüzdə bir dövrə vuraraq, qanadlarını yellədi və gözdən itdi.

Milyon kvadrat kilometr ərazidə yeganə canlı olaraq, qarşımıza qoyduğumuz məqsədin reallaşdırılması ilə bağlı problemlərlə təkbətək qaldıq.

Havanın küləksiz, səmanın isə qismən açıq olmasına baxmayaraq ətraf çox tutqun görünürdü. Bundan əvvəl olduğumuz yerlərin landşaftına heç bənzəməyən bir mühitlə rastlaşmışdıq. Ucu-bucağı görünməyən qar və buz düzü. Haradasa, çox uzaqlarda ağ səhra sanki bozumtul-ağ səma ilə birləşirdi. Dağılmış buludların arasından buz parçası kimi parıldayan günəş görünürdü. Bu günəş barədə "mehriban" demək olmazdı. Heç qızdırmırdı da.

Ancaq Vinsondakı təcrübəmizdən bilirdik ki, 5-10 dəqiqə yetər ki, üzün açıq hissələrini yandırsın və bir neçə saatdan sonra üzün rəngi qırmızı ilə qaranın qarışığından ibarət olsun. Qızdırmayan, lakin yandıran günəş şaxtalı havada qısa zaman içərisində burnun şişərək böyüməsinə, yanmaqdan qabar-qabar olmasına, ucunun isə donmaqdan boz rəngə çalmasına gətirib çıxarır. İndi anlayıram ki, Cənubi Amerikada And dağlarının yüksəkliklərində yaşayan hinduların rəngləri niyə belə qaramtıl-qırmızıya çalan olur. Hələ Vinsonda sonuncu yüksək düşərgədə cənubi afrikalılar mənim həddən çox şişmiş, qabığı soyulmuş və çat-çat olan yaralı dodaqlarıma təəccüblə baxaraq, zarafatla, "Sən yavaş-yavaş afrikalıya çevrilirsən" demişdilər. O zaman iki-üç gün ərzində, gündə 3-4 dəfə olmaqla apardığım dərmanlarla müalicə nəticəsində burnumun və dodaqlarımın az-çox

normal ölçüyə qayıtmasına nail ola bilmişdim. Düzdür, yaralar donmuş barmaqlarımın yaraları kimi sağalmaq bilmirdilər. Lakin, Çiliyə qayıtdıqdan sonra bütün bu yaralar üç günün içində yoxa çıxmışdılar.

Burada günəş gözümə daha “qəddar” görünürdü. Soyuq və hirsli! Qeyd etdiyim kimi iri xizəkçi eynəklərini taxdıq (hələ bu yürüşə hazırlaşarkən Patriot-Hillsdə balaklava maskalarından birini kəsib doğrayaraq, bu eynəyin alt hissəsinə şərq qadınlarının istifadə etdiyi pərəncəyə bənzər yun parça tikmişdik. Nəticədə eynəyi taxarkən onun alt hissəsinə tikilmiş bu yarımdairəvi yun parça eynəkdən sallanaraq, üzümüzü kəsici-dondurucu küləkdən və yandırıcı günəşdən qoruyurdu. Eyni zamanda bu parça sərbəst sallandığı üçün nəfəs ala bilirdik). Açığını deməliyəm ki, belə bir maska çöldəki kəskin şaxta ilə üzümüz arasında nisbətən mülayim hava qatı yaratmaqla bərabər, nəfəs almağa da kömək edirdi.

Hətta bu maska ilə belə, yarım saatdan sonra hər birimizin burnundan və günbəgün sıxlaşan saqqalından buzlar sallanırdı. Hətta eynək altında belə soyuqdan gözlər əvvəlcə yaşarmağa başlayır, sonra isə bu rütubət donduqda, kirpiklərimiz bir-birinə yapışaraq gözlərimizi açmağa imkan vermirdi. Gərək eynəyini çıxardasan ki, gözlərini ovuşdurasan. Lakin, bu da təhlükəli idi. Çünki bunun üçün əvvəlcə əlcəkləri çıxartmaq lazım idi. Nəticədə həm üz, həm də əllər daha da çox donmağa başlayırdı. Buna görə də, belə narahatçılıqlara dözümlə yanaşmaq tələb olunurdu. Gözlərinin yaşarması nəticəsində əmələ gələn rütubətin bir qismi isə eynəklərin şüşələrinin iç tərəfdən üzərini tərlədir və bu tər də bir neçə saniyə içində donaraq buza çevrilirdi.



*Üz-gözümüz buz içində*



*Sərt şaxta göz açmağa imkan vermir*

Biz sıraya düzülərək, coğrafi məkan sistemi cihazının (GPS) vasitəsi ilə, bu sistemi dəstəkləyən peyklərdən durduğumuz yerin və Cənub Qütbünün yerləşdiyi istiqamətin dəqiq koordinatlarını müəyyən edərək, hərəkətə başladıq.

Yarım saat hərəkətdən sonra eynəyimin şüşələrinin buz bağlaması nəticəsində mənim hərəkət etmək üçün yeganə oriyentirim qarşımda gedən adamın kirşəsinin arxa hissəsində yazılmış "expedition" sözü idi. Kirşələr intensiv narıncı rəngdə idilər (ümumiyyətlə, Antarktida ekspedisiyalarında üst geyimlər, çadırlar, kirşələr, qarda yaxşı seçilən, uzaqdan görünən qırmızı və narıncı rənglərdə olur. Bu, ekspedisiya üzvləri itkin düşdükləri hallarda təyyarədən və yaxud piyada axtarışlarında köməyə gəlir). Çalışırdım ki, narıncı rəngli "*expedition*" yazısını itirməyim. Donmuş, tutqun eynəklərdə bu yazıdan başqa heç nə görmək olmurdu. Vaxtaşırı hərəkəti dayandıraraq, GPS-in köməyi ilə mövqeyimizi və istiqamətimizi dəqiqləşdirməli olurduq. Bəzən özümüz də xəbər tutmadan marşrutdan kənarlaşırdıq. Nəticədə bizim hərəkətimiz düz xətt üzrə yox, daim istiqamətini gah sola, gah da sağa dəyişən qısa xətlərdən ibarət kimi görünürdü.

Barmaqlarımızın donmasını artıq labüd bir narahatçılıq kimi qəbul etməyə öyrəşmişdik. Lakin, buradakı şaxta tamam başqa cür təsir göstərirdi. Barmaqlarım çox ağrıtmağa başlamışdı. Buna heç üst-üstə geyinilmiş üç əlcək də kömək etmirdi. Ən böyük problem isə 50 dəqiqə hərəkətdən sonra etdiyimiz ilk dayanacaqda üzə çıxdı. Ümumiyyətlə Antarktidada çoxlu enerji itirirsən. Yürüşün bu mərhələsində isə bütün günü hərəkətdə olmağımız və daha sərt şaxtalar bu enerji itkisini maksimuma çatdırmışdı. Ona

görə də, 50 dəqiqədən sonra etdiyimiz qısa dayanacaq zamanı bir az su içmək, nə isə çeynəmək lazım gəlirdi. Bunun üçün əlcəklərin heç olmasa ikisini çıxartmaq tələb olunurdu. Bunu edib, kirşəmizdən termosu götürüb, donmuş qapağını çətinliklə açaraq, artıq yarı buz, yarı sudan ibarət məhluldan bir az içərək, cibimizdə olan qurudulmuş ət parçalarını tələm-tələsik ağzımıza atıb çeynəməyə başladıq. Kirşənin üstündə oturduq.

Ancaq indi, cəmi bir saat hərəkətdən sonra qıçlarımın nə qədər yorulduğunu hiss etdim. Amma əsas bu deyildi. Nisbətən nazik yun əlcəyin üstündən tüklü dəri əlcəkləri, onların üstündən isə qaz tükü ilə doldurulmuş yekə barmaqsız əlcəkləri yenidən geyinməyimə baxmayaraq, əllərimdə, barmaqlarımda dözülməz ağrılar başlamışdı. Baş və şəhadət barmaqlarım isə tədricən keyləşirdi. Onların ağrısı da azalırdı.

Bu isə o demək idi ki, barmaqların hüceyrələrindəki maye və damarlardakı qan tədricən donmağa başlayır, buz kristallarına çevrilirlər (bu kristalların iti ucları minlərlə nizə kimi "əsəb kanallarına" batır və ağrılara səbəb olur. Donma və kristallaşma başa çatdıqdan sonra isə blokadaya düşmüş əsəb kanalları sıradan çıxır və sən artıq ağrıları hiss etmirsən. Təcili tədbir görməsən bu proses dönməz olacaq və barmaqlarını itirəcəksən. Çöl şəraitində belə donmuş bədən üzvləri çadırda və ya yataq kisəsində müsbət temperaturlarla qarşılaşan kimi onların donu açılır və çürümə prosesi başlayır. Bu proses ağrısız keçir. Lakin, bir neçə gündən sonra təkcə onların qaralmış rəngi yox, həm də üfunətli iyi qanqrena təhlükəsinin real olduğuna bir işarədir). İntensiv hərəkət etdiyimiz zaman əfsuslar olsun ki, tərləmişdik. 4-5 dəqiqəlik tənəffüs yetərli oldu ki, hava burax-

mayan gödəkcənin altında bu tər buza çevrilsin. Bunun əziyyətini çəkə-çəkə yolumuza davam etdik. Bütün yolu barmaqlarımı əlcəklərin içində hərəkət etdirməyə çalışırdım ki, birtəhər keyləşməni dayandırım və ağrı azalsın.

Artıq anlamışdıq ki, növbəti dayanacaq 3-4 dəqiqədən çox olmayacaq. Eyni zamanda daha bir mənfi məqam aydın hiss olunmağa başlamışdı. Hər dəfə istiqaməti dəqiqləşdirəndə marşrutdan o qədər ciddi kənarlaşdığımızı müəyyən edirdik ki, nəticədə çox ola bilsin ki, saatda 2,5-3 km mütləq keçə biləcəyimiz məsafə bizi Cənub Qütbünə 1,3-1,6 km-dən çox yaxınlaşdıra bilmirdi. Bu gün ilk günümüz idi ki, hərəkətə Çili vaxtı ilə haradasa günortadan sonra saat 4-də başlamışdıq. 4 saatlıq yoldan sonra çox yorulmuşduq. Lakin, cəmi 7 km yol qət etmişdik.

Dayanmağı və düşərgə salmağı qərarlaşdırdıq. Çadırlarımızı quraşdırdıq. Bu proses sağ qalmaq üçün bir imtahana çevrildi. Çünki 4 dəqiqədən sonra çadır hələ hazır deyildi. Barmaqlar isə artıq heç bir iş görməyə yaramırdı. Birtəhər bu işi başa çatdıraraq çadıra girdik və gödəkcələrimizi çıxardıqda qalın buz qatı ilə örtüldüyümüzü gördük. Təcrübəsizlikdən üstümüzdəki bu buzları elə çadırın içində sındırıb yerə tökməyə başladıq və sonra da çadırın içinə saldığımız əşyaların arasından plastmas boşqabı götürərək, çadırın döşəməsindən 7-8 boşqab qar və buzu çölə atdıq.

Tələsik yükümüzün içində olan, xüsusi sintetik materialdan hazırlanmış, 4-5 mm qalınlığı, 40-45 sm eni və 1m 80 sm uzunluğunda olan döşəkcələri yerə sərərək, yataq kisələrini onun üzərində açdıq və yarıya qədər bu kisənin içinə girib tamamilə donmuş bədənlərimizi "diriltməyə" başladıq. Özümlə apardığım ekspedisiya üzvü primusu işə saldı və çadırın içərisindəki mənfi 25°-28° şaxta tədricən azalmağa

başladı. Artıq yarım saatdan sonra adama bir parç su qaynamışdı və hərəyə bir paket quru şorbanı bu suda həll edib içdikdən sonra beynimizin də, canımızın da donu açıldı. Gecə saat 2-yə qədər paltarlarımızı qurutmaq, yemək hazırlamaq və sabaha su ehtiyatı yaratmaqla məşğul olduq. Bu bizim Antarktida platosunda, 3500 m hündürlükdə, buz üzərində keçirəcəyimiz ilk gecə idi.

## 4.3. Yürüş həyatı

Burada biz artıq Vinson massivində və Patriot-Hillsdə müşahidə etdiyimiz günəşin səmada dövr edərkən, nisbətən daha yüksək və daha aşağı mövqelərdə olması ilə bağlı temperaturun dəyişməsini demək olar ki, heç hiss etmirdik. Bütün apardığımız müşahidələr də təsdiq edirdi ki, temperatur mənfi 30°-dən yuxarı qalxmır və - 32°-40° arasında dəyişir. Bəzi günlərdə rütubətlilik 18-20%-i aşmırdı. Lakin, elə yürüşümüzün ikinci günü Antarktida üçün qeyri-adi olan atmosferdəki yüksək rütubətliliyi qeydə aldıq. Müşahidə apardığımız zaman rütubətlilik 50-70 % arasında dəyişirdi. Bunu elə öz üzərimizdə də hiss edirdik.

Çadırdan kənarda maskasız, əlcəksiz bir dəqiqədən çox durmaq belə olmurdu. ALE-nin bizə icarəyə verdiyi primusla bərabər özümüzlə də bir primus gətirmişdik və çalışırdıq ki, çadırın daxilində də mümkün qədər bu primusları işlədək. Əlbəttə, bu özümüzlə daşıdığımız yanacağın Cənub Qütbünə çatmamış qurtarmaq təhlükəsini yaradırdı və bizi narahat edirdi. Lakin, çadırın içərisindəki mənfi 25°-30° şaxtanı heç olmasa bir az azaldaraq, dözülməsi mümkün olan bir şərait yaratmaq istəyi üstün gəlirdi. Çadırın tavan hissəsinə yaxın temperaturu hətta müsbətə qədər çatdıra bilirdik. La-

kin, təzəcə qaynatdığımız və parça tökdüyümüz qaynar su çadırın döşəməsinə qoyulan kimi 1-2 dəqiqənin içində buz bağlamağa başlayırdı. Axşamdan qar əridərək termoslara doldurduğumuz suyu səhər çay hazırlamaq üçün istifadə etmək istədikdə, donduğu məlum olurdu. Heç termosun qapağını belə aça bilmirdik. Hətta çadırın içində belə, metal əşyalara əl vurmamağa çalışırdıq. Təsadüfi və yaxud diqqətsizlik üzündən bu baş verərkən həmin əşya yandırıcı bir ağrı ilə ələ yapışırdı.

Çadırı quraşdırdıqdan yarım saat sonra onun iç üzü, divarları və tavanı nəfəsimizin donmuş rütubətindən əmələ gələn qar və buzla örtülürdü. Çadırın içində çox ehtiyatla hərəkət etməyə çalışırdıq, çünki bir tərəfdən təsadüfən primusa toxunan sintetik əşyalarımız od tutub yanmağa (bütün hallarda ciddi yanğının qarşısını ala bilmişdiksə də, son nəticədə bütün əşyalarımız yanğınlardan dəlik-dəlik olmuşdu), başqa bir tərəfdən isə iti hərəkət zamanı çadıra toxunduqda qar kristalları hər yerə, o cümlədən yataq kisəsinə də dolmağa başlayırdı. Bu isə, həddən artıq xoşagəlməz bir hal idi.

Burada bizim yeganə qida mənbəyimiz plastik paketlərdə “pudra” şəklində olan sıyıqlar və şorbalardan ibarət idi. Yəni hətta primusda nəyi isə qızartmaq və ya bişirmək istəsəydik belə bu mümkün olmazdı. Qar əritmək, su qaynatmaq, plastik paketin üstünü bıçaqla ehmalca kəsib götürərək, paketin içinə 200-250 qr qaynar su tökmək və gözləmək. 10 dəqiqədən sonra bu “pudra” qaynar suyu canına çəkərək, kiçik ət və ya toyuq parçalarına, yaşıl noxuda, hətta əriştəyə çevrilməyə başlayır. Əməlli-başlı yeməyə oxşayır. İlk günlər bu yeməyi plastmas boşqablara boşaldaraq, yeməyə üstünlük verirdik.

Sonralar anladıq ki, bu əlavə problemlər yaradır. Kağız dəsmal ehtiyatımızı azaldır, bundan əlavə təmizləməyə macal tapmamış donmağa başlayan çirkli qab problemi də yaradır. Buna görə də, elə plastik paketin özünü qab kimi istifadə etməyə üstünlük verirdik. Götürdüyümüz ərzaq ehtiyatlarının içində nazik doğranmış, qurudulmuş, hisə verilmiş ət çeşidləri də var idi. Lakin, onların tərkibində hələ də rütubət qaldığından donub buz parçalarına çevrilmişdilər. Əgər bəxtin gətirib, bu buzlaşmış ətdən dişlərinlə bir tikə qopara bilirdinsə belə, onu yumşaldana qədər ağzın donurdu. Buna görə də, belə buzlu ətdən bıçaqla kiçik parçalar qopardaraq, özümüzlə gəzdirdiyimiz kiçik qazançaya atır və onu primusda heç olmasa bir az qızdıraraq donunun açılmasına nail olurduq. Eyni proseduru nazik doğranmış və donduğu üçün bütöv bir buz parçasına çevrilmiş sarı pendirlə bağlı da demək olardı. Bu qidalar yüksək kalorili olduğu üçün dadımıza çatırdı.

Ola bilsin ki, mənim təsvirimdən sonra kimsə iştaha gəlsin, lakin açığını qeyd edim, bu yeməklərin, xüsusən də plastik paketdə gözümüzün qarşısında "pudra"-dan şişərək ət və tərəvəzə çevrilən yeməklərin elə bir dadı yox idi. Sadəcə başa düşürdük ki, bizə enerji lazımdır və bu avtomobili yanacaqla doldurma prosesinə bənzər emosiyasız bir proses idi. Qida paketlərinin arasından hətta qurudulmuş dondurma da tapdıq. Amma bunu qaynar suda şişirdilərək içində meyvə olan nəyəsə çevirdikdə belə, niyə dondurma adlandırıldığını anlaya bilmədik. Ümumiyyətlə nə olduğunu başa düşmədik, lakin üstündə 750 kilokalori enerji olduğu yazılmışdı.

Bizə də elə bu lazım idi.

## 4.4. İkinci gün

Yürüşün elə ilk günü axşam, mənim xizəyimin altına yapışdırılan, kənara və geriyə sürüşməkdən sığorta edərək ancaq irəliyə hərəkəti təmin edən sintetik örtük demək olar ki, yarıya qədər qopmuş və xizəyin altından kənarlara quyruq kimi sallanmışdı.

Növbəti gün səhər birtəhər canımızın istisi ilə qızdırdığımız yataq kisəsindən çıxaraq, səhər hazırlıqlarını başa vurub, donmuş üst paltarlarını geyinərək yola hazırlaşmağa çalışdıq. Bədənimizin istisi və primusların sayəsində sintetik üst gödəkcələrimizin donu açıldıqdan sonra, birtəhər onu düyməməyə bildik. Hələ də nəm qalmış maskaları da geyindik və daha da sərt şaxtalı olan çölə çıxaraq, tələm-tələsik əşyalarımızı kirşəyə yığdıq. Bu gün daha çox məsafə keçmək istəyirdik. Çadırlarımızı yığıb kirşələrə qoşularaq bir-birimizin arxasınca düzüldük. "Afrika üçün sülh" bayrağını Cənub Qütbünə çatdırmağı qət etmiş dörd ağdərili cənubi afrikalı və bu yerlərdə çox qəribə görünən iki azərbaycanlı - ilk Azərbaycan ekspedisiyası!

Əvvəlcədən razılaşmışdıq ki, bu iki ekspedisiya bir-birinin işinə müdaxilə etməyəcək. Hərənin öz məqsədi, məramı var. Sadəcə olaraq yanbayan, daha dəqiq desək, daban-dabana getməyin öz faydası və səmərəsi var idi. Biz bunu gözəl başa düşürdük, bir-birimizə dəstək olmağa çalışırdıq. Alışmadığımız bu yad mühitdə bir yerdə hərəkət etməyin səmərəsini görmək üçün üzərimizə müəyyən etik, yoldaşlıq öhdəlikləri götürmüşdük.

Qeyd etməliyəm ki, bəzi məqamlarda aramızda gərginlik də yarana bilərdi. Bu gərginliyin qoxusunu havada

hiss edirdim və bunu önləyərək çalışırdım ki, bu iki qrupun hər birinin özünü kiçilmiş hiss etmədən, ləyaqətlə vəziyyətdən çıxması üçün əlimdən gələni edim. Hiss edirdim ki, əks tərəf də bunu yaxşı başa düşür, dəyərləndirir və öz səylərini də əsirgəmir. Nəticədə yürüşün sonuncu saniyəsinə qədər aramızdakı alicənablıq münasibətləri öz aliliyini qoruyub saxlaya bilmişdi!

Platoda hərəkətin, ümumiyyətlə yürüşün bu hissəsinin bütün Antarktida ekspedisiyasının ən çətin hissəsi olacağını ağlımıza belə gətirməmişdik. Soyuqda və tənha şəraitdə qarşımıza qoyduğumuz məqsədə çatmaq üçün bütün imkanlarımızı səfərbər etdiyimizdən, edəcəyimiz növbəti hərəkətdən, atacağımız addımdan başqa beynimizdə heç bir şey üçün yer qalmamışdı. Bütün imkanlarımız sağ qalmağa, barmaqlarımızın, üzümüzün don vurmadan qorunmasına, hərəkət etmək imkanımızın saxlanmasına, Cənub Qütbünə olan məsafənin qısaldılmasına yönəldilmişdi.

Lakin, bəzi hallarda Vinson dağına yürüşün ən çətin məqamlarını belə, indi yaşadığımız çətinliklərin yanında yüngül bir məşq olduğunu fikirləşirdik. Dabandabana getməyə məcbur idik. Buzun üst, kristallardan ibarət qarlı hissəsində xizəksiz ayaqlar dizə qədər qara batırdı və yerimək demək olar ki, mümkün deyildi. Xizəklər isə qara ancaq 4-5 sm batırdı. Hətta belə olduğu halda qarı yara-yara getmək üçün xizəkçidən əlavə enerji tələb olunurdu. Buna görə də, gücümüzə qənaət etmək üçün nisbətən cavan olan (30-35 yaşlarında) ekspedisiya üzvləri növbə ilə birinci gedir, qalanları isə onların izləri ilə yolu davam edirdilər.

Bəzi hallarda biz də gücümüzü toplayıb irəli keçir,

yol açırdıq. İrəlidə gedən həm də istiqamətimizin düzgün olduğunu GPS cihazı ilə mütəmadi olaraq yoxlamalı idi. Qəribəsi odur ki, nədənsə (ola bilər maqnit qütbünün yaxınlığına, ağır buludlu hava şəraitinə görə) GPS-lərimiz bəzən fərqli istiqamətlər göstərirdi və qısa müzakirədən sonra daha təkidli olan cənubi afrikalıların təklifini qəbul edərək, hərəkətimizi üstünlük verdikləri istiqamətə yönəldirdik və bəzən sonradan məlum olurdu ki, bu səhv imiş. Lakin, bütün hallarda hamımız bunu çox sakit qarşılayırdıq.

Bacardığımız qədər sürətlə getməyə çalışırdıq. Artıq bilirdik ki, 3, 4, 5 dəqiqədən çox dayanmaq mümkün deyil. Yürüş çox yorucu olduğundan insanın nəinki fiziki, həm də mənəvi-psixoloji imkanları da səfərbər olunmalı idi. Özümü həvəsləndirmək üçün işin yarısının artıq görüldüyünü, Vinson zirvəsinin arxada qaldığını, bizi qarşıda Cənub Qütbünə çatmaq və Vətənə dönmə məqamlarının gözlədiyini düşünməyə çalışdım. Amma, bu fikirlər çox uzaq, mücərrəd göründüyündən, nədənsə heç qəlbimi qızdırmadı və daha həvəslə hərəkət etməyimə kömək olmadı. Onda bir neçə gündən sonra yürüşün başa çatacağını, Punta-Arenasa qayıdacağımızı və artıq bizi bezdirmiş bu süni yeməklərdən yaxamızın qurtaracağını fikirləşdim və içimdən, ürəyimin, beynimin dərinliyindən gələn hansısa bir hiss bu fikirlərin də çox bəsit olduğunu, vəziyyətimə heç də uyğun olmadığını, elə bil ki, duydururdu.

Bunları fikirləşərkən, elə bil ki, başqa bir həyat, hətta deyərdim başqasının həyatı haqqında düşünürdüm. Onda, bu əziyyətli yolun bir neçə gündən sonra başa çataraq bizi qütbə gətirəcəyini düşünmək istədim. “Çox qalma-

yıb, sən bunu etməlisən və qütbdə qələbə dəqiqələrini yaşamalısan!" deyə, özümü ruhlandırmağa çalışdım. Onda da, elə indi də, bu fikirlərin ülviliyinə şübhəm olmayıb və yoxdur. Amma o anlarda sanki, buna da bədənimin, beynimin içindən kimsə "Sən nə hayda, mən nə hayda" fikrinə bənzər bir hisslə cavab verirdi. Və nəhayət fikirləşəndə ki, artıq 20 dəqiqədir biz hərəkətdəyik və 35 dəqiqədən sonra dayanacağıq, bir neçə dəqiqə kirşənin üstündə otura biləcəyəm, su içəcəyəm, yorğunluğum keçəcək, onda içimdən elə bil ki, bir enerji dalğası gəldi. Durmadan, aramla, qaçırammış kimi aldığım nəfəs ritmə düşdü, qollarım, qıçlarım, bütün bədənim elə bil bu arzu ilə yaşayırmış kimi əlavə qüvvə aldı.

Hərəkət etmək getdikcə daha da çətinləşirdi. Marşrutumuz Antarktida təcrübəsi olanların "zastruqa"* adlandırdığı - küləyin, qarın və şaxtanın əmələ gətirdiyi, ucları bıçaq kimi iti, bütövlükdə polad kimi möhkəm qar dalğalarının (bəzən hündürlüyü 2-3 metrə çatır) üzəri ilə keçirdi. Qarşımıza ara-sıra 40-50 sm-lik belə "zastruqa"lar çıxırdı.

## 4.5. Həyəcanlı saatlar. Ekspedisiyanın nəticəsi sual altındadır

Xizəyimin altına yapışdırılmış sintetik lentlər demək olar ki, tamamilə qopmuş, ucundan 5-10 sm məsafədə yapışmış hissəsindən sallanaraq, üstünə "qaynar su tökülmüş ilanlar" kimi atılıb düşürdülər. Belə "zastruqa"lardan keç-

* qar şırımı

mək istəyərkən isə xizəklər gah sola, gah sağa, gah da geriyə sürüşərək məni tamamilə taqətdən salırdılar. Nəhayət saat 5-ə kimi cəmi 11 km yol keçdikdən sonra artıq hərəkət edə bilmirdim. Bilmirəm xoşbəxtlikdənmi (bu söz burada mənə yersiz görünür) ekspedisiyanın o biri üzvləri də çox yorulmuşdular və həm də məlum olmuşdu ki, bu dəfə marşrutdan daha ciddi şəkildə kənarlaşmışıq. Təlaşlı vəziyyət yaranmasın deyə hərəkəti dayandıraraq (halbuki normal halda daha 2-3 saat hərəkət edə bilərdik) düşərgə salmağı qərarlaşdırdıq. Bütün ekspedisiyanın işinin pozulması təhlükəsi real idi. Tutaq ki, marşrutu dəqiqləşdirdik, xizəksiz mən nə edəcəkdim ki?

Ümumiyyətlə, bu xizəklərimin bəxti qara idi. Onları almaq üçün (ölkəmizdə belə şeylər satılmır, çünki bu idman növlərinin ənənələri belə yoxdur) ekspedisiyaya özümlə apardığım şəxsi hələ bir neçə ay əvvəl, hazırlıq mərhələsində Moskvaya göndərmişdim. Bütün ekspedisiya üçün xizəklər və altına yapışdırılan lentləri, ümumiyyətlə bütün avadanlıqları alıb gətirməsini tapşırmışdım. Qərb universiteti bu işlərə yetərincə vəsait ayırdı. O, hansı səbəbdənsə, əsasən Rusiya istehsalı olan geyim və avadanlığa üstünlük vermişdi. Hələ bu azmış kimi, onun özü üçün aldığı geyim və ləvazimatlar mənim üçün aldığı geyim və ləvazimatlardan fərqlənirdi. Bəzən hətta istehsalçıları da fərqli idi.

O, bunu belə izah etmişdi ki, özü üçün ölçüsü düz gələnləri tapa bilib, mənim ölçülərimə uyğun gələnləri isə tapa bilməyib. Artıq hazırlıq mərhələsində xizəklərin altına lentləri yapışdıraraq onları sınamaq üçün hazırlıq vəziyyətinə gətirmək də ona tapşırılmışdı. Sınaq yürüşü zamanı xizəklərimizin alt lentlərini başdansovdu yapış-

dırıldığını, bir-birinə tikilmiş iki hissədən ibarət və büzüklərlə dolu olduğunu gördüm. Lenti möhkəm saxlamaq üçün xüsüsi metal bərkidicilər də yerində deyildi. Elə onda hiss etmişdim ki, xizəklərin bu halda olması mənə problem yaradacaq. Lakin içimdə yaranmış bu xoşagəlməz hissləri və şübhələri boğmağa çalışdım. Nədənsə düşünürdüm ki, yoldaşlığa münasibətdə məndə olan kortəbii inamı belə şeylərlə sarsıtmaq olmaz. Bəlkə yanılırdım? Hadisələr bunu göstərəcəkdi...

Cənubi afrikalıların lideri Şon Disni mənə bildirdi ki, onun xeyli ehtiyat hissələri var və çadırı quraşdırdıqdan sonra mənə köməyə gələcək. Lakin, mən onu gözləmədim. Xizəklərimi çadırın içinə salaraq, əslində yapışqanlı olan, lakin donmuş vəziyyətdə bu keyfiyyətini itirmiş lentləri primusda qızdıraraq, donunun açılmasına və qurumasına çalışdım.

Bakıdan yüzlərlə başqa xırda, lakin uzaq və sərt şəraitlərdə keçən yürüşlər üçün həyati vacib olan əşyalarla bərabər, çox soyuq havada özünü daha səmərəli göstərmiş bir neçə qab yapışqan da gətirmişdim. Yol boyu payladığım bu yapışqanlardan biri unudulub cibimdə qalmışdı. Bir müddətdən sonra artıq qurumuş lentlərin özlərinin də yapışma qabiliyyəti bərpa olunmuşdu. Onları səliqə ilə xizəklərin altına yenidən yapışdıraraq lentin son 5-10 sm-nə məndə olan bu kiçik qabdakı yapışqandan sürtərək ehmalca xizəyin üstünə qatlayaraq yapışdırdım. Əslində hər şey bu hissədən asılı idi. Əgər bura qopmazsa bütün lent də qopmaz.

Çadırdakı soyuq havada yapışqanın yaxşı qurumasını və tərkibindəki rütubətin təsiri altında donmasının qarşısını almaq üçün özümüzlə gətirdiyimiz və bizim üçün həya-

ti qiymətli olan kimyəvi əl qızdırıcılarından (bunlar kiçik paketlərdə olur, paketi cırıb içindəki hissəcikləri çıxardırsan, oksigenin təsiri altında içərisindəki maddə oksidləşir və bu reaksiyanın təsiri altında hissəcik qızmağa başlayır. 6-7 saat isti qalır. Onları əlcəyin içərisinə qoyursan və bu müddətdə əllərə çətinliklə çatan bədənin istiliyinə əlavə olaraq istilik qazanırsan) iki ədədini lentlərin əlavə yapışqanladığım hissəsinə qoydum. Darısqallığa baxmayaraq bu gecə xizəklərim çadırımızın əziz "qonağı" oldu.

## 4.6. Üçüncü gün

Qütbə doğru yürüşün üçüncü günü başlandı. Hələ yürüşə hazırlaşarkən Antarktida mövzusunda yazılan ədəbiyyatlardan, internet mənbələrindən bilirdik ki, bu qitə şaxtalı olmaqla bərabər, həm də elə şaxtanın nəticəsində çox quru bir ərazidir. Havada rütubət olmur. Əslində bu elə fizika qanunlarına da uyğundur. İfrat mənfi temperaturlarda havadakı rütubət kristallaşaraq bir növ donmuş şeh şəklində yerə oturur. Ümumiyyətlə məlumdur ki, hava soyuq olduqca rütubəti özündə həll etmək qabiliyyətini itirir və nisbətən sərin, lakin müsbət temperaturlarda havadakı rütubət özünü duman şəklində göstərir, tədricən ətrafdakı bitkilərin və yerin üzərində kondensasiya olunaraq su şəklinə keçir.

Səhər biz yürüşə başladıqda hava tutqun idi. Lakin, bir müddətdən sonra tədricən elə bil ki dumanın içinə girdik. Getdikcə duman qatılaşdı və demək olar ki göz-gözü görmürdü. 3500 m yüksəklikdə olmağımızı nəzərə alsaq (burada buzun qalınlığı 3000 m-dən çoxdur), ola bilərdi ki, biz elə buludun içərisinə girmişdik. Hər halda hərəkət etdikcə gödəkcələrimizin, papaqlarımızın üst tərəfi və

üzümüz xırda buz və qar kristalları ilə örtülməyə başlamışdı. Lakin, bu bizdə o qədər də narahatçılıq yaratmırdı.

Əsas təhlükə başqa tərəfdən gəldi. Azərbaycan ekspedisiyasının ikinci üzvü və cənubi afrikalıların dəstəsindən olan bir nəfər (bu, aramızda ən yaşlı olan Donald adlı bir dağ mühəndisi idi) mütəmadi olaraq geri qalırdılar. Hava açıq olan zaman aramızdakı məsafə o qədər böyüyürdü ki, onlar uzaqda iki nöqtəyə çevrilirdilər. Bununla bağlı öz ekspedisiyamızın üzvünə hətta müraciət etməli də oldum ki, çalışıb geri qalmasın. Görünür cənubi afrikalıların yüksək tempinə dözə bilmirdi. Düzdür, özünün geri qalmasını mənə başqa cür izah edərək, "Sürətlə gedəndə tərləyirəm. Bu isə bədən istisinin daha çox itməsinə səbəb olur", demişdi. Hər halda açıq havada izlərimizlə də olsa, qısa tənəffüslər zamanı bütün dəstə hərəkəti dayandırdığı müddətdən istifadə edərək gəlib bizə çatırdılar. Lakin bu dumanlı hava şəraitində qəflətən baxıb gördük ki, Donald yoxa çıxıb. Bizim ekspedisiyamızın ikinci üzvü isə arxada, dumanda zorla görünürdü. Məhz bu hadisə zamanı mənim gözləmək təklifimi cənubi afrikalılar rədd etmişdilər, lakin adət etdiyimiz sürətdən daha yavaş hərəkətimizin hesabına Donalda da bizə çatmaq şansı verilmişdi. Qeyd etmək lazımdır ki, günəşsiz havada, xüsusən də duman zamanı yerdəki izlərimiz demək olar ki, görünməz olurdu və bu da geri qalan şəxs üçün dəstəyə çatmaq mücadiləsində əlavə çətinlik yaradırdı. Nəhayət, xeyli müddət keçdikdən sonra, dumanın azaldığı bir yerə çıxdığımız zaman uzaqdan Donaldın silueti görünməyə başladı. Hərəkətlərindən hiss olunurdu ki, təlaş içindədir.

Hər halda meteoroloji cəhətdən bizim, qeyri-mütəxəssislərin izah edə bilmədiyi bir şəraitin şahidi olmuşduq

və təbiidir ki, bunu gündəliyimizdə qeydə almışdıq. Bu gün, bütün bu sərgüzəştlərə baxmayaraq, dumandan çıxdıqdan sonra sürəti xeyli artıraraq, gün ərzində bu tempi saxlaya bilmişdik. Günün sonunda GPS-lə öz mövqeyimizi yoxladıqda 16,2 km yol keçdiyimizi gördük. Bu əhvalımızın xeyli yaxşılaşmasına səbəb oldu. Saat 7-30-da düşərgə salmaq qərarı verildi. Artıq bilirdik ki, çadırı qurmağa 3-4 dəqiqə vaxtımız var və yubanmadan çox işgüzarcasına bunu etdik. İlk dəfə idi ki, bir gündə belə böyük məsafə qət etmişdik. Bunu necə isə qeyd etməliydik. Xeyli qar əridəndən sonra adama bir parç çay hazırlayaraq quru əriklə bu uğurumuzu bayram etdik.

Bu məqamda fikir verdim ki,  mənfi 32°-42° şaxtanın hökm sürdüyü bir şəraitdə, hətta plastmas əşyaları belə çadırın döşəməsinə qoyan kimi ora yapışırdı.

## 4.7. Antarktida yuxuları, kiçik kəşflər və Antarktida təbabəti

Gün ərzində o qədər enerji itirirdik ki, yataq kisəsinə girib özümüzə bir rahat mövqe tapmamış yuxuya gedirdik. Mən hətta yuxular belə görməyə başlamışdım. Həyatda çoxdan unutduğum insanlar yuxuma girirdi. Bu yuxularda uşaqlıq illərimi görürdüm. Nə qədər yorğun olsam da 7-8 saatdan sonra oyanırdım (düzdür bəzi günlər yuxular özü qırıq-qırıq olurdu və hər yarım saatdan bir, bir saatdan bir oyanaraq, yataq kisəsindən boylanıb harada olduğumu başa düşməyə çalışırdım).

Ekspedisiya dövründə artıq adət etmişdim ki, ya axşam yataq kisəsinə girərkən, ya da səhər tezdən oyanan zaman elə yataq kisəsinin iç cibində saxladığım (batareyaları

“ölməsin” deyə ən isti yer bura idi) diktofona günün hadisələrini, öz təəssüratlarımı diktə edim. Maraqlı haldır ki, artıq Vətənə döndükdən sonra bu 5 saatlıq audioyazıları dinlədikdə müxtəlif hadisələrin təsviri ilə bərabər, təəssüratlar, eyni hisslər barədə oxşar mətnlərə rast gəlirdim. Hər növbəti gün bir gün əvvəl dediklərimi tamamilə unudaraq, demək olar ki, çox oxşar fikirlər səsləndirmiş olurdum. Əslində bu da Antarktidada yaşadığımız hər gündə bütün diqqətimizi, bütün varlığımızı qoyduğumuz məqsədə çatmaq, bu yolda səhv etməmək, sağ qalmaq üçün tam səfərbər olmanın nəticələrindən biri idi.

Diktofon yazılarını sonradan dinlədikdə Cənub Qütbünə yürüşün üçüncü gecəsinin nə qədər ağır keçdiyini qeyd etdiyimi eşitdim və buna çox təəccübləndim. İndi artıq heç yadıma da düşmür ki, həmin gecə demək olar ki, yata bilməmişdik. Bütün gecəni nəm çəkmiş və bunun üçün də istiliyi yaxşı saxlamayan yataq kisəsində soyuqla yuxu arasında keçirtmişdik. Əlavə isti paltarları əynimizə geyərək qızınmaq cəhdimiz də əks nəticə vermişdi. Onda kəşf etdik ki, yataq kisəsi bədənin istisi ilə qızdığı üçün əynində isti paltarla kisəyə girəndə, paltar istinin bədəndən uzaqlaşmasına yol vermir, kisə qızmır və soyuqla rütubətin sərhədi kisənin çölü ilə yox, içərisi ilə keçir. Bu soyuqla mübarizədə ən çox əziyyət çəkən kürəyimin sol tərəfi oldu. Elə bil ki, kürəyimin altında bir daş əmələ gəlmişdi və yaranmış ağrı sinəmə və qollarıma yayılırdı. Amma növbəti gün hərəkətə başlayarkən yarım saat əziyyətli hərəkətdən sonra qan dövranı öz işini gördü.

Ümumiyyətlə, qeyd etməliyəm ki, hər gün 7-8 saatlıq intensiv hərəkət onunla nəticələnir ki, orqanizm soyuq

və onunla bağlı xəstəliklərin öhdəsindən gələ bilir. Düzdür, bu məsələdə bizə özümüzlə apardığımız dərmanlar da kömək edirdi. O qədər dərman götürmüşdük ki, yükümüzü azaltmaq üçün onların bir qismini Punta-Arenasda, bir qismini isə Patriot-Hillsdə saxlamalı olduq. Burada ümumi təyinatlı başağrısı, mədə üçün, qızdırmaya qarşı dərmanlardan başqa, həm də müxtəlif - günəş yandırmasına, donvurmaya qarşı, yaraları tez sağaltmaq təyinatı olan kremlər və məlhəmlərlə bərabər, soyuq və xüsusən yüksək ərazilərdə ağır fiziki təzyiqlərə məruz qalarkən, ürəyin, qaraciyərin, böyrəklərin yaxşı işləməsinə, beynin lazımi miqdarda oksigen alaraq müxtəlif dönməz proseslərdən yayınmasına, mürəkkəb vəziyyətlərdə zehnin itiliyini saxlayaraq tez qərar qəbul etmək qabiliyyətinə kömək edən xüsusi dərmanlar da var idi.

Yeri gəlmişkən, elə bu kürək ağrılarının da (onlar xüsusən hərəkət edərkən bir neçə tənəffüsdən sonra gödəkcənin içərisinə dolmuş buzun və qarın təsiri altında daha çox hiss olunurdu) təkcə hərəkətlə yox, həm də belə məlhəmlərlə qarşısını ala bilmişdim. Əllərimizin mütəmadi olaraq soyuğun təsirinin altında olması təkcə onların ağrıması ilə nəticələnməmişdi.

Hələ Antarktida səfərinin üçüncü-dördüncü günü barmaqlarımın uclarında kiçik çatlar əmələ gəlmişdi. Cənub Qütbünə hərəkətimiz zamanı, belə mürəkkəb şəraitdə bu kiçik çatlar dırnaqların kənarları ilə iki tərəfdən biri-biri ilə birləşməyə doğru gedən, uzunluğu 1 sm-dən çox olan, bir neçə millimetrdən dərin, daim qan sızan və ağrı verən yaralara çevrilmişdilər. Dəfələrlə, təkrar-təkrar şaxtanın təsiri altına düşdüyümüz üçün heç dərmanlar da kömək etmirdi.

## 4.8. Dördüncü gün

Qütbə doğru hərəkətimizin dördüncü günü temperatur mənfi 40°-dən yuxarı qalxmadı. Onu da qeyd etməliyəm ki, temperatur mənfi 32°-yə düşdüyü zaman getdikcə soyuq olduğunu necə deyərlər hisslərinin köməyi ilə başa düşürsən. Aydın hiss edə bilirsən ki, temperatur misal üçün mənfi 26°-dən 28°-yə endi. Üzün, əllərin, başın (iki papağın olmasına baxmayaraq) bu soyumanı həmin an hiss edir. Mənfi 32°-dən sonrakı temperatur enməsini isə artıq hisslərlə qeydə almaq mümkün deyil. Mənfi 32° və ya 34° və ya 38° və yaxud 40° temperaturlarda bütün bu dəyişiklikləri subyektiv olaraq eyni cür qəbul edirsən. Sadəcə olaraq şüurunla başa düşürsən ki, əgər burnunun ucunda əmələ gələn su damcısı həmin an donursa və yaxud termosdan təsadüfən damcılayan su yerə buz parçası şəklində düşürsə, deməli temperatur artıq mənfi 38°-42°-dir.

Dördüncü gün də yaxşı hərəkət edə bildik. Hətta yol boyu günəş bizi arxadan və bir az da soldan həvəsləndirirdi (heyf ki, kürəyimizi heç olmasa bir az da olsa qızdırmırdı). Düzdür, bunun əvəzini mütəmadi olaraq daim eyni istiqamətdə əsən külək yaxşıca çıxırdı. Ümumiyyətlə, Cənub Qütbündən bütün istiqamətlərdə yarıspiral şəklində şimala doğru buzlu, şaxtalı küləklər əsir. Bizim də hərəkət etdiyimiz on gün yarım ərzində hər gün sol tərəfdən üzümüzə külək vururdu. Onun sabitliyinə o qədər əmin olmuşduq ki, hətta azaraq istiqaməti itirdiyimiz vaxt GPS, kompas, günəşlə bərabər bu küləyin əsdiyi istiqaməti də nəzərə alaraq, düzgün marşrutumuzu bərpa edirdik. Bir sözlə bu gün də 16,2 km keçə bildik. Bu təsadüfü deyildi

ki, iki gün dalbadal metrinə qədər eyni məsafə keçirdik. Sadəcə olaraq saat 7 radələrində çox yorğun halda 15,5 km keçdiyimizi qeydə aldıq və kiçik müşavirədən sonra qərara gəldik ki, 700 m-ni keçməyə də özümüzü məcbur edək və dünən nail olduğumuz tempi azaltmayaq.

Özümü birtəhər hərəkətə ruhlandırmaq üçün mən hətta xizəkli addımlarımı saymağa başladım. Hərəkət edərkən bütün fikrim-zikrim bu sayda idi. Elə bil ki, bədənimin bütün yorulmuş, elə yıxılıb buradaca qalmaq istəyən hüceyrələrinə deyilmişdi ki, 700 metrəni də gedin, mükafatınız çadırda isti şorba olacaq və onlar hamısı birlikdə əzmlə bu metrləri sayırdılar. Mənim apardığım hesab 900 rəqəminə çatdıqda, qabaqda gedən cənubi afrikalı Voqanı səslədim: “Ay yoldaş, artıq 900 metr oldu, bəlkə durasan?”. Cavabında bərkdən səslənən şən bir gülüş eşitdim və əlavə 50-60 addım keçdikdən sonra o dayanaraq, “Sən deyən olsun”, dedi.

Yenə də çadır qurmaq (çox tələsik. Bu halda ayaqlar yox, əllər işləsə də nədənsə “qaça-qaça” sözünü işlətmək istəyirəm). Bu dəfə bütün qırmaqları vaxtında yerinə keçirə bilmədim. Barmaqlarım artıq idarəolunmaz vəziyyətə düşmüşdü. Dözülməz ağrı hiss edirdim. Yanımdakı yoldaşa dedim, “Bir az çevik olaq, mənim əllərim artıq donur”. Barmaqlarımı əlcəyin barmaqlıqlarından çıxardaraq elə əlcəyin içində kimyəvi qızdırıcını əlimdə sıxıb bu ağrını kəsməyə çalışdım. Lakin kömək etmədi. Nəhayət sonuncu qırmaq da ilməyinə keçirilmişdi. Çadırı teleskopik çubuqlarla bərkitməyi ekspedisiya yoldaşımın öhdəsinə buraxaraq, çadırın içinə girdim. İçərisi qarla dolu idi. Elə bu donmuş əllərimlə qarı bir yerə toplayaraq ovuc-ovuc çölə atmağa başladım və çöldəki döşəkçələrimizi, əşyalarımızı

qəbul edərək yerbəyer etdim. Ardımca soyuqdan bozarmış yol-yoldaşım da çadıra girdi. Dizi üstə oturaraq, primusu yandırdıq və böyük çaydanımızdakı qarın əriyib suya dönərək qaynamağa başladığı məqama qədər sözün bütün mənalarında hərəkətsiz donub gözləməkdə olduq.

Demək olar ki, heç beynimiz də işləmirdi. Belə hallar üçün İsveçrədə ezamiyyətdə olarkən aldığım yüksək enerji potensialı olan və qəbul etdikdən 3-5 dəqiqə sonra təsir etməyə başlayan xüsusi pasta halında, quru və maye şəklində olan kofeinləşdirilmiş qida paketlərini də özümüzlə gətirmişdim. Quru toz şəklində olan bir paket belə qidanı qaynar suya tökdükdən sonra, ilk qurtumları dodaqlarımızı yandıra-yandıra, sonra isə sürətlə soyumağa başlayan bu içəcəkdən hərəyə bir parç qəbul etdik. Bu bizi növbəti dəfə "diriltdi". Ümumiyyətlə qeyd etməliyəm ki, bu xüsusi yüksək enerjili qida paketləri bizim çox köməyimizə çatırdı. Hər gün yola çıxarkən hərəyə bir paket gödəkcəmizin üst cibinə qoyurduq. Dördüncü, beşinci və bəzən də altıncı fasilələr zamanı 5-7 saat hərəkət etdikdən sonra tamam taqətdən düşdükdə, çəkisi 50-100 qr olan bu qidanı qəbul edirdik. Elə bil ki, içərimizdə turbomühərrik işə düşürdü, qarşıda qalan 3-4 km-lik yolu qət etmək mümkün olurdu.

## 4.9. Antarktidasayağı düşüncələr

Növbəti gün xoş bir hisslə oyandım. Çadırın yataq kisəsinə toxunan divarı adətən qar əritmə, paltar qurutma və nəfəs alma prosesləri nəticəsində əmələ gələn rütubətdən, buxardan qar kondensatı ilə örtülürdü. Bu səhər isə bu divarı tamamilə quru, yumşaq, işıq saçan və buna isti demək olmasa da, mülayim bir hava dalğası gətirən gördüm.

Yavaş-yavaş isti paltarların hamısını geyərək, çadır kisəsinin içərisində saxladığım "Baffin" çəkmələrinin içlərini ayağıma taxaraq, ayağımın altına qoyduğum çəkmələrin üst hissələrini də geyinməyə başladım. Bu hər gün bir əziyyətə çevrilirdi.

Nə isə. Çölə çıxdım və havanın çox şaxtalı olmasına baxmayaraq ilk dəfə Antarktida platosunda səmanın xeyli hissəsini buludlardan təmiz, günəşi isə var gücü ilə gözlərimizi qamaşdıran gördüm. İlk dəfə idi ki, burada belə aydın, şəffaf hava ilə rastlaşırdım.

Antarktida platosunun bir xüsusiyyəti də var. Burada məsafələr insanı aldada bilir. Çox uzaqları görə bilirsən, amma uzaqda nəyi isə görmüsənsə, ona tez çata biləcəyini düşünmə. Ola bilsin ki, hansısa bir nişanəni tamamilə ağ sonsuzluqda seçə bilirsən və əslində onun nə olduğunu isə iki gün yol getdikdən sonra görəcəksən. Belə şəffaf havada Antarktidanın möhtəşəmliyi elə bu usandırıcı və ancaq "zastruqa"ların bu ahəngi pozduğu sonsuzluğundadır.

Bu gün qəribə bir məqamla da rastlaşdıq. Qəflətən qarşımıza xizək izi çıxdı. Əslində bilirdik ki, min kilometrlərlə ətrafımızda canlı deyilən bir şey yoxdur. Heç bir şəhər, yol, avtomobil, gəmi, ağac, hansısa bir heyvan, hətta mikrob belə yoxdur. Heç qaranlıq gecə də yoxdur. Bu fikrə artıq öyrəşməyə başlamışdıq və buna görə də, bu xizək izi bizdə gözləmədiyimiz emosiyalar yaratdı. Elə bil ki, fəzada bəşəriyyətin tək olmadığını, bizdən də başqa canlıların olduğunu kəşf etmişdik. Düzdür, bu izlə çox gedə bilmədik. O da bizi növbəti dəfə yolumuzdan azdırdı. Marşrutdan belə kənara çıxarkən və GPS-lərimiz bizə dürüst məlumatı göstərə bilmədikdə, narahatlıq hissi yaranırdı, lakin bu qorxu deyildi.

Düzü mən ilk dəfə tam aydınlıqla başa düşdüm ki, qor-

xu hissi təbiətin və təkamülün insanı tələb olunan davranışdan yayındırmamaq üçün nəzərdə tutduğu bir mexanizmdir. Oddan qorxmalısan ki, yanmayasan! Bu qorxu səni müvafiq tədbir görməyə məcbur edir. Hətta qorxmazlıq özü qorxudan doğur. Qorxmalısan ki, səni qorxudan faktora qarşı tədbirlər görüb, güvənliklə onun üstünə gedəsən və onu dəf edə biləsən. Bizim müdrik bir atalar misalında təsadüfən deyilməyib ki, ehtiyat igidin yaraşığıdır.

Antarktidada bu mexanizm elə bil ki, söndürülür. Düşünürəm ki, biz insanın yaşaması üçün, varlığı üçün təbiətdə nəzərdə tutulmuş mexanizmlərin çoxusunu hələ heç bilmirik də, onlar hələ özlərini göstərməyiblər. Öz şüurumuza çox güvənirik. Amma bir çox hallarda yaddaşımızdan daha qədim və şüurumuza tabe olmayan, lakin şüuraltı arxitiplərlə idarə olunan mexanizmlər mövcuddur. Əminəm ki, onlar da təbiətin tabe olduğu məntiqə söykənirlər.

Antarktida şəraitində insan təkcə şüurla idarə olunmur. Hətta instinktlərdən daha dərin reaktiv davranış növləri işə düşür. Burada qorxu səni heç nəyə səfərbər edə bilməz. Əksinə, ani qərarların qəbul edilməsinə maneçilik törədir. Tutaq ki, temperatur mənfi 5°-dən aşağı enərsə, qorxudan nə edəcəksən ki? Haraya qaçıb gizlənəcəksən ki? Yaxud yoruları hərəkət qabiliyyətini itirmisənsə qorxuya, vahiməyə düşüb nəyə nail olacaqsan? Dayanacaqsan, 3-4 dəqiqədən sonra donacaqsan. Ona görə də, qıçlarımızın yorğunluq dərəcəsini hərəkət etdiyimiz zaman yox, artıq çadır quraraq, təhlükəsiz şərait yaratdıqdan sonra hiss edirdik.

Ona görə də, növbəti dəfə yolu itirdiyimiz aydın olanda, yenə də iki variantımız olduğunu anlayaraq və heç birinin daha düzgün olduğuna əmin olmadan bir istiqamət seçərək soyuqqanlıqla sakitcə yolumuzu davam etdik.

## 4.10. Əllərimiz və əlcəklərimiz

Hərəmizin beş-altı cüt əlcəyimiz vardı. Düzdür, eyni zamanda onlardan ancaq üçünü geyə bilirdik (bu barədə artıq yazmışıq). Xüsusi maraq doğuran iki cüt çox yekə, içinə qaz tükü doldurulmuş barmaqsız (daha doğrusu bir baş barmaq və bütün əl üçün yeri olan) əlcəklər idi. Onlardan bir cütünü özümüzlə gətirmişdik. Bütün qalan xüsusi əşyalarla birlikdə əlcəkləri də ekspedisiyaya özümlə apardığım şəxsi hələ hazırlıq mərhələsində müvafiq vəsaitlə təmin edərək, Moskvaya göndərərək oradan aldırmışdım.

Deməzdim ki, bunlar o qədər də etibarlı əlcəklər idi, amma dəqiqliklə deyə bilərəm ki, bu əlcəkləri geyəndən sonra heç bir iş görə bilmirdik. Buna bənzər və eyni zamanda fərqli, iri, içi sintetik türklə doldurulmuş daha bir cüt əlcəkləri bizə ALE-dən vermişdilər. Bu əlcəyin ümumiyyətlə barmaqlığı yox idi. Başqa bir xüsusiyyəti ondan ibarət idi ki, onun ələ keçirmə yeri ilə bərabər, teleskopik xizək çubuqlarının tutacaqlarını da əlcəyin içinə salaraq tutmaq üçün yeri vardı. Nəticədə bu çubuqların tutacaqları öldürücü şaxtanın təsiri altında buza dönmürdü və hər dəfə dayanacaqda çubuqları yerə qoyduqdan və təkrar əlimizə götürdükdən sonra qiymətli enerjini sərf edərək onları yenidən qızdırmağa ehtiyac olmurdu.

Bir az daha enerjili olsun deyə, axşamdan hazırladığımız və termoslara doldurduğumuz suya ALE tərəfindən bizə verilən və özümüzlə apardığımız paketlərdə toz şəklində olan çox şirin bir preparat da əlavə etmişdik. Düşünürdük ki, həm də dadlı olacaq. Bunu ona görə etmişdik ki, qısa dayanacaqlar zamanı əlcəkləri çıxardaraq kirşələrimizdəki çan-

talardan və yaxud gödəkcələrimizin çətinliklə açılan, bəzən isə ümumiyyətlə açılmayan ciblərindən quru ətdən, şokoladdan bir tikə qopardaraq, bu qayda ilə öz enerji balansımızı qorumaq üçün tez-tez məğlub çıxdığımız mücadiləyə girişməyək. Elə birdəfəlik həm maye, həm enerji baxımdan yetərli olan bu şirin suyumuzu içək, vəssalam!

Artıq ikinci dayanacaqdan sonra nə qədər böyük səhv etdiyimizi anladım. Suyun şirin olması susuzluq hissini kəskin surətdə artırdı və elə bir enerji də almamışdım. Düzdür, vaxta qənaət edə bilmişdim. Vaxtım daha qısa dayanacaqlarda tələm-tələsik ciblərimi açmaq üçün etdiyim cəhdlərə sərf olunmurdu. Lakin əvəzində bu dayanacaqlar zamanı kirşəmin üstündə oturub dona-dona başqalarının həvəslə nə isə çeynədiklərinə baxmalı olurdum. Əgər qıçlarımın yorğunluq ağrısı olmasaydı, bəlkə də fasilə etmədən yavaş-yavaş yoluma davam (sonradan başqalarının tempinə uyğunlaşmaq məcburiyyətində qalmamaq üçün) edərdim.

## 4.11. Yüngülləşən qida çantaları, "rəhmətə gedən" MP3 və meteorologiya

Növbəti axşam düşərgə qurduqdan sonra gözə çarpacaq qədər kiçilmiş yemək çantalarına məmnuniyyətlə baxdıq. Qarşıdakı günlərin bizə nə gətirəcəyini hələlik bilmirdik. Ona görə də bu çantanın getdikcə kiçilməsi daşıdığımız yükün azalması demək olduğu üçün sevinirdik. Düzdür bu yük az-çox rahat hazırlana bilən və ürəyimizə yatan yeməklərin hesabına azalırdı və indi fikir verdik ki, yükümüzün nə qədər böyük hissəsini bir-birinə yapışaraq daşa dönmüş, kərpic boyda buz parçalarına çevrilmiş sarı pendir təşkil edir. Hələ bilmirdik ki, ekspedisiyanın son bir neçə günü yeməyə

bir şey qalmayacağı üçün əlimizdə bıçaq bu kərpiclərlə vuruşacağıq ki, onlardan bir-iki tikə buzlu pendir qoparıb qazanımızda qızdıraq və sonra da özümüzü onunla isindirək.

Hələ ekspedisiyaya hazırlaşarkən qızımdan xahiş etmişdim ki, mənə indi gənclər arasında çox populyar olan, lakin  iş prinsipindən mənim başım çıxmayan bir MP3 alsın və bu qurğu maksimum dərəcədə sadə olsun, batareya ilə işləsin və ona nisbətən melodik, məlahətli musiqilərdən yazsın. Düşünürdüm ki, Antarktidada yol gedə-gedə bu musiqi səsləndirən qurğunun qulaqcıqlarını qulağıma taxacam, yaxşı musiqi dinləyə-dinləyə, daha həvəslə hərəkət edə biləcəm. Doğrusunu deyim, yol gedərkən bu qurğu bir dəfə də olsun mənim yadıma düşmədi. Batareyaları tez "ölməsin" deyə, bu qurğunu da yataq kisəsinin içindəki cibdə saxlayırdım. Hər dəfə yataq kisəsinə girərkən qoluma ilişirdi və onun varlığı yadıma düşürdü. Məhz bu anlarda qulaqcıqlardan istifadə edərək bir-iki melodiyaya qulaq asıb, onu yenidən yerinə qoyaraq yuxuya gedirdim. Bu axşam məlum oldu ki, bu qurğu da "rəhmətə getdi". Bu sərt şəraitdə bacardığı qədər xidmət etdi və hesab edirəm ki, nəm yataq kisəsinin buzlu nəfəsi ilə ağır və şanssız mübarizədə səsini "qəhrəmancasına" kəsdi.

Yürüş zamanı meteoroloji müşahidələrin aparılmasındakı çətinliklər təkcə sərt hava şəraiti ilə bağlı deyildi. Əsas çətinlik psixoloji xarakter daşıyırdı. Səmimi etiraf edim ki, Cənub Qütbünə doğru hərəkətdə olduğumuz bu günlərdə meteoroloji göstəricilərin qeydiyyatını müəyyən edilmiş qaydaya uyğun, gündə 6 dəfə olmaqla 3 saatdan bir apara bilmirdik. Hərəkətdə olduğumuz müddətdə bunu etmək ümumiyyətlə mümkün deyildi. Yeganə apara bildiyimiz ölçülər, boynumdan as-

dığım kiçik elektron (təəccüblüdür ki, heç bir problemsiz son günə qədər işlədi) cihaz vasitəsilə küləyin sürəti və havanın temperaturu idi. Buludluluğu isə vizual müşahidə edirdik. Təbiidir ki, bu məlumatları da gündəliyə yaza bilmirdik, yadda saxlamalıydıq və axşam gündəliyə köçürtməliydik.

Axşamlar və səhər tezdən az-çox isti yeməklə isindikdən sonra, yenidən çadırdan çölə çıxaraq bütün cihazlarla müvafiq ölçüləri aparmaq ekspedisiyanın ikinci üzvünün vəzifəsi idi. Görürdüm ki, bu işi görmək üçün o nəinki şaxta ilə fiziki mübarizə aparmalı olurdu, həm də psixoloji cəhətdən özünü bu işi görməyə məcbur edirdi. Çox sağ olsun ki, bunu edə bilirdi!

## 4.12. Altıncı gün və ya Şonun sınmış xizəyinin yaratdığı risk

Altıncı gün cənubi afrikalıların rəhbəri Şonun xizəyi sındı. Daha böyük fasilə etməli olduq. Düzdür, heç ağlımıza belə gətirmirdik ki, ekspedisiya bununla yarımçıq qala bilər, SOS siqnalı verərək kömək çağırmalı olarıq və ancaq hava yaxşılaşdıqdan sonra koordinatlarımıza əsasən bizi tapıb, geri qaytararlar.

Belə etmək məcburiyyəti qarşısında qalsaydıq, Allah bilir neçə gün çadırlarda bir düz yer tapıb düşərgə qurub qalmalı olacağıq ki, təyyarə bizi axtarsın, tapsın, yerə enə bilsin və bizi götürərək geri aparsın. Bu ssenarini əvvəlcədən düşünmüşdük. Buna görə də hər iki nəfərdən birimiz xizəyin sınması ən çox ehtimal olunan hissəsinin ehtiyatını özümüzlə götürmüşdük. Həmin hissəni dəyişmək 10 dəqiqədən bir qədər çox

vaxt tələb etdi. Dörd cənubi afrikalı bunu etmək üçün saat kimi dəqiq və sürətlə çalışdılar. Biz isə bu vaxt ərzində əsaslı surətdə donduq.

Hərəkətdən tərləmiş üz-gözümüzdən 10 dəqiqənin içində buz parçaları sallanmışdı. Ən çox əziyyət verən isə əllərimiz idi. Üstəgəl, haradansa içinə hopmuş rütubətin donaraq buza çevrilməsi nəticəsində sol çəkməm ayağımın özünü də buz kimi etmişdi. Ona görə də, hərəkətə başlamağımızı bir mükafat, çox arzu etdiyimiz bir iş kimi qəbul etdik və növbəti dayanacağa qədər bütün yolu intensiv hərəkətlər edərək, şaxta ilə mübarizə apardıq.



***Cənubi afrikalı Şonun xizəyi sınıb...***



*Antarktidada susuzluq da əziyyət verir*



*Cənub Qütbünə gedən yolda bir gecəlik düşərgədə*



*Tez, tez! Yola hazır ol!*

## 4.13. Yeddinci gün və Cənub Qütbünün yaratdığı mirajlar

Yeddinci gün saat 2-3 arasında qəflətən qarşıda - sol tərəfdə, çox uzaqda qaraltılar göründü (düzdür bunun çox uzaqda olması qənaətinə sonra gəldim, deyildiyi kimi Antarktikada məsafələr aldadıcıdır). Ceyson adlı cənubi afrikalı “Bu xizəkçilərdir! Bu xizəkçilərdir!” deyə, qışqırmağa başladı. Doğrudan da bunlar sayı 10-12-yə çatan, hərəkətsiz, uzaqdan görüntüsü insana oxşadığı ehtimal edilə bilən siluetlər idi. Lakin onların arasında eni uzunundan böyük olan qaraltılar da var idi. Bəs bunlar nə ola bilərdi? Axı bu köklükdə insan ola bilməz. Özu də Antarktidada. Onlar kirşə üçün də çox yekədirlər. Bu boyda kirşəni kimsə darta bilməz. Bu inanılmazdır!

Mən ehtimal etdim ki, yəqin bu Amerikanın Amundsen-Scott stansiyasıdır ki, biz onu görməyə başlamışıq. Şon isə bunu mümkünsüz saydı. Bu stansiyaya hələ 40 km-ə qədər məsafə qalıb və stansiya düz qarşımızda, bir az sağda olmalıdır. Bu qaraltılar isə sol tərəfdədir. Təkid etdim ki, "Gəlin bu istiqamətdə hərəkət edək, onda hər şey aydın olar". Öz aralarında "afrikaans" dilində (Cənubi Afrikanın ağdərililərinin əksəriyyəti XVIII-XIX əsrlərdə Hollandiyadan köçənlərdir. İndi onlar özlərini müstəqil etnik qrup hesab edərək "bur", holland dilinin bir dialektinə çevrilmiş dillərini isə "afrikaans" adlandırırlar) nə isə müzakirə etdilər və qərarlarını bildirdilər ki, biz GPS-in göstərişinə əsasən qaraltıya tərəf yox, hətta düz də yox, sağa tərəf dönərək hərəkəti davam etdirəcəyik, siz isə özünüz qərar verin.

Əslində biz riskdən qorxmurduq. Birincisi öz GPS-lərimiz var idi, ikincisi isə inanırdım və əmin idim ki, buralarda Amerikanın Amundsen-Scott stansiyasından başqa landşaftı bu dərəcədə qeyri-təbii şəkildə poza biləcək ikinci bir struktur yoxdur. Ona görə də, gözümüzlə gördüyümüz obyektə doğru rahat hərəkət edə bilərdik. Lakin bu qədər yolu çiyin-çiyinə gəlmişdik. Artıq hiss edirdim ki, cənubi afrikalarının təklifi bizə əlavə 20-30 km getməyi vəd edir və onsuz da sonradan başa düşəcəyik ki, marşrutu korrektə etmək lazımdır.

Bura Antarktidadır. Burada təfəkkürün də öz xüsusiyyətləri var. Nəticədə qərara gəldik ki, hərəkəti bizim həmkarların dediyi istiqamətdə davam etdirək. Nə olar, olar. Bütün günü getdikcə daha çox solda qalan siluetləri görə-görə yolumuza davam edirdik. Günün sonunda isə bu siluetlər artıq üfüqdə gözə görünməyən nöqtələrə çevrilmişdilər.

## 4.14. Deyəsən Cənub Qütbünə yox, "əlçatmazlıq qütbü"nə gedirik

Təbiətin bizə ayırdığı 3-4 dəqiqəyə yenidən çadırlarımızı quraraq, bir az özümüzə gəldikdən sonra çadırların divarlarının yaxşı səskeçirmə qabiliyyətindən istifadə edərək, elə çadırların içində qala-qala daha bir müzakirə keçirdik.

Mən bir daha təkid etdim ki, yolumuzu demək olar ki, artıq gözümüzdən itmiş siluetlərə doğru döndərək. Hesablamalarıma görə artıq 100 km-ə yaxın yol keçmişdik və Antarktidanın xüsusiyyətlərini nəzərə alsaq, əslində Amundsen-Scott stansiyasını aydın görməliydik.

Artıq məndə inam yaranmışdı ki, biz həmin stansiyadan uzaqlaşaraq, Antarktidanın dərinliklərinə doğru, daha sərt şəraiti olan "əlçatmazlıq qütbü"nə doğru gedirik. Belə getsə 10-12 gündən sonra Rusiyanın Vostok stansiyasına çatacağıq. Şon və Voqan öz çadırlarında mənim bu müraciətimi yenə də etirazla qarşıladılar. Düzdür, bu dəfə onların səslərindəki əminlik notları artıq yox idi. Lakin bu dəfə başqa arqument gətirdilər ki, yolu başladığımız istiqamətdə də davam etməliyik. Bu arqument də ondan ibarət idi ki, onların telefonla (çox etibarsız çalışan "İridium" satellit telefon xətti idi. Telefonun antenası da qırılmışdı, onu birtəhər yapışdırmışdıq və çalışırdıq ki, bir daha ona toxunmayaq, akkumulyatorları isə "yatmışdı". Xoşbəxtlikdən mən və Şon özümüzlə akkumulyatorlu batareyaları doldurmaq üçün kiçik günəş panelləri götürmüşdük. Günəşli günlərdə bu panelləri günəşə doğru yönəldərək, 2-3 dəqiqə telefonla danışa bilirdik. Akkumlyatoru doldursaq

da onları günəş panelindən ayıran kimi soyuğun təsiri altında yenidən boşalırdı) Patriot-Hillsdən aldıqları məlumata görə Cənub Qütbünə çathaçatda bizim ilk görəcəyimiz qurğu nəhəng antena olmalıdır. Nədənsə onun altından keçmək olmaz. Onu sağdan keçmək və antena arxada qaldıqdan sonra sola dönərək Cənub Qütbünə doğru hərəkət etmək mümkün olacaq. Buna görə də, biz hələ də istiqamətimizi həmin qurğulardan sağa doğru davam etdirməliyik.

Doğrusunu deyim ki, bu mənim heç ağlıma batmadı. Şübhə etmirdim ki, amerikalılar istədikləri yerdə, istədikləri ölçüdə, istədikləri qurğunu quraşdıra bilərlər. Axı bu necə antenadır ki, onu sağdan ötüb keçmək üçün günlərlə vaxt lazımdır və onda stansiyada olanların özləri də bu antenanın istismarı zamanı hər gün bu boyda məsafəni qət etməlidirlər. Bu məntiqə sığmırdı.

Mən də onları öz mövqeyimin düzgünlüyünə inandıra bilmədim. Bu boyda yolu bir yerdə gəlmişdik, bir-birimizə yaxşı, etibarlı yol-yoldaşı olmuşduq və sonda bir neçə gün də birlikdə hərəkət etməliydik. Burada ayrılmaq və öz yolumuzu təkbaşına getmək nə qədər düzgün olardı?

Cavabını heç özüm də bilmirdim. Axırda qərara gəldik ki, eybi yoxdur, ola bilsin ki, 15-20 km artıq yol gedək və ya ola bilər ki, elə bizim cənubi afrikalı yol-yoldaşlarımız haqlıdırlar, mən nəyi isə başa düşmürəm. Qərarlaşdırdıq ki, hər halda yolumuza birlikdə davam edək, görək başımıza nə gəlir.

## 4.15. Yeni təhlükə: qida və yanacaq qıtlığı

Bizi başqa məsələlər də getdikcə daha ciddi düşündürməyə başlamışdı. Yanacağımız tükənirdi, qabların lap dibində qalmışdı. Yanacağa mümkün qədər qənaət edərək, ondan ancaq qar əritmək üçün istifadə etməyə qərar verdik. Bunsuz keçinmək mümkün olmazdı. Həm də çalışırdıq ki, daha çadırı isindirmək üçün primusdan və yanacaqdan istifadə etməyək. Onsuz da bu mənasız bir iş idi. Primusu söndürdükdən 3-4 dəqiqə sonra çadırın içində temperatur mənfi 25°-30°-yə düşürdü.

Düzdür, düşərgə qurduğumuz zaman göydə bulud az olurdusa və günəş də parlayırdısa, onda günəş çadırın hansısa bir divarını müəyyən dərəcədə qızdırırdı və içəridə temperatur mənfi 15°-12°-yə qədər qalxırdı. Lakin, bir qayda olaraq, günəşin ən çox parladığı zaman biz yolda olurduq. Onun üfüqə nisbətən aşağı mövqeyə keçdiyi saatlarda düşərgə yaradaraq, çadırda qalmağa üstünlük verirdik. Ona görə də, Cənub Qütbünə yürüş zamanı çadırda günəşin istisində xumarlanmaq imkanları minimuma enmişdi.

Yemək kisələrimiz  də demək olar ki, boşalmışdı. Qaynar suyun təsiri altında 10 dəqiqəyə hazır olan paketlərdəki quru yeməklər nə qədər dadsız olsalar da, hər halda isti sıyıq yeməkləri idi. Yaxşı enerji verirdilər və mədəmiz  bu sıyıqları buxar maşınının sobası kimi, yaxşı həzm edirdi. Bu yeməklər də artıq qurtarmışdı. Yekə buza dönmüş iki-üç tikə pendir parçasını doğramaqda davam edirdik. Bu axşam mən yeni bir yemək növü “kəşf” etdim. Yükümüzdə  çəkisi çox olmayan, lakin yer tutan və elə bir

enerjisi də olmayan qarğıdalıdan hazırlanmış "cornfleks" səhər yeməkləri var idi. Özümüzlə bir neçə xırda paket süd də götürmüşdük. ALE-nin adamlarının fikrinə görə biz bu südün donunu açmalı, onu qızdırmalı və qarğıdalı "cornfleks"lərini südün içinə boşaldaraq yeməli idik. Deməliyəm ki, mən ümumiyyətlə süd içmirəm və hətta Antarktida şəraiti də məni buna məcbur edə bilmədi. Ona görə də, öz payıma düşən südləri yanımdakı yoldaşa və cənubi afrikalılara vermişdim. "Cornfleks"lər isə qalmışdı.

Heç özümüz də bilmirdik ki, onlarla nə etmək olar. Hətta bir neçə dəfə kirşədə daşıdığımız yükü yüngülləşdirmək üçün istəyirdik ki, bu salafan paketlərdəki "cornfleks"ləri gizlicə çadırımızın arxasında qarın altında basdıraq, heç kəs görməsin və yükümüz də azalsın. Bu ayrı bir mövzudur. Antarktidada yürüşlər zamanı qəbul olunmuş ekoloji tələblərə riayət edərək, özümüzdən sonra arxamızca heç bir şey saxlamırdıq. Bütün, bir daha qeyd edirəm, bütün tullantıları özümüzlə aparırdıq və Cənub Qütbünə çatdıqda bütün tullantılarımızı yekə, qara bir torbaya yığaraq, geri qayıdarkən təyyarəyə yükləmişdik.

"Cornfleks"ləri də heç onların qida dəyərinə görə yox, ekologiyanı korlamamaq məqsədilə özümüzlə gəzdirməkdə davam edirdik. Boş torbalarımızı ələk-vələk edərkən daima əlimə keçən bu "cornfleks"lərlə nə edəcəyimi bu gün artıq bilirdim. Çünki, pendiri qızdırıb yeməkdən artıq bezmişdik. Yanımdakı yoldaşa qazanda bir az su qaynatmağı tapşırdım. İki paket "cornfleks"i ora boşaltdım.

Həmişə olduğu kimi bıçaqla buzlu pendir parçasından tikələr qopartdıq. Bu tikələri də qazana yerləşdirdik. Əvvəlki "firavan" günlərimizdən qalan qurumuş və donmuş kolbasa və ət tikələrini də xırda hissələrə parçalaya-

raq qazanın içinə ötürdük. 10-15 dəqiqədən sonra bütün bunlar qazanda "pıqqıldamağa" başladı. Deməzdim ki, bu ömrümüzdə yediyimiz ən dadlı yemək idi. Lakin zahirən xəşiləbənzər bu yemək yəqin ki, həyatımızda qəbul etdiyimiz ən xolesterinli, ən enerjili, insanı tez doyduraraq, gec həzm olunan qida idi.

Baxmayaraq ki, hər birimiz xeyli çəki itirmişdik (mən Antarktidaya yollanarkən çəkim 78 kq idi. Çiliyə qayıtdığım ilk günü isə çəkim artıq 69 kq-a bərabər idi), bu bizi az narahat edirdi. Əsas o idi ki, bu şişmiş qarınlarımız bu gecə də bizi donmağa qoymayacaq və yataq kisələrini öz bədənimizin istisi ilə qızdıra biləcəyik.

## 4.16. Səkkizinci gün

Növbəti gün səhər uzaqda nöqtələrə çevrilmiş siluetlər tamamilə gözəgörünməz oldu. Hərəkət etmək çox çətinləşmişdi. Küləyin və şaxtanın yaratdığı qar təpəcikləri yol boyu bizi qalxıb-enməyə məcbur edirdi. Görünür qütbə yaxınlaşdığımızın nəticəsi idi ki, bütün günü temperatur mənfi 40°-45° arasında dəyişirdi.

Artıq özümüz-özümüzdən şübhələnirdik ki, uzaqda siluetlərini gördüyümüz qurğular miraj deyildi. Yenə də tamamilə ağ, sonsuz qar-buz səhrası ilə yeriyirdik. Hava yenə də kəskin pisləşmişdi. Bir tərəfdən də çoxgünlük yürüşün ahənginə və fiziki əziyyətlərinə elə bil ki, öyrəşmişdik. Hər halda mən özümü fiziki cəhətdən çox gümrah hiss edirdim. Eyni zamanda psixoloji yorğunluğum da getdikcə artmaqda idi. Antarktidanın hansı şərtlərlə bizi öz içərilərinə buraxdığını indi tam aydınlığı ilə dərk edirdim. Bu 7-8 gün ərzində fəaliyyətimizin rəngarəngliyi haqqında da-

nışmaq olmazdı. Hansı hərəkətləri, işləri, addımları atdığımızı siyahıya alsaydım, yəqin ki, heç bir vərəq olmazdı. Hə, bu siyahı məsələsi yaxşı fikirdir.

Doğrudan da, belə bir siyahı tutmaq və onun adını "Antarktidanın rejim cədvəli" qoymaq gərəkdir. Səhər yataq kisəsindən çıxmaq, kisənin içində isti qalsın deyə saxladığımız paltarları geymək, primusu yandırmaq, axşamdan qar əridərək əldə etdiyimiz və artıq yenidən donub buza çevrilmiş suyu qızdırmaq, ixtiyarımızda olan azuqələrdən yemək hazırlamaq, xüsusi bir prosedur olan yekə ağır çəkmələrimizi geymək, növbə ilə birimiz çöldə, birimiz çadırın içində əşyaları toplayaraq, kirşələrə yükləmək, sonda çadırı da yığışdırmaq, maskaları, üçqat əlcəkləri geyinmək və hərəkət etmək.

Demək olmaz ki, gün ərzində də hadisələrlə dolu müxtəlif xarakterli fəaliyyətin iştirakçısı olurduq. Hər bir saatdan bir 5 dəqiqəyə qədər durmaq. Düzdür bu 5 dəqiqəlik tənəffüsləri bir mükafat kimi gözləyirdik.

Sonra da deyirlər ki, Antarktidanı, nə bilim Vinson dağını, nə bilim Cənub Qütbünü fəth etdilər. Demək olarmı ki, sənin üstünə dırmaşmış qarışqa səni fəth edir?

## 4.17. Əsl soyuq müharibə

Soyuqla mübarizə də əsl müharibə qaydalarına uyğun gedirdi. Cəbhə xətti var idi. Bu sənin həyatını qala divarları kimi qoruyan bədəninin istisi və Antarktidanı doğrudan da fəth etmiş soyuğun görüşdüyü xətt idi. Cəbhə xətti. Sən bütün vasitələr ilə vuruşurdun ki, cəbhə xətti qoruduğun həyatından, bədənindən mümkün qədər uzaqda olsun, heç olmasa üst gödəkcənin üzəri ilə keçsin. Am-

ma sənin qoşunun azsaylı, tam qələbəyə ümidin isə sıfıra bərabərdir. Soyuq getdikcə bu cəbhə xəttini, mühasirəni daraldır və sən də əyninə geyindiyin beş qat paltarların mühafizə qabiliyyətini qorumağa çalışsan da, onları qat-qat, istehkam-istehkam təslim edib geri çəkilirsən. Qoruya bildiyin ərazi getdikcə kiçilir. Budur, artıq soyuq öz "desant"ını üzünə, gözlərinə, saçlarına və sənin xüsusi ağır zirehli texnikan sayılan çəkmələrinin içinə belə çıxardır.

Hər yer buz içində. Hər gün bunu etmək çox ağır olduğu üçün çəkmələrimin içindəki buzu iki gündən bir əridib qurutmağa çalışırdım. Nəticədə bir gün canında bir az nəm olan çəkmələri geyirdim, o biri gün isə içi buz bağlamış çəkmələri.

İnsanların öz şüurlu tarixi boyu hələ sınamağa imkan tapmadığı keyfiyyətləri və yaşamaq uğrunda mübarizə qabiliyyətləri varmış. Bu mübarizə qabiliyyəti böyük buz dövrlərində demək olar ki, ayaqyalın, çılpaq uzaq məsafələrə köç edərək, yaşamış və təkamül prosesində təkmilləşə-təkmilləşə bugünkü həyat üçün şans qazanmış əcdadlarımızdan gəlir.

Yataq kisəsində soyuqla isti ordusunun apardığı ölüm-dirim müharibəsinin zahiri görüntüləri daha aydındır. İlk günlər qurub-açan kimi içindəki qu tükünün təsiri altında hava ilə dolan və tez isinən kisə özünün üst qatının üzərindəki soyuqla məharətlə döyüşür, bir neçə gündən sonra isə səhərlər yataq kisəsinin üstünün buz bağladığını görürsən. Deməli, bu istehkam alındı. Tədricən bu xətt kisənin qalın hava və tüklə dolu içərilərinə doğru yeriyir və nəhayət yorğun halda kisəyə girərkən, haradasa güc, enerji tapıb onun buz kimi içərilərini qızdırmağa çalışırsan və gücün ancaq onu - cəbhə xəttini bir az rütubətli edərək,

özündən bir neçə millimetr uzaqlaşdırmağa çatır. İş burasındadır ki, bədəndən ayrılan isti, bir qayda olaraq rütubətli olur və soyuq hava ilə rastlaşan yerdə bu rütubət buza çevrilərək simvolik cəbhə xətti kimi olumla ölüm arasından keçir. Yataq kisəsinin üstü buz bağlayarkən onu əllə sındırıb təmizləyirsən. Lakin, bu kisənin içərilərinə doğru hərəkət etdikdə sən artıq gücsüzsən - kisənin içərisindəki buz, soyuğun qəti qələbəsinin simvoluna çevrilir.

Qeyd etdiyim kimi, ən ağır saatlar 7-8 saatlıq hərəkət gününün beşinci-altıncı saatları olurdu. Yorulmuş və donmuş, lakin hərəkəti davam etdirmək məcburiyyətində qaldığımız zaman bizləri bir arzu isindirirdi - bir saat, iki saat da dözsək bu günün də vəzifəsini yerinə yetirmiş olacağıq. Bu prosesi yüngülləşdirmək üçün özümlə apardığım xüsusi enerjili və kofeinli pastalarımız da qurtardı. Heç olmasa bir az enerji almaq üçün yol boyu qəbul edilməsi rahat olan çərəz - alma qurusu da artıq bir-birinə möhkəm yapışmış və buz parçasına çevrilmişdi. Başqa heç bir şey qalmamışdı. Onu isə heç çeynəmək də olmurdu. Bir tikəsini ağzına ataraq, yumşaltmaq üçün gözləyirsən, o yumşalana qədər dilin, damaqların donmağa başlayır.

Nəhayət düşərgə salmaq vaxtı çatdı. Üfüqlərdə heç bir şey görünmürdü. Hesablamalarımıza görə artıq 110 km-dən artıq yol keçmişdik. Əslində qütbə çox yaxın olmalıydıq. Demək olar ki, iki ekspedisiyanın bütün üzvləri söz işlətmədən etiraflarını da gizlətmirdilər ki, marşrutdan kənara çıxmışıq. Lakin, heç kim heç kimi, heç nədə ittiham etmirdi və bu bizim ağlımıza da gəlmirdi. Çünki bu bizim ümumi işimiz idi. Məsuliyyəti də hər kəs öz üzərinə götürürdü.

## 4.18. Ekstremal idman xarakteri formalaşdırır?

Ümumiyyətlə, ekspedisiyada çiyin-çiyinə getdiyimiz insanların mənəvi keyfiyyətləri haqqında danışırıqsa, bundan əvvəl bildiklərimə əlavə olunan yaxşı bir təcrübə qazandığımı da deməliyəm. Faktiki olaraq 35 gün, ingilis-holland mənşəli cənubi afrikalılarla - həvəskar olsalar da özlərini idmançı sayan insanlarla - çox sıx təmasda oldum. Özü də ekstremal şəraitdə! Bəs bu təcrübə mənə nə verdi? Birmənalı deyə bilərəm ki, bütün idmançılarda milliyyətindən və ölkəsindən asılı olmayaraq rəqabət hissi həddən artıq qabararaq, bütövlükdə xarakteri müəyyən etməyə (davranışına, eşitdiyi bir xəbərə münasibət bildirərkən və s.) başlayır. Lakin bir qayda olaraq, qərb idmançıları arasında (o cümlədən səyahətçilərin, ekstremal səyahət edənlərin) rəqabət hissi başqa davranış qaydaları və alicənablıq normaları çərçivəsində baş verir. Yəni yarış ruhu var, lakin bu yarışda qalib gəlmək üçün bütün vasitələrə əl atılmır, əsəblərin insanı idarə etməsinə yol verilmir, insanın ləyaqətinə toxuna bilən addımlardan qaçılır. Ən əsası isə heç bir şey bu insanları istədiklərinə nail olmaq üçün yalan danışmağa vadar etmir. Əksinə yalan danışmaq elə insanın özü üçün çox alçaldıcı bir göstəricidir (əslində bu elə universal bir yanaşmadır). İntriqaları sevmirlər.

Bizim ölkəmizdə dağçılıq idmanının vəziyyətinə nəzər saldıqda (mən Hava və Ekstremal İdman Növləri Federasiyasının yaradılması və formalaşdırılması məsələləri ilə məşğul olmağa başladığım vaxt bizdə hava idman növlərinin ümumiyyətlə heç olmadığını gördüm. Eyni zamanda ekstremal dağ idman növlərinə diqqət yetirərkən bu sa-

hənin vəziyyəti haqqında çox acı bir təcrübə qazandım) burada tamamilə başqa meyarların, normaların hökm sürdüyünü təəccüblə özüm üçün "kəşf" etdim.

Mən dağları həmişə sevmişəm. Uzun illərdir ki, fürsət düşən kimi çadırımı və yataq kisəmi götürərək, doğma dağlarımızı gəzib dolaşmaqla məşğul oluram. Ən çox sevdiyim mövsüm də yayın sonu, payızın əvvəlidir. Çünki bu aylarda özünlə heç yemək götürməyə də bilərsən - dağlar yabanı meyvələrlə dolu olur. Yolunu gedə-gedə o ağacdan bir gavalı, bu ağacdan bir alça, kollardan giləmeyvə dərib yeyirsən və bütün günü heç aclıq da hiss etmirsən. Elə dağlarda səyahət etdiyim dövrlərdə yay mövsümündə qoyun sürülərini müşayiət edən iri, yaraşıqlı və sərt Qafqaz - Azərbaycan qoyun itləri ilə də dil tapmağı öyrənmişəm. Hətta bir dəfə xarici qonaqlarla olduğum bir səyahət zamanı bir dəstə qoyun iti uzaqdakı sürüdən ayrılaraq öz məqsədlərini gizlətmədən səs-küylə üstümüzə gəldi. "Sirli" sözlər və hərəkətlərdən sonra Almaniyadan olan qonaqlar təəccüb və maraqla bu itlərin yarımdairə şəklində bir tərəfdə oturaraq, onlarla söhbətləşmənin fotosunu çəkirdilər. Nə isə...

Son illər Hava və Ekstremal İdman Növləri Federasiyasının işləri ilə bağlı özlərini idmançı adlandıran insanlarla ünsiyyətdə olub, həm birlikdə dağlara getmişəm, həm də Federasiyanın müxtəlif məsələləri ilə bağlı söhbətlər, müzakirələr aparmışam. Bu zaman tamamilə başqa bir vəziyyətin şahidi olmuşdum. Onlar da çox istəyirdilər ki, kənardan cəlbedici, müsbət və hətta alicənab görünsünlər. Yoldaşlıq hissindən, dağlarda bir ipə bağlı olaraq, qayalara dırmanmağın əhəmiyyətindən danışırdılar, tez-tez "fəth etdim" sözünü işlədirdilər. Lakin bu insanlarla ünsiyyətdə

olduğum zaman, onların arasında təcrübə topladıqca belə qənaətə gəldim ki, burada alicənablıqdan əsər-əlamət belə yoxdur. İnsanı rəqabətdə - hətta yol getdiyi yoldaşı ilə rəqabətdə məqbul sayılmayan addımlardan və hərəkətlərdən çəkindirən çərçivə yoxdur. Obyektiv özünü qiymətləndirmə ənənəsi də yoxdur, qabiliyyəti də! Eyni zamanda şüurlu surətdə yalan danışmaq, intriqalar yaratmaq, həqiqəti gizlətmək, etibardan sui-istifadə etmək, “Mən daha yaxşıyam!” yarışında geniş istifadə olunur.

Təəccüblüdür, əgər bu insanlar alicənab görünmək istəyirlərsə, deməli bu alicənablığın yüksək bir dəyər olduğunu anlayırlar. Bəs onda niyə alicənab olmaq üçün tələb olunan keyfiyyətlərə səmimi inanaraq, onları öz həyatlarında rəhbər tutmurlar? Məhz elə bunun nəticəsidir ki, hələ Federasiyamız yaranmazdan əvvəl, 90-cı illərin əvvəllərində bizdə dağçılıq idmanı tənəzzülə doğru getdi, aşağı mənəvi keyfiyyətlərə sahib olan insanların intriqalarının, “mənəm-mənəm” prinsipləri üzərində qurulmuş davalarının qurbanı oldu. Dağçılıq idmanında hökm sürən belə ürəkbulandırıcı atmosfer hətta bu qədər birmənalı, aydın, ülvi məqsədləri olan ekspedisiyamızın hazırlıq prosesinə də istər-istəməz təsir etdi. Mən artıq bu barədə danışmışdım.

Ən azı beş nəfərdən ibarət ekspedisiya təşkil etmək istəyirdim və bu işi də dağları sevdiyinə inandığım (əslində az tanıyırdım və buna görə də inanmamağa əsas görmürdüm) insanlara tapşırmışdım. Elə Federasiyanın gündəlik işlərini də onlara tapşırmışdım. Aydın məsələdir ki, məmurun o qədər vaxtı olmur ki, incəliklərinə diqqət yetirərək bu işlərlə gündəlik əsaslarla məşğul olsun. Bəzən Federasiyanın işlərinin bütövlükdə yaxşı getmədiyini düşün-

düyüm zaman bu iş üçün məvacib alıb, çalışan şəxslərdən hesabat tələb etdikdə özünə bəraət qazandıran, başı-ayağı olmayan cavablar alırdım və düzü bəzən özümdən də şübhələnirdim ki, bəlkə həddən artıq tələbkarlıq göstərirəm? Bəlkə onlar haqlıdırlar? Bəlkə elə belə də olmalıdır? Ekspedisiyanın təşkili ilə bağlı tapşırığın da nə üçün yerinə yetirilmədiyi ekspedisiya başa çatana qədər mənə aydın olmamışdı. Əslində Antarktidaya da, başqa istədiyim yerlərə də mən tək gedə bilərdim. Amma bu halda özüm-özümü təmsil edərdim, ölkəmi yox. Yaxud, məcbur olub başqa bir ölkənin ekspedisiyasına qoşularaq, başqa bir ölkənin bayrağı altında öz bayrağımızı gəzdirməli olardım. Bu qarşımda alternativ seçim kimi durmuşdu. Lakin, öz qəlbimin səsinə qulaq asdıqda, bu fikrin məni heç "isindirmədiyini" hiss etdim. Ona görə də, nəyin bahasına olursa-olsun heç olmasa minimum sayda üzvləri olan milli ekspedisiyanın təşkil olunmasında israrlı idim.

Ekspedisiyadan qayıtdıqdan sonra müəyyən təhlillər apardım. Köməkçilərimdən internet saytlarından, müxtəlif forumlardan məlumat toplamağı tapşırdım. Sənədləri, məktublaşmaları təhlil etdim və anladım ki, ekspedisiyanın beş nəfərlik yox, iki nəfərlik olmasının səbəbi qısqanclıq, intriqalar və buna bənzər başqa rastlaşmaq istəmədiyim amillər olmuşdur. Tələb qoymuşdum ki, bu beş nəfər müəyyən kriteriyalar üzrə Federasiyanın ətrafında toplaşmış, müəyyən nailiyyəti olan idmançılar və fiziki göstəriciləri ekstremal çətin yürüşə çıxmağa imkan verən elm nümayəndələrinin sıralarından seçilməlidir.

Sonradan öyrəndim ki, mənim bu tapşırığım hətta Federasiyanın üzdə olan fəallarına belə çatdırılmayıb. Rusiyanın ekspedisiyalarının təşkilində təcrübəsi olan şəxslərlə də

əlaqə saxladıqda məlum oldu ki, onlara da bizim təkliflərimiz olduğu şəkildə çatdırılmayıb. Nə etmək olardı ki?...

Düşünürəm ki, məhz bunun nəticəsi idi ki, dağ idman növü əslində heç formalaşmağa və təşəkkülə imkan tapmamış, bir neçə öz həyatını belə normal qura bilməyən, ancaq ambisiyalı adamın güdazına gedərək zəbt edilmiş, onun üzərində müəmmalı bir monopoliya qurulmuş və bunun nəticəsində miskin bir vəziyyətə düşmüşdür.

Əlavə 20-25 km getmək lazım gələcəkdir. Amma biz bunu problemə çevirmədik. Müzakirəsini belə aparmadıq. Bizim bu 30 gündə formalaşmış etibarlı yoldaşlıq münasibətlərimizə zərrə qədər də təsir etmədi. Əksinə, bu münasibətlərin ola bilsin ki, gələcəyi olmasın. Ola bilsin ki, gələcəkdə bu insanlarla (cənubi afrikalılarla) bir daha üz-üzə gəlməyəcəyik. Lakin, bu gün biz hamımız həyat bahasına başa gələ bilən çətinlikləri çiyin-çiyinə dəf etməyə hazır idik.

## 4.19. Məsafə azalır, gərginlik artır

Aydın idi ki, tələm-tələsik quraşdırdığımız çadırlarda bizi artıq mənim icad etdiyim xəşiləbənzər sarı pendirli və içinə qurumuş kolbasa qırıqları qatılmış sıyıqdan başqa heç nə gözləmir. Lakin, görünür sivilizasiya dünyasında son minilliklərdə nərmə-naziklәşmiş və qayğısına bu qədər qaldığımız mədələrimizin genetik yaddaşında hələ də daha sərt dövrlər haqqında yaxşı məlumat qalıb və lazım gələndə onlar hər şeyi həzm etməyə hazırdır. Təki enerjisi olsun!

Növbəti gün hərəkət istiqamətimizə lazımi düzəliş verərək, start götürdük. Amma hərəkətə başlamazdan əv-

vəl kiçik bir insident baş verdi. Adətən kirşələrimizi öz yükümüzlə doldurarkən istifadəsi ümumi olan əşyaları da öz aramızda bölüşdürürdük. Çadırı və onun dayaqlarını da növbə ilə daşıyırdıq. Bundan başqa primusların, qab-qacağın olduğu çantanı da bir gün birimiz, bir gün digərimiz öz kirşəsinə yükləyirdi. Yubanmamaq üçün cəld çadırın sökülməsini təmin etdim, onu səliqə ilə bükərək, növbə onun olduğu üçün ekspedisiyamızın digər üzvünün kirşəsinin yanında qoydum. Daha bir dəqiqədən sonra hərəkətə hazır vəziyyətdə onu gözləməyə başladım. O isə nədənsə hazır deyildi. Cənubi afrikalılar bizi gözləmədən hərəkətə başladılar. Mən hələ də hazır olmayan yol yoldaşmı tələsdirməyə cəhd göstərdikdə o, çatdıra bilmədiyini deyərək kömək istədi, həm də bir az əsəbi idi. Görünür Antarktida reallıqları öz işini görürdü. Elə bil ki, yürüşün ikinci günü "Hərə özünə cavabdehdir!" deyən adam deyildi.

## 4.20. Nəhayət!

Hərəkətimizin ikinci saatı anladıq ki, istiqamətimizi dəyişməklə düzgün iş görmüşük. Qabaqda gedən Ceyson sevincək, "Stansiya göründü!", deyə çığırmağa başladı. Bu elə bizim iki gün əvvəl gördüyümüz siluetlər idi ki, fərqli bucaq altında görünməyə başlamışdılar. Hər halda, bu görüntü bizim əhval-ruhiyyəmizi tamamilə dəyişdi. Həvəslə irəliləməyə başladıq. Çalışırdıq ki, Amerikanın Amundsen-Scott stansiyasına tərəf az baxaq. Çünki istəyirdik ki, hərəkət etdikcə stansiyaya yaxınlaşmağımızın zahiri əlamətləri daha aydın görünsün. Getdiyimiz yerə doğru tez-tez baxanda onun yaxınlaşdığını hiss etmək olmurdu.

Günün axırına artıq 14 km yol keçmişdik. Daha 2 km keçmək üçün hərəkəti davam etmək və ya düşərgə salmaq barədə ayaqüstü kiçik müşavirə keçirtdik. Stansiya artıq çox aydın görünürdü - iri qara bina, səmaya yönəli nəhəng parabolik antenalar və əraziyə sıralarla düzülmüş yüzlərlə müxtəlif, bəzilərinin üstü taxta qutularla örtülü texnika (məhz bu texnikanın siluetlərini ilk dəfə görəndə uzaqdan bizdə təəssürat yaranmışdı ki, bu xizəkçilərdir). Qərara gəldik ki, sabah təqribən 9-12 km yol getməli olacağıq və ona görə də, bu gün əlavə 2-3 km-ə görə özümüzü öldürməyək. Düşərgəmizi salaq, çox yorğun olduğumuz üçün bir az istirahət edək. Hava da çox soyuq idi.

Apardığımız meteoroloji müşahidələrdən bilirdik ki, temperatur mənfi 44°-45°-yə çatır. Sadəcə rütubətin 16-18% olması bu soyuğa dözümü nisbətən mümkün edirdi. Odur ki, düşərgə saldıq və artıq həbsxana rasionuna bənzər yeməyimizi hazırlayaraq şam etdik. Bütün yol boyu şərti olaraq Çilinin öz sektoru elan etdiyi ərazi ilə hərəkət edirdik. Buna görə də, saatları Çili vaxtına kökləmişdik. Lakin, Amundsen-Scott stansiyası Yeni Zelandiya vaxtı ilə yaşayırdı. Bu isə o demək idi ki, növbəti gün, Çili vaxtı ilə günortadan sonra saat 4-dən tez Cənub Qütbünə çatsaq, batareyaları "yatdığına" görə istifadə edə bilmədiyimiz (neçə gündür ki, günəş üzü görmürdük) telefonların batareyalarını stansiyada doldurmaq ümidi boşa çıxacaq və bir neçə saat gözləməli olacağıq. Stansiya Yeni Zelandiya vaxtı ilə səhər saat 8-00-da "oyanacaq". Bu isə Çili vaxtı ilə saat 16-00 deməkdir. Buna görə də, qərara gəldik ki, növbəti sonuncu hərəkət günü yola daha gec çıxaq.

Belə də etdik.

## 4.21. Ən qısa və çətin gün

Növbəti gün cənubi afrikalılar heç bizi gözləmədən qrup halında yığışaraq yola çıxdılar. Mən onları təqib etmək ya da həmişə olduğu kimi geri qalmış yol yoldaşımı durub gözləmək dilemması qarşısında qalmışdım. Nəhayət, ekspedisiyamız cənubi afrikalılardan təxminən bir km geridə hərəkətə başladı. Üç saat hərəkətdən sonra neçə günlərdir diskussiyaya səbəb olan və məşhurlaşmış antenaya yaxınlaşdıq. Düz onun başlanğıcına gəlib çıxmışdıq. Lakin, normalda antenanı perpendikulyar düz qarşımızda görmək əvəzinə, biz ona paralel yaxınlaşmışdıq. İndi aydın oldu ki, bizə nə üçün antenanı sağdan keçmək lazımdır tövsiyəsini vermişdilər.

Antena deyilən qurğu heç də bizim təsəvvür etdiyimiz kimi nəhəng parabolik qəbuledicisi olan bina filan deyildi. Bu, bir növ bizim yaxınlaşdığımız nöqtədən başlayan və Cənub Qütbü ilə paralel qərbə doğru uzanan, 3-4 m hündürlüyündə metal dayaqlara bağlanmış tor hasara bənzər bir qurğu idi və Antarktida şəraitində 20-25 km-lik dairə vuraraq, buraya yaxınlaşmağa ehtiyac yox idi.

Yenicə antena hasarının içərisinə doğru keçmişdik ki, Şonun xizəyi ikinci dəfə qırıldı. Bu dəfə onu artıq bərpa etmək mümkün deyildi. O xizəyini çıxardaraq hərəkətə davam etmək istədi. Həmin dəqiqə dizə qədər qara batdı və yükünün xeyli yüngülləşməsinə baxmayaraq (demək olar ki, nə yanacaq, nə də ərzaq qalmamışdı) kirşəsini heç yerindən tərpədə bilmədi. Onda Şonun cənubi afrikalı yoldaşları Ceyson və Voqan onun kirşəsini öz kirşələrinin arxasından qoşaraq, növbə ilə dartaraq hərəkət etməklə onun köməyinə gəldilər. O da xizəksiz çətinliklə addımla-

yaraq stansiyaya doğru yeridi.

Hər şeyi aydın gördüyümüzə baxmayaraq stansiya yaxınlaşmırdı ki, yaxınlaşmırdı. Onda yenə də stansiyaya baxmamaq qərarına gəldim. Başımı aşağı salaraq hərəkət etdim. Belə etdim ki, müəyyən məsafə qət etdikdən sonra stansiyaya daha yaxın olduğumuzu görə bilim. Bir tərəfdən məqsədimizin göz qabağında olması bizi hərəkətə həvəsləndirirdisə də, digər tərəfdən möhkəm tərləmişdik və tərlədikcə də buz bağlamışdıq. Ayaqlarımızı isə çox çətinliklə ağır-ağır addımlamağa məcbur edərək tez-tez və dərindən nəfəs alaraq, hərəkət edirdik. Mən deyərdim ki, bu yürüşün ən ağır günü elə bu gün oldu. Yol qurtarmırdı ki, qurtarmırdı.

Nəhayət stansiyanın ən kənar qurğularına yaxınlaşdıq. Bu qurğulara ağır texnikanın açdığı izlər aparırdı. Bu izlərlə hərəkət etməyi qərarlaşdırdıq və daha yarım saat hərəkət etdikdən sonra ehtimal etmək olar ki, stansiyanın pəncərələrindən bizi görən bir qrup qütb tədqiqatçısı əsas binadan çıxaraq, bizə doğru hərəkət etdilər. Daha 10 dəqiqə hərəkət və nəhayət biz çox isti xəz paltarlar geyinmiş bu insanlara yaxınlaşdıq. Biz çatanda, onlar əl çalmağa başladılar.

Onlar buraya - Cənub Qütbünə təyyarə ilə gəlmişdilər. Lakin, hər halda aylarla bu stansiyada qalırdılar. Antarktidanın sərt üzünü görməmiş deyildilər. Ona görə də bu, onların Antarktidanın ağ, bomboş səhrasından, 45° şaxtalı havada, küləyin qılınc kimi kəsdiyi bir şəraitdə qəflətən naməlumluqdan xizəkli, üz-gözü buz bağlamış insanların peyda olmasına təbii reaksiyaları idi. Öz hörmət və heyranlıqlarını da heç gizlətmirdilər. Qısa salamlaşmadan sonra qaça-qaça geriyə dönüb öz binalarına getdilər və oraya girdilər. Onlardan biri bizimlə qaldı. O, bu stansiyada ALE-

nin nümayəndəsi idi (mən belə anladım ki, bu xanım həm də stansiyanın işçisidir). O, bizi binanın ətrafından keçirdərək əks tərəfə, qütbün yerləşdiyi nöqtəyə gətirdi. Üstünə "Cənub Qütbü" yazılmış lövhələrin - iki nöqtənin (bu barədə daha sonra və daha geniş) yanından keçərək qalın qarla örtülü, üstündə heç bir iz olmayan bir yerə gətirdi. "Çadırınızı burada qurun" deyərək, çıxıb getdi.

### 4.22. Bu da Cənub Qütbü!

Son bir neçə dəqiqədə bu nöqtəyə doğru atdığım hər bir addımda əhvalım yüksəlir, hansısa bir xoşbəxtlik hissi məni bürüyürdü. Nəhayət bu əziyyətli günlər qarşımıza qoyduğumuz vəzifələrin tam yerinə yetirilməsi ilə itkisiz başa çatırdı.

Düşərgə yerinə çatdıqda qarın üst yumşaq qatını təmizləməyə belə taqətimiz yox idi və çadırı elə bu yumşaq qarın üstündə qurmağa çalışdıq və çadırın bərkidici ilmələrini mıxçalarla yox, xizəklərlə buza bərkitdik, onlar bizə artıq gərək olmayacaqdı!

Xizəklər yarıya qədər qara oturduqdan sonra çadırı möhkəm saxlamağa başladı. Hava çox küləkli və soyuq idi. Küləyin vıyıltısı və havada uçan qar, buz dənəcikləri Cənub Qütbünə layiq bir atmosfer yaradırdı.

İlk gördüyümüz iş, çadırı quran kimi əşyaları içərisinə daşıyıb yıxılıb yatmaq oldu, baxmayaraq ki, hələ tez idi. Çili vaxtı ilə hələ axşam saat 5-00, Yeni Zelandiya vaxtı ilə isə hələ səhər saat 10-00 idi. Bizi qarşılayan xanım, "Ola bilər ki, Amerikanın Amundsen-Scott stansiyasının rəhbəri sizi ora dəvət etsin. Dəvətsiz oraya getmək olmaz", demişdi. Düzdür, bu xəbərdarlıq Donalda və Şona aid deyildi. Çünki hələ 4 gün əvvəl Donaldın növbəti barmağında donma baş vermişdi. Bir il öncə o bir barmağını

Alyaskada, Şimali Amerikanın ən yüksək zirvəsi olan Mak-Kinli dağına qalxarkən itirmişdi. İndi də başqa bir barmağı donmuşdu. O, bu barədə səhər sübhdən xəbər tutdu. Çünki axşam ikən barmağı heç ağrımırdı da, sadəcə olaraq buz bağlamışdı. Səhər isə barmağının qaraldığını gördü.

Təcili SOS siqnalı verərək haqqını ödədiyimiz xizəkli təyyarəmizi çağıra bilərdik. Bu halda hər iki ekspedisiya yolunu dayandırmalı və geri dönməli idi. Çünki hətta yolumuzu davam etdirsəydik də belə, arxamızca Cənub Qütbünə heç kim gəlməyəcəkdi. Bu müzakirələr zamanı Donald qətiyyətlə bu variantı istisna etdi, "Bu qədər yolu gəlmişik, bir az qalıb. Üç-dörd gündən sonra qütbə çatmalıyıq. Mənə görə belə böyük bir iş uğursuzluqla başa çatmamalıdır. Mən dözərəm", dedi və biz yolumuzu davam etdirdik. Qütbə çathaçatda onun barmağı tamamilə qaralmışdı, qanqrena başlayırdı. Özünün dediyinə görə barmağından pis qoxu da gəlirdi. Əslində bu bədənin ölmüş hissəsi idi, çürümə gedirdi. Düzdür, özünün dediyinə görə heç bir ağrı hiss etmirdi. O ki, qaldı Şona, o da Donalddan bir gün sonra maskasının şüşəsi tamamilə donduğundan və birinci getdiyi halda yolu görə bilmədiyi üçün cəmi bircə saat maskasız hərəkət etmişdi. Nəticədə onun çənəsini, yanaqlarını və burnunu don vurmuşdu.

Donald və Şon Antarktidada qəbul olunmuş qaydalara görə təcili yardıma ehtiyacları olduğu üçün dəvət gözləmədən stansiyaya getdilər və ilk tibbi yardım aldılar. Onlar qayıtdıqdan sonra mən zarafatla Donalda dedim, "Sənin hələ 8 barmağın yerindədir. Deməli əlavə 8 ekstremal yürüş edə bilərsən". O isə, "Mən bu imkandan mütləq istifadə edəcəyəm", deyə cavab vermişdi.



*Cənub Qütbünün mənzərəsi*



*Cənub Qütbündə olan texnika, cihaz və avadanlıqlar*




*Azərbaycan bayrağı Cənub Qütbündə!*



*Cənub Qütbü fəth edildi!*



*Cənub Qütbündəki çadırımız*



*Ekspedisiya üzvləri ilə xatirə-şəkil*



***Cənub Qütbünə çatmağa xidmət edən xizəklər***




***Azərbaycan bayrağı Cənub Qütbündə dalğalanır***

## 5. AMUNDSEN-SKOTT STANSİYASINDA

O qədər yorulmuşdum ki, heç yemək də yadıma düşmürdü və yarı yuxulu, taqətsiz vəziyyətdə yataq kisəsində uzanmışdım. Bu vaxt Şon çöldən bir-bir adlarımızı çağırdı və dedi ki, biz Amundsen-Scott stansiyasına dəvətliyik, oranın rəisi bizi gözləyir.

Özümüzü qaydaya salaraq (bu şəraitdə özünü necə qaydaya sala bilərsən ki? 31 gündür ki, su üzü görməyən, pırpızlaşmış saçlarını səliqəyə salmağa çalışırsan, xeyli arıqlamış bədəndə çox yekə görünən, içinə qaz tükü doldurulmuş kombinezonun şalvarının qayışlarını daraldırsan və yola çıxırsan) Şona qoşulduq.

Amerika stansiyasının əsas binasına gedərkən, yenə də bir-birindən 70-80 m aralı olan, üstündə "Bura Cənub Qütbüdür" yazısı olan lövhələr sancılmış hər iki nöqtədən keçərək (1911-ci ildə Amundsen öz ixtiyarında olan cihazların köməyi ilə müəyyən etdiyi Cənub Qütbü - tarixi Cənub Qütbü sayılır. 60-cı illərin əvvəllərində isə daha müasir, daha dəqiq cihazların köməyi ilə müəyyən edilmiş real Cənub Qütbü isə ondan 70-80 m kənardadır) stansiyaya getdik. Amerikalılar öz stansiyalarının super modern binasını elə tikmişdilər ki, bu qütb nöqtələri düz o binanın qarşısına düşürdü. Stansiyanın və qütbün ətrafının təsvirinə biz hələ qayıdacağıq.

Hələlik isə missiyamızın, ekspedisiyamızın davamı haqqında. Stansiyanın giriş qapısında bizi 22-23 yaşlarında olan gənc bir xanım qarşıladı və içəriyə dəvət etdi. Biz tamburdan keçərək geniş və uzun bir koridora çıxdıq. Xanım bizi qarderob otağına gətirdi. Üst isti paltarlarımızı orada asılqandan asaraq onun ardınca getdik. Bir-bir stansiya-

da yaradılan kitabxana, istirahət otağı, idman zalı, laboratoriyalarla bizi tanış etdi. (Bütün bunlar haqqında dediyim kimi daha geniş danışacağıq). Sonra isə bizim lap ürəyimizdən olan bir iş tutdu. Bizi stansiyanın yeməkxanasına gətirdi. Yeməkxanaya çatdıqda girəcəkdə bizi xəbərdar etdi, "Amerika vergi ödəyənlərinə bu stansiya çox baha başa gəlir. Ən çox sərf olunan və nəticədə ən qiymətli başa gələn sudur. Ona görə də, qonaqlara əl-üz yumaq və s. üçün tualetlərdən istifadə etmək olmaz. O ki qaldı yeməkxanaya, burada sizi çay, kofe və şirniyyata qonaq edəcəklər. Yemək ancaq Amerikalı tədqiqatçılar üçündür. Xahiş edirəm nəzərə alasız". Buna da şükür!

Yeməkxanaya daxil olduq. Çox geniş, rahat və bir şəhər kafesinə bənzəyirdi. Pəncərələrindən baxanda uzaqdan bizim çadırlarımız da görünürdü. Mən böyük məmnuniyyətlə kafedə olanların bir çoxunun bu çadırların yanında (əslində çadırımızın yanında olmasına baxmayaraq bu uzaqdan seçilirdi) hündür görünsün deyə, xizəyə bağlanmış teleskopik çubuqdan asılmış, küləkdə dalğalanan milli bayrağımızı necə təəccüb və maraqla izlədiklərini seyr etdim.

## 5.1. "Marsdan gələn" azərbaycanlılar

Mənə elə gəlir ki, aylı-ulduzlu bayrağı burada görəcəklərini bu adamlar heç ağıllarına da gətirmirdilər. Fikirləşirəm ki, əgər pəncərədən başqa planetdən uçub gələrək yerə enən fəza gəmisini görsəydilər, bundan daha az təəccüblənərdilər. Açığı, onların üzlərindəki bu təəccüb və maraq dolu ifadəni görməkdən ləzzət aldım. Elə təkcə buna görə bir ay Antarktidanın buz çöllərində əziyyət çəkməyimizə dəyərdi!

Bizi boş bir masaya dəvət etdilər. Əslində bizim özü-

müzü də çox maraq və təəccüblə seyr edirdilər. Onlar hamısı çox səliqəli, üzləri təraş edilmiş və yaxud çox səliqəli saqqalları olan normal şəhər paltarında (stansiyanın içərisində müsbət 18°-lik temperatur təmin edilmişdi) idilər. Biz isə keçdiyimiz iztirablı yolların izlərini üst-başımızda, saqqal basmış üzlərimizdə, don vurmalardan yaralanmış barmağımızda, çuxura düşmüş və ətrafa acgözlüklə baxan gözlərimizdə əks etdirirdik. Kafeyə yeni girən hər kəs o saat bizi görür və bizə yaxınlaşırdı. “Siz həmin xizəkçilərsiz, eləmi?”, deyə maraq və heyranlıqla soruşaraq, bizə suallar verirdilər. Bu bizə bir az gülməli görünürdü. Çünki aylarla qütbdə yaşayan bu insanlar bizə lap elə kosmonavt kimi yanaşırdılar. Ən təəccüblüsü isə bundan sonra baş verdi. Bizə doyunca çay içməyə imkan verdikdən və adama bir neçə şirin qoğalı demək olar ki, çeynəmədən udduqdan sonra stansiyanın rəhbəri bizə yaxınlaşdı, bizi salamladı, nailiyyətimiz münasibəti ilə təbrik etdi və “Azərbaycandan olan xizəkçilər kimlərdir?” deyə, soruşdu. Biz təəccüblə ayağa qalxdıq. Onda o, bu vaxta qədər kənarda durmuş bir şəxsi yanına dəvət etdi və həmin şəxs bizə “Xoş bulduq, əfəndilər. Bən azərbaycanca konuşmuyorum, bunun üçün kusura bakmayın, ancaq düşünüyorum ki, siz türkcə anlıyorsunuz” dedi, və sonra da rusca əlavə etdi: *“Вы молодец! Очень, очень хорошо! Поздравляем!”*. Belə anlamaq olardı ki, Amerika stansiyasında artıq bilirdilər ki, gələnlərin içində Antarktida üçün öyrəncəli olmayan qeyri-adi bir ölkədən xizəkçilər var. Ona görə də, təəccüb və hörmət hissindən irəli gələrək, stansiyadan bir az türkcə, bir az rusca danışan bir nəfəri tapmış və bizi salamlamaq üçün onu görüşə gətirmişdilər.

İndi yadıma düşdü ki, biz çadırlardan çıxaraq stansiya-

ya yönəldiyimiz məqamda Şon “Pasportlarınızı özünüzlə götürün”, demişdi. Onda biz təəccüb və etirazla Şona “Pasportlarımız Patriot-Hillsdə qalıb, axı buz çölünün ortasına onları niyə götürməliydik ki?”, demişdik. Fikirləşirəm ki, yəqin amerikalılar əmin olmaq istəyirdilər ki, barələrində məlumat aldıqları şəxslər - yəni biz, elə bizik! Bəlkə elə bu türkcə-rusca danışma bir test idi? Onda mən ilk dəfə düşündüm ki, Amundsen-Skott stansiyası sadəcə, elə-belə Antarktidada tədqiqatlar aparmaq üçün yaradılan stansiya deyil. Çünki bizimlə türkcə danışan şəxs də ağzından qaçırtdı ki, türkcəni İncirlikdə öyrənib (Türkiyənin İncirlik hərbi bazası Amerika hərbi hava qüvvələri tərəfindən istifadə olunur).

## 5.2. Bir az Amundsen-Skott stansiyası barədə

Bu stansiyanın yeni binası birinci mövsümdür ki, istismar olunurdu. Stansiyanın işçiləri bizə bildirdilər ki, son 5-6 ildə tikintisi aparılan bu binaya 500 milyon ABŞ dolları vəsait ayrılıb. Nəzərə alsaq ki, söhbət 2000-3000 $m^2$ ərazisi olan bir binadan gedir və bina buzun üzərində metal dayaqlar üstündə metal karkasdan və taxtadan inşa olunub, başa düşmək çətin deyil ki, əsas xərclər texnoloji imkanlara yönəldilib. Biz stansiyada olarkən burada 262 nəfərin çalışdığını öyrəndik. Onların bir qismi elə həmin binada da yaşayırlar. Əksəriyyəti isə bu binanın ətrafında sıralarla düzülmüş taxta baraklarda və plastik çadırlarda yerləşiblər. Bu taxta baraklar və plastik çadırlar xüsusi, istini qoruyan konstruksiyalara malikdirlər.

Stansiyada üç elektrik stansiyası inşa edilmişdir. Elektrik stansiyalarının biri əsas, digərləri isə ehtiyat stansiyalardır. Buzun altında yerləşdirilməklə onlar soba yanacağı ilə işləyirlər. Təsəvvür etmək çətin deyil ki, bu yolla elektrik enerji-

si çox baha başa gəlir. Çünki soba yanacağını birbaşa təyyarələrlə Amerikadan gətirmək lazım gəlir. Bir qayda olaraq, bu stansiya ən azı bir illik soba yanacağı ehtiyatına malik olmalıdır. Üçüncü elektrik stansiyası isə taxta binanın orta sektorunun birinci mərtəbəsində yerləşdirilmişdir. Bu stansiya fövqəladə hallar üçün nəzərdə tutulmuşdur. Fövqəladə hallar dedikdə hansısa bir təsadüf ucbatından tutaq ki, yanğının baş verməsi kimi hadisələr nəzərdə tutulur. Aydın məsələdir ki, çöldə 40°-70° şaxta olarkən taxta binada yanğın nə qədər dramatik nəticələr verə bilər. Buna görə də, binanın konstruksiyası elə qurulub ki, belə hadisələr olarsa, binanın bütün seksiyaları avtomatik rejimdə aşağı enir, orta seksiya isə əksinə dayaqların üzərində bir neçə metr yuxarı qalxır və ətraf mühitdən izolə edilir. Fövqəladə hallar üçün nəzərdə tutulmuş elektrik stansiyası işə düşür. Fövqəladə hadisə baş verərsə, binada olanlar hamısı bir neçə dəqiqəyə özlərini orta seksiyaya çatdırmalıdırlar. Orta seksiyanın ikinci mərtəbəsində xüsusi ərzaq ehtiyatı və bir neçə gün təhlükəsiz yaşamaq üçün şərait vardı. Həmin müddətdə isə Amerikadan təyyarələr gələrək, insanları xilas etməlidirlər. Binanın ayrı-ayrı seksiyalarının ayrılmaq və izolə olunmaq imkanları yanğının bütün binaya yayılmasının qarşısını alır.

Dediyim kimi, stansiya çox geniş şəkildə yüksək texnologiyalarla təchiz olunub. Misal üçün insanların nəfəs alarkən ifraz etdikləri karbon-oksidi yenidən parçalanaraq təmizlənir və oksigen təkrar binaya verilir. Demək olar ki, bu bina gələcəkdə, tutaq ki, Marsda tikiləcək stansiyanın proobrazı və təlim variantıdır. İnsanlar həyat üçün təhlükəli ətraf mühitdən təcrid olunaraq, uzun müddət binanın içində normal yaşaya və işləyə bilərlər. Stansiyanın idman zalına bir çox peşəkar idman klubları da həsəd apara bilər. Stansiyanın istixanasında (binanın içərisində) orada yaşayan-

lar üçün göyərti, gül-çiçək yetişdirilməkdədir. Stansiyanın kitabxanasının maraqlı adı var - "Sakit otaq". Burada səs-küy salmaq olmaz. Qış mövsümində 6 ay günəş çıxmır, qaranlıq olur, şaxtalar mənfi 70°-ni ötür. Bu müddətdə stansiyada 20-25 mütəxəssis qalır. Onlar üçün belə şəraitin olması çox vacibdir.

Stansiyanın çölündəki barak və çadırlarda nisbətən qısa müddət üçün stansiyaya gələn mövsümi texniki işçilər qalır. Düzdür bu insanların şəraiti kirşəmizdə gəzdirdiyimiz çadırımızın ümidinə qalan bizlərə nisbətən xeyli yaxşıdır. Onların barak və çadırları sobalarla qızdırılır. Lakin, burada da xüsusi qaydalara riayət etməlisən. Əgər otağına və ya çadırına gələrək, paltarını çıxarıb yerə atmısansa, əmin ol ki, bir neçə dəqiqədən sonra həmin paltar buz bağlayacaq. Hətta ayaqqabılarını belə yerə qoya bilməzsən. Bu çadırların və barakların arxasında açıq şəkildə və taxta qutularla bağlanmış texnika, avadanlıq və daha nə bilim nələr sıralanmışdı. Bütün bunlar nəhəng bir zavodun həyatinə bənzəyirdi. Texnika bir qayda olaraq 60-70-ci illərin istehsalı idi. Çünki yeni traktorlar, ekskavatorlar və s. əsasən elektronika ilə işləyir. Bu şaxtalarda isə elektronika çalışmır. Buna görə də, sadə quruluşu olan mexaniki, etibarlı texnikaya üstünlük verilmişdir. Ehtimal edirəm ki, üstü qapalı olan iri qabaritli texnika və cihazların bir qismi hər ehtimala qarşı və ya sınaq üçün buraya gətirilmiş hərbi təyinatlı avadanlıq və texnikadan ibarətdir.

Ümumiyyətlə, stansiyada yerləşən laboratoriyalarda ifrat soyuqlara davamlı paltardan tutmuş, xüsusi cihazlara qədər hər şey sınaqdan keçir, yoxlanılır, dizayn edilir. Qeyd etməliyəm ki, stansiyanın bütün işçiləri çox işgüzar və eyni zamanda gülərüz idilər və stansiya çox yaxşı təşkil olunmuş bir müəssisəni xatırladırdı. Onun ətrafında bir neçə meteoroloji,

elmi və s. satellit stansiyalar da gözə görünürdü. Əsas binanın yanında gümüşü rəngə çalan, nəhəng günbəz formasında olan "Dom" deyilən (latın dilində elə günbəz deməkdir) stansiyanın köhnə binası yerləşirdi. Bu günbəzin vəzifəsi burada qalanları sadəcə öldürücü küləkdən qorumaq idi. İşçilər günbəzin içərisində taxta vaqon və baraklarda qızdırılan otaqlarda yerləşirdilər. Çünki prinsip etibarilə günbəzin içərisindəki temperatur çöldəkindən fərqlənmirdi. İndi həmin günbəz nəhəng ərzaq anbarı kimi istifadə olunurdu.

Lap uzaqda yerləşən iki obyekt var ki, onlardan birincisi kilometrdən çox uzanan məftil divardan ibarət antena idi. Bu antena divarının vəzifələri haqqında bizə heç bir şey demədilər. Bu barədə ancaq ehtimallar irəli sürmək olar. İkincisi isə "İce cube" (buz kubu) adlanan bir layihənin elementləri idi. Bu, binanın əks tərəfində, stansiyanın bir neçə kilometrliyində yerləşirdi. İsti su ilə qazılmış çoxsaylı quyularda (buzu qazımaq üçün ən effektli yol budur) cihazlar qurulmuş və bu cihazlar 1 $km^3$ buzdan keçən neytrinoları qeydə almalı idi. Fəza yaranarkən böyük partlayışdan sonra hələ də ətrafda qalmış və maddəyə çevrilməmiş "ilkin material" olan neytrinoların hərəkətini müəyyən elmi səbəblərdən şəffaf buzda daha asan qeydə almaq olur.

Elə bil ki, başqa bir dünyaya etdiyimiz iki saatlıq səyahət başa çatdı. Üst paltarlarını geyinmədən əlcəksiz gəzmək imkanı, normal kresloda oturmaq, normal masa üzərində normal qab-qacaqdan çay içmək və qoğal yemək qeyri-adi görünürdü bizə. Hətta televizora baxmaq və teleekranda hər 2 dəqiqədən bir çöldəki temperatur göstəricilərini izləmək, çöldə mənfi 45° temperaturun olmasını və saniyədə 16-20 m sürətlə külək əsməsini bilmək də. Sonra da bütün bu miraj qurtarır və bizə deyirlər, "Xoş gəldiniz!"



*60-80-ci illərdə istifadə edilən Amundsen-Skott stansiyası*




*1977-ci ildə stansiyada çalışan tədqiqatçıların fotoları*




***Roal Amundsen və Robert Skotta həsr olunmuş guşədə***




***Stansiyanın Tibb Mərkəzinin lövhəsi***



A member of the BUPA group

IHI TRAVEL INSURANCE

International Health Insurance danmark a/s

Policy No.: 8466125-2089

Insured person(s): Huseyngulu Bagirov

Date of Birth: 17.12.55

If you have any questions regarding your policy:
+45 33 15 30 99 or ihi@ihi.com

In case of hospitalisation or emergency:
+45 33 15 33 00 or emergency@ihi.com

| | |
|---|---|
| Issued: | 01.09.08 |
| Period: | 25.12.08 - 08.02.09 |
| Medical Expenses: | 100% per insured person |
| Cover: | Single Trip |

***Mənim sığorta kartım. Belə yürüşlər zamanı özünü sığorta etmək məcburidir***



***Stansiyanın istixanasında***



***Stansiyanın trenajor zalı***



***İdman zalında***



***"Sakit otaq" adlandırılan kitabxanada***



***"Sakit otağ"ın sakit guşələrindən birində***



***Stansiyanın mağazası. Gördüyünüz malları ancaq amerikalı tədqiqatçılara satırlar***



***Stansiyanın laboratoriyalarından biri***




***Bizi stansiya ilə tanış edən amerikalı xanımla***

## 6. BİZ BUNU ETDİK!

Çadırlarımıza qayıdırıq. Meteoroloji müşahidələrimizi apararaq nəticələrini qeydə aldıq. Sonra da fotoaparatlarımızı götürüb qütb nöqtələrinin ikisinə də getdik. Getdik ki, Azərbaycan bayrağını qaldıraq, üstündə Ulu Öndərimizin əksi və "Mən fəxr edirəm ki, mən azərbaycanlıyam!" sözləri yazılmış lövhəni tarixi və elmi qütblərə sancaq, bu məqamı foto və video materiallarda əbədiləşdirək. Bu məqamda mənim hansı hissləri keçirdiyimi təsvir etmək çox çətindir. Bu zaman mən doğrudan da bütün varlığımla fəxr edirdim ki, azərbaycanlıyam! Fəxr edirəm ki, bir azərbaycanlı olaraq bunu edə bildik! Fəxr edirəm ki, hamının təəccüblə seyr etdiyi aylı-ulduzlu bayrağımızı bu nöqtədə ucaya qaldırmışdıq! Bəli, biz bunu bacardıq! Heç kəs bizə yuxarıdan aşağı baxmasın!

Bu stansiyada çalışan 260 amerikalı təbii ki, böyük hörmət və ehtirama layiqdirlər. Lakin onlar buraya isti təyyarənin salonunda gələrək, isti və rahat binada çalışırlar. Biz isə buraya piyada gələrək, ancaq İlahinin dəstəyinə, bir də iradəyə söykəndik. Biz bunu bacardıq! Nəyisə birinci dəfə etməyin əhəmiyyətindən danışarkən məşhurlardan kimsə demişdir, "Deməli bunu etmək olar və bu istiqamətdə minlər üçün yol açılır". İndi, artıq bərkdən demək olar ki, azərbaycanlılar bunu edə bilirlər! İndi qoy başqaları da belə demək haqqını qazansınlar.

Aparatları əzizimiz kimi bağrımıza basaraq, çəkiliş nöqtələrinə apardıq. Sonuncu akkumulyatorlar, sonuncu çəkiliş imkanları verən dəqiqələr. Videokamera çalışmadığı üçün "Sony" fotoaparatının hərəkətli çəkiliş rejimində bir neçə dəqiqəlik film və çoxsaylı fotoşəkillər çəkə bildik. Çox soyuq idi. Çəkilişə sərf olunan bu 3-4 dəqiqədə elə donduq ki, tələm-tələsik qayıdaraq çadırlarımıza girdik. Külək elə güclənmişdi ki, çadırın yanında quraşdırdığımız bayrağımız əzəmətlə dalğalanırdı. Külək qarı çadırımızın üst qatı ilə iç qatı arasına doldururdu. Qısa zamanda çadırın iç divarları da buz və qarla örtüldü. İstifadəmizdə qalan yanacağı isə artıq qramlarla ölçmək olardı.

Ərzağımız tamam qurtarmışdı deyə ALE-nin ehtiyat ərzaq saxladığı kisəni axtarıb tapdıq. Kisə qara basdırılmışdı və üstündən də bayraq sancılmışdı. Kisəni tapmaqda bizə elə bu bayraq kömək oldu. Lakin, kisədə elə bir ərzaq yox idi. Dəmir qablarda öz şirəsində ananasdan və bir neçə paket hazır vermişeldən başqa. Deməli, yenə də qaldıq kiçilmiş, buz parçasına çevrilmiş sarı pendir qalıqlarının ümidinə.

## 7. YENƏ DƏ GÖZLƏMƏK

Şon stansiyada olarkən rəhbərlikdən "İridium" peyk telefonunun tamamilə boşalmış akkumulyatorunun doldurulması imkanını öyrənməyə çalışdı. Məlum oldu ki, Amerika vergi ödəyənlərinə çox baha başa gələn elektrikdən istifadə edərək, akkumulyatoru doldurmaq olmaz. Eyni zamanda başqa bir qaydaya görə, SOS siqnalı üçün telefon lazımdırsa, onda bu akkumulyatorun doldurulmasına köməklik göstərilməlidir.

Bir sözlə, günün axırına Şonun telefonu işlək vəziyyətə düşmüşdü və Patriot-Hillslə əlaqə saxlayaraq, ALE-dən icarəyə götürdüyümüz altı yerlik "Otter-Twin" təyyarəsini bizi qütbdən geriyə - Patriot-Hills stansiyasına aparmaq üçün çağıra bildik. Lakin, həddən artıq küləkli hava təyyarəyə imkan vermirdi ki, arxamızca gəlsin. Məcbur olub getdikcə sərtləşən çovğunlu havada bütün günü çadırlarımızda keçirməli olduq.

Elə bil ki, biz yox, əşyalarımız yorulmuşdu. Uzun müddət çadırlarımızda qalmağımızın nəticəsindəmi və yaxud başqa səbəbdənmi çadırın içi də qarla dolmuşdu. Əşyalarımızı çölə çıxardaraq, tələm-tələsik çadırdakı qarı təmizləməli olduq. Çadırın üst və iç qatının arası da bizim bütün təmizləmək cəhdlərimizə baxmayaraq, qar ilə dolurdu və çadırın divarları getdikcə ağırlaşaraq içəri sallanırdı. Bu bizim onsuz da darısqal çadırımıza daha kiçik və boğucu görkəm verirdi. İsinmək üçün içərisinə girdiyimiz yataq kisəsi də 5-10 dəqiqəyə bədənimizin istisi ilə isinmək əvəzinə sadəcə olaraq, rütubətli, demək olar ki yaş olurdu. Görünür soyuqla istinin sərhəddində formalaşmış

buz qatı yataq kisəsinin içərilərinə doğru xeyli yerimiş və möhkəm mövqe tutmuşdu. Nəticədə insan bədəninin istisinin təsiri altında biz maksimum ona nail olurduq ki, bu buz əriyib yataq kisəsini içəridən çox rütubətli edirdi. Deyim ki, bu o qədər də komfortlu deyildi. Demək olar ki, biz tədricən donurduq. Təyyarə isə gəlmirdi ki, gəlmirdi.

Növbəti gün - yanacaq qalıqlarının da tükənmək üzrə olan bir məqamında qarla, buzla, rütubətlə iliyə işləyən və beyni də donduran soyuqla mübarizədən yorulmuş halda, lakin hələ də yaxşı əhval-ruhiyyədə mən telefon sahibi olan Şonun çadırına yaxınlaşdım, zarafatla və ucadan ona dedim, "Şon, rica edirəm, bir daha bu ALE-yə telefon aç. Onlara de ki, Cənub Qütbündə iki qafqazlı müsəlman onların təyyarəsini gözləyir. Əgər təyyarə gəlməzsə, biz oraya gedəcəyik və gecikmənin səbəbini yerində aydınlaşdıracağıq". Çadırın içərisindən gələn qəhqəhəli gülüş zarafatın başa düşüldüyünə işarə idi. Deyəsən bu gün də burada gecələməli olacağıq. Bu müddətdə isə çadırın nazik divarlarını yarıb keçərək, qulağımıza çatan gurultu amerikalıların ağır təyyarələrinin heç bir küləyə baxmadan mütəmadi enməsini və qalxmasını göstərirdi.

Görünür amerikalılar bu bazadan əməlli-başlı istifadə edirlər.

## 8. GERİYƏ!

Axır ki, bu gurultu ilə müqayisədə milçək vızıltısına oxşayan bir mühərrik səsi də qulağımıza gəldi! Nədənsə düşündüm ki, bu bizim təyyarədir. Tələm-tələsik papaq və əlcəkləri geyərək çadırdan çölə çıxdım. Bu doğrudan da bizim təyyarə idi və pilotlar bizim halımıza acıyaraq, buz

üzərindəki enmə zolağına oturduqdan sonra təyyarəni sürüb düz bizim çadırlarımızın yanına gətirmişdilər. Bir neçə metr yaxınlaşsaydılar yəqin ki, çadırlarımız havaya uçardı. Tez çadırlar söküldü və təyyarəyə yükləndi. Buna 5 dəqiqədən çox vaxt sərf olunmadı. Nəhayət biz təyyarədəyik, havaya qalxırıq və Amundsen-Scott stansiyası üzərində bir dəfə dövr edərək, təyyarə qanadlarını sağa-sola yellətməklə, bu yerlərlə xudahafizləşir və biz geriyə uçmağa başlayırıq.

Eyni qayda ilə Tili dağlarında eniş, yanacağın doldurulması və yola davam. Biz heç təyyarədən düşmək belə istəmədik. Pilotların dediyinə görə şans var ki, elə bu gün Çiliyə uça bilək. Bu çox yaxşı xəbər idi. Ola bilərdi ki, biz öz təyyarəmizə də çataq və artıq yanvarın sonuncu günlərində Bakıda olaq.

## 8.1. Yenə də Patriot-Hillsdə

Nəhayət, Patriot-Hills stansiyasına çatdıq. Stansiya artıq xeyli kiçilmişdi, cəmi 5-10 çadır qalmışdı. Onlar da çox kimsəsiz görünürdülər. ALE-nin nümayəndəsi bizi əsas, ən böyük qərargah çadırına apardı. Orada bizi yaxşı bir sürpriz gözləyirdi. Baş masanın üstündə 6 nəfərlik yemək süfrəsi hazırlanmışdı. Masanın üstündə hətta şampan şərabı da var idi və bu şampan şərabının yanında kağız fincanlar yox, əsl şüşə bakallar düzülmüşdü. Lap elə Parisdəki kimi! Bizi həmin masaya dəvət edərək bildirdilər ki, ALE tərəfindən bizim şərəfimizə şam yeməyi verilir.

Yəqin ki, təəccüblənməzsiniz, əgər desəm ki, bu vaxta qədər yemək süfrəsinə bu qədər şad olmamışdıq.



***Tənhalıq qitəsi***



***Buz barxanları***



***İnsan nəfəsi görməyən dağlar***



***Çovğunun yaratdığı qar qəribəlikləri***



*İçərisində olduğumuz təyyarənin buz üstündə kölgəsi*




*Yanacaqdoldurma “məntəqə”si*



***Cənub Qütbündə son foto***



***Artıq bütün yüklərimiz "Otter Twin" təyyarəsindədir***



***Geriyə, Patriot-Hills stansiyasına uçuruq***



***Uğurlu yürüşümüzü qeyd etmək üçün ALE bizə qonaqlıq verir.***
***Hətta şampan şərabı da var!***



***Dünyanın ən tanınmış ekstremal səyahətçisi Cənubi Afrikalı, İsveçrədə yaşayan Mayk Hornla***



***Təntənəli şam yeməyi süfrəsi arxasında***

Burada bir gün yarım da gözləməli olduq. Məcbur olub çadırımızı da qurduq və bizi kiçik qərargah çadırlarının birinə təhkim etdilər. Həmin çadırı biz amerikalı səyahətçinin başçılıq etdiyi beynəlmiləl qrupla bölüşməli idik. Bu qrup Hollandiyadan olan bir xanımdan, İngiltərədən olan balacaboy, şişman daş karxanasının sahibindən və çox ekssentrik, nədənsə çox acıqlı bir polyakdan ibarət idi. Deməliyəm ki, ingilis çox mehriban, alicənab və sadə bir insan idi. Polyakla isə heç danışmaq mümkün deyildi. Hər bir dindirəni borclu çıxardırdı. Bu qrup Vinson dağına qalxmağa cəhd göstərmiş, iki dəfə aşağı düşərgədən yuxarı düşərgəyə dik buz yamacı ilə qalxmağa cəhd etmiş, ikisində də uğursuzluğa düçar olmuş, çox peşman geri qayıtmışdılar. Əhvalları da buna görə çox pis idi.

Bu fonda bizim həm Vinson dağına, həm də Cənub Qütbünə yürüşlərimizin uğurla başa çatmasının qədrini bir daha bildik. Hələ Amerika stansiyasında olarkən, burada bizimlə söhbət edənlər bir ağızdan qeyd edirdilər ki, oraya piyada, xizəklə gələn inkişaf etmiş qərb ölkələrindən olmayan ruslardan başqa ilk insanlar biz idik.

Düzünü deyim özümüzdən xeyli razı idik və qəribəsi o idi ki, kiçik qərargah çadırında qonşuluq etdiyimiz uğursuz qrupun üzvləri özlərini elə aparırdılar ki, elə bil ki, bizə də məğlub olublar. Elə bil ki, nə isə onların başını aşağı edib. Elə bil ki, biz onları özümüzə ram etmişik. Onların yerində olmaq istəməzdim. Lakin belə əhval-ruhiyyəni də düzgün saymıram. Bu insanlar cürət edərək, neçə gün idi ki, həyat üçün təhlükəli olan Antarktida mühiti ilə vuruşa-vuruşa çətin yollar keçmiş və sağ qalmışdılar. Əlbəttə ki, onlar ehtirama layiq idilər.

Nəhayət, "İlyuşin"in mühərriklərinin səsi gəldi, yır-yığış başlandı. Hələ iki gün əvvəl məlum olmuşdu ki, bizim yüklərimizin bir qismini ekspedisiyaya yanımda apardığım şəxs qara plastik torbaya yığıb. Lakin biz öz baqajımızı tapa

bilmirdik. Hər yeri axtardım. Təyyarənin kiçik salonuna bir daha baş çəkdim. Bizim yüklərimiz heç yerdə yox idi. Nəhayət gözüm Çiliyə göndərmək üçün hazırlanmış və içi tullantılarla doldurulmuş qara plastik çantalara sataşdı. Anladım ki, stansiyanın işçiləri bizim yükümüzü də tullantı hesab edərək, plastik çantanın içərisinə baxmadan tullantılar olan yerə ata bilərdilər. Bu ehtimalımı ALE-nin nümayəndəsinə bildirdim. Yarım saatdan sonra baqajımızı bizə təhvil verdilər.

## 8.2. Ekspedisiyanın son günləri: yenə də Punta Arenas

Dörd-beş saatdan sonra biz artıq Punta-Arenasda idik. Burada hava xeyli mülayimləşmişdi. Hətta nazik gödəkcə ilə də gəzmək olardı. Aeroportdan ALE-nin avtobusu ilə buraya ilk dəfə gələndə qaldığımız həmin mehmanxanaya gəldik. Geriyə, Bakıya dönməyə yır-yığış etməli, həm də öz reysimizə gecikdiyimizə görə yeni biletlər almalı idik.

Əvvəl gözümdə dağ kimi ucalan və həlli yolları aydın görünməyən Vinson dağına qalxmaq, Cənub Qütbünə piyada getmək vəzifələri artıq arxada qaldıqdan sonra, indi Punta-Arenas mənə tamamilə başqa cür göründü. Çox ürəyə yatan, açıq və mehriban insanları olan bir şəhərə geri dönmüşdüm.

İki gün burada keçirməli olduq. Gələcək yürüşlər üçün buradan xeyli yeni avadanlıqlar da aldım. Heyif ki, bunlar Antarktidaya gedən zaman bizdə yox idi. Bir müddətdən sonra artıq ölkəmə döndükdə Böyük Qafqazın zirvələrindən birinə qalxarkən, bu avadanlığı sınadım. Özünü çox yaxşı göstərdi. Lakin, Antarktida yürüşü zamanı belə yaxşı ləvazimatın və geyimlərin olmaması aktual deyildi. Artıq hər şey arxada qalmışdı. Bu şəhərdə isə, az da olsa qızdıran günəş, yaşıllıqlar, qaranlıq gecələr, duş otaqları, is-



***Punta Arenasda***




***Şəhərdən  daha bir görüntü***

Nəhayət Bakıya döndük. İnternet resurslarına göz gəzdirərkən aydınlaşdırdım ki, ekspedisiya xeyli beynəlxalq rezonansa səbəb olub. Azərbaycanın, azərbaycanlıların xizəklə Cənub Qütbünə gedib çıxması çoxlarının diqqətini cəlb etmişdi. Mən deyərdim ki, özündən razı "qabaqcıl" adlandırılan ölkələr üçün bu, əlavə bir siqnal idi. Yeni dövr gəlir, zaman dəyişir!

Düşünürəm ki, bir müddət bundan əvvəl Baltimorda keçirilən Antarktida Müqaviləsi ölkələrinin konfransında ABŞ-ın dövlət katibi xanım Hillari Klintonun Antarktida Müqaviləsinin üzvü olmayan ölkələrin, eləcə də rəsmi elmi tədqiqat stansiyalarında tədqiqat aparanlar istisna olmaqla başqa  şəxslərin Antarktidaya gedişinə məhdudiyyət qoymaq təklifi təsadüfü deyildi. Qısqanırlar, amma hər halda yeni dövrün gəldiyinə də reaksiya verirlər. Qazaxıstan xəbər agentlikləri də, "Azərbaycan Cənub Qütbündə!" deyə, məlumat yaymışdı. Onlarla başqa ölkələr kimi Qazaxıstanı da fərdlər maraqlandırmırdı. Onları maraqlandıran millətlərin yarışında Azərbaycanın irəli çıxması və özlərinin bu halda nə etməli olduqları barədə sual düşündürürdü.

Eşitdiyimə görə erməni mətbuatı da bu hadisəyə geniş yer verərək, ekspedisiyanın uğurunu gizlətmədiyi qısqanclıqla qarşılamışdı.

Ekspedisiyadan sonra xaricdə bir dəfə ezamiyyətdə olmuşam. Türkiyəyə - İstanbula konfransa getmişdim. Türk qardaşlarımızın reaksiyasından da hiss etmək olurdu ki, bu hadisə orada da qarışıq hisslərlə qarşılanıb.

Norveç dövlətinin səfiri mənimlə görüşmək istədi və görüşdü də. Çoxlu suallar verirdi və o cümlədən Azərbaycanın bundan sonrakı planları barədə, Antarktida ilə bağlı. Dedim ki, planlarımız ciddidir. Dedim ki, ümumiyyətlə bundan sonra bir çox məsələlərlə bağlı ciddi planlarımız olacaq!

Biz gəlirik. Ehey, eşidirsiz? Biz gəlirik!

# II HÍSSƏ.

# Əlavələr



*Əlavə 1.*

## 1. CƏNUBÍ AFRÍKA RESPUBLÍKASINDAN OLAN DONALD O KONNORUN GÜNDƏLÍYÍNDƏN

### 1.1. UZUN VƏ SOYUQ YAY MÖVSÜMÜ - CƏNUB QÜTBÜNDƏ YERLƏŞƏN VÍNSON DAĞLARINA XÍZƏKLƏ DIRMANMANIN SONUNCU MƏRHƏLƏSÍ

Cənubi Afrikanın bir çox sakinləri 26 dekabr 2008-ci il - ailə günündə istirahət edir və milad bayramından sonra yuxuya dalırlar. Bizim doqquz nəfərdən ibarət dəstəmiz bayram mövsümünə başlamaq üçün - Antarktidada Vinson

dağına dırmanmaq və Cənub Qütbünə qalxmanın sonuncu mərhələsini (dörd nəfər üçün)* həyata keçirmək məqsədilə Oliver Tambo hava limanında toplanmışdır.

Antarktidada yerləşən Vinson dağı Yer kürəsində mövcud olan yeddi ən yüksək dağ zirvəsindən biridir. Bu zirvə 4892 m (16049 fut) hündürlüyə malik olan, ən az fəth olunan və bu gün dırmanmaq üçün ən bahalı - böyük məsrəf tələb edən dağlardan biridir. Onun Elsuort diapazonunda Cənuba doğru 78° bucaq altında və 32` paraleldə, Qərbə doğru isə 85° bucaq altında və 37` paraleldə yerləşməsi oraya havadan və yaxud Patriot Hillsin Antarktida maddi-texniki təchizat və ekspedisiya bazası (ALE) vasitəsilə yetişməyi mümkün edir.

Bizim ekspedisiyamız Şon Disneyin "*Advençers Daynamik*" şirkəti tərəfindən təşkil olunmuşdu. Vinson dağının zirvəsinə çatan Şon 1999 və 2003 illərdə bu cür ekspedisiyaya rəhbərlik etmişdi. Şonu da daxil etməklə qütbdə xizək sürmə imkanı hamı üçün ilk kəşf olmalı idi. Biz əvvəllər birlikdə bir dəstə şəklində dağlara dırmanmasaq da, hər birimiz əvvəlki ekspedisiyalar zamanı Kartenza Piramidası, Denali, Elbrus kimi zirvələrin çətinlikləri ilə qarşılaşmışdıq.

Mənim "qeydiyyatım" 2007 ilin sentyabr ayında Kartenza Piramidasına dırmanmaqdan sonra həyata keçirildi. Bu ekspedisiya da Lans Mets, Ceyson Qrov və Mendi Ramsdenin iştirakı ilə *"Advençers Daynamik"* şirkəti tərəfindən təşkil olunmuşdu.

Bizim Antarktida marşrutumuz San-Paulo və Santyaqodan keçərək Çilinin cənubunda yerləşən Punta-Arenasa kimi davam edir. Punta Arenasa səfər mənim ekspedisiyam üçün sarsıntı ilə dolu başlanğıc oldu və buna da səbəb hər

---

* Ekspedisiyanın CAR-dan olan digər üzvləri Vinson zirvəsinə yürüşdən sonra geri qayıtmalı idilər

hansı bir uçuş qorxusu deyil, yük üçün nəzərdə tutulmuş zəncirdə zəruri ləvazimatın itməsi oldu.

Aviaşirkətlər ekspedisiya ilə bağlı məsuliyyəti daşımaq üçün yaradılmamışdır və bu aviaşirkətlərdə əlaltı ləvazimatlar üçün tətbiq olunan məhdudiyyətlər mövcuddur. Halbuki, bu kimi vəziyyətlərdə müntəzəm istifadə olunan ayaqqabıları və qütbdə geyinilən paltarları əl altında saxlamaq gərəkdir. Nəinki Punta-Arenasda, istənilən yerdə itirilmiş yük, ekspedisiyanı başlamamış tamamlaya bilər. Xoşbəxtlikdən, bu halda sarsıntı yersiz idi.

Barend Elbrext (Sedton şəhərinin keçmiş sakini, hal-hazırda isə Böyük Britaniyada alpinist işləyən) bizə Santyaqoda qoşuldu. O, Vinson dağına səfərə rəhbərlikdə Şonun köməkçisi idi. Punta-Arenasda biz ekspedisiyanın sonuncu üzvləri ilə - Azərbaycan Hava və Ekstremal İdman Növləri Federasiyasından Hüseyn Bağırovla və ekspedisiyanın ikinci üzvü ilə görüşdük.


**Manufacturers and Suppliers of:**

- Resin / Cement rock bolt and anchor capsules
- Ground consolidation and water sealing injection materials
- Thin spray liners
- Pumpable support grouts
- Chemical and aerated cement cavity fill foams
- Specialised backfill formulations
- Blast hole stemming
- Pumps and accessories
- Autorock Drills - Manufacture and Repairs


MINOVA

Minova RSA
Trading name of Stratabolt (Pty) Ltd
Cnr.Anvil & Brewery Roads
Isando
P.O. Box 52
Isando, 1600, South Africa
Tel: +27 11 923-1900
Fax: +27 11 923-1935
Email: info@minovarsa.co.za
www.minovainternational.com

Donald O'Connor
Director

Direct Line: +27 11 923-1905
Cell: +27 82 900 4626
E-mail: donald.oconnor@minovaint.co.za

ORICA
Solutions from Materials Technology
A member of the Orica Group






MILLET







Punta-Arenas təqribən 100 il bundan əvvəl yun emalı ilə məşğul olan və bu məşğuliyyət növünün hesabına çiçəklənən çox da böyük olmayan qədim əyalət şəhəridir. Bu şəhər Antarktida tədqiqatları üzrə tarixi ənənələrə malikdir. Ernest Şakleton Slon adasında yubanıb qalmış ekspedisiya iştirakçılarını xilas etmək üçün 1916-cı ildə Punta-Arenası *"Yelcho"* adlı kiçik bir paraxod ilə tərk etmişdi. Onun məskunlaşdığı mehmanxana (ümidsizlik anında özünə revolverdən atəş açdığı mehmanxana) atılan güllənin divardakı dəliyini bu günə kimi qoruyub saxlayan muzeydir. Bu gün Punta-Arenas Cənubi Atlantikada okeanoqrafiya tədqiqatları, Antarktika turizm dəniz səyahətləri, Antarktika yarımadasında elmi tədqiqatlar və Patriot Hillsdə yerləşən ALE bazalarına uçuşlar üçün çıxış nöqtəsi olduğu üçün biz bu yerdəyik.

Antarktida - sonuncu, həddən artıq soyuq, uzaq və ekstremal hava şəraitinin mövcud olduğu bir qitədir. Bu məsələyə qeyri-ciddi münasibət bəsləyə bilmərik. Bizə 2008-ci il, 28 dekabrda keçiriləcək brifinqdə iştirak etmək təklifi ilə müraciət olunmuşdu. ALE prezidenti Peter Medovele bu qeyri-hökumət ekspedisiyalarını davam etdirmək üçün bizə təhlükəsizlik, məsuliyyət və sağ qalmaq ilə bağlı qaydaları izah etdi. Bu qitədə fəaliyyət Antarktida Müqaviləsi ilə tənzimlənir və bu Müqaviləyə əsasən Antarktida hər hansı müstəmləkə iradları üçün predmet deyildir və ora, elmi tədqiqatların həyata keçirilməsi üçün toxunulmaz ərazi olaraq qalır. Bizim ekspedisiyamız kimi qeyri-hökumət ekspedisiyaları insanı çaşdırır və zibili yığışdırmamaq kimi sadə pozuntu halları ümumilikdə ekspedisiyanın bağlanmasına gətirib çıxara bilər. Bu baxımdan qaydalar ciddidir: nəyi özümüzlə götürürüksə mütləq

geriyə qaytarmalıyıq (o cümlədən də bütün tullantıları), istənilən geoloji nümunələri məhv etmək qadağandır, bəzi regionlara isə ümumiyyətlə daxil olmaq mümkün deyildir.

Xizəkçilərin qütbdə soyuqdan xəsarət alması kimi halların qarşısının alınmasına dair ikinci brifinq təşkil olunmuşdu. Burada donmuş əllərin, don vurmuş üzlərin və yara tökmüş baldırların tibbi vəsaitlərdən götürülən yox, sonuncu ekspedisiyalar zamanı lentə köçürülən dəhşətli görüntülər nümayiş etdirildi.

Bu real təhlükə idi: kameranın batareyasını dəyişmək üçün yalın əlləri cəmi iki dəqiqə ərzində soyuğa və küləyə məruz qoymaqla, barmaqlarınızı itirə bilərsiniz! Üz nahiyəsinin müdafiəsi, kirşələrin taxılması və hər hansı bir işi əlcəklərdə yerinə yetirməklə bağlı tövsiyələr verildi. Paltarın qalınlığı ilə bağlı məsləhətlər və "Tərləsəniz - ölərsiniz!" kimi xəbərdarlıqlar səsləndi.

Nəzərdən keçirilməsi böyük əhəmiyyət kəsb edən daha bir amil, hava şəraitinin yaratdığı maneədir. ALE təsdiq etdiyi kimi Antarktidaya və geriyə doğru istiqamətdə reyslərin qrafikinin 85%-i gün ərzində fasilələr ilə həyata keçirilir. Ekspedisiyada ərzağın kifayət etməsi üçün biz 10 gün ərzində ərzaq ehtiyatı əldə etməyə məcbur olduq. Brifinqin başa çatmasından sonra Bred Klark və mən, Şona və Barendə yerli supermarketlərdən bazarlıq etməkdə yardımçı olduq. Nəticədə bizim Yeni il üçün qarğıdalı çörəyindən, yemək çeşidlərindən və Çili şərabından ibarət yeşikləri də daxil etməklə altı araba ehtiyat ərzağımız var idi.

Dekabr ayının 28-i tərəzidə 1600 ədəd ləvazimat çəkildi. Daha sonra biz gözləmə mərhələsinə qədəm qoyduq. Əvvəlki dəstə 13 gün gözləmişdi. Gözləmə müddəti 29 dekabra kimi davam etmişdi. ALE bazasının mehman-

xanadan komisyon haqqı almaq və İL-76 təyyarələrinin xəyal olmaları ilə bağlı zarafatlar mütəmadi xarakter alır və artıq yumor hissi itirdi. Ayın 30-u, saat ikidə "İki saata toplanın!" məzmunlu zəng oldu! ALE bunun səfərlə bağlı zəmanət olmadığını açıq-aydın bildirsə də, biz səfər etməyə hazır idik...

Biz qütb paltarlarını geyinmiş halda (Punta-Arenasda 15° istilikdə də tərləyərək) hava limanına yollanan avtobuslarda gözləyərək (biz bu icazələrin kim tərəfindən verildiyini indiyə kimi bilmirik), kimin isə "Yola düşün!" deməyini gözləyirdik. İL-76 təyyarəsi yanacaq ilə dolduruldu və təqribən axşam saat 8-də biz təyyarəyə əyləşdik. O zaman qarşılaşdığımız ilk interyer "funksional" kimi təsvir olunması məqsədəuyğun olan dəmir pilləkənlər oldu.

Aviaşirkətlərdə olduğu kimi (ekonom-dərəcə) oturacaqların sıraları ön tərəfdə quraşdırılsa da, sərnişinlər bu təyyarədə əsas heyət deyildi. Yalnız bir təsadüfi pəncərə var idi və yük bölmələrinin yerində səyahət üçün əlavə kranlar yerləşdirilmişdi. Oturacaqların arxasına külli miqdarda yük, o cümlədən də bizim ləvazimatlarımız yerləşdirilmişdi. Fotoşəkillər bəzi üzvlərin uçuş təcrübəsinin yoxluğu nəticəsində yaranan həyəcanı əks etdirirdi. Mən bir qədər kobud Rusiya avialaynerlərində və hərbi-nəqliyyat təyyarələrində uçduğum üçün bu hal məni daha az heyrətə salırdı.

Ön arakəsmədən yuxarıda qoyulmuş dini simvol gözümüzə dəydi. Bu məni, 1970-ci ildə *Saaf Hercules* nəqliyyat təyyarəsi vasitəsilə səmaya qalxdığım andan etibarən dünyanın nə qədər dəyişməsi barəsində düşünməyə vadar etdi - sovet konstruktoru nə zamansa onun qurduğu təyyarənin qərbin sərgüzəştsevərlərini xaçpə-

rəst müqəddəsin nəzərləri altında daşıyacağını təsəvvür edə bilərdimi?

Salonda "qulaqlıq"ların olmasına baxmayaraq, kabinədə mühərrikin yaratdığı səs söhbət zamanı maneə yaradırdı. Təyyarənin diqqət mərkəzində olan hissələrinin öyrənilməsindən sonra, mən uçuşun qalan saatlarında mürgü döydüm.

Təqribən dörd saatdan sonra yükə görə məsuliyyət daşıyan şəxs (ingilis dilində danışmayan) ağır müdafiə kombizonunu geyindi və Patriot Hillsə (cənubdan 80° bucaq altında 18` paraleldə və qərbdən 81° bucaq altında 21`paraleldə) çatdığımız üçün bizə geyinmək göstərişi verdi.

Təyyarə bərk, mavi buzun üzərinə endi. Təkərlərin demək olar ki dartı qüvvəsi yox idi və buna görə də təyyarə dayandı, mühərriklərin dartı qüvvəsinə nəzarət altında idarə olundu. Təyyarənin mühərriklərinin dartı qüvvəsinə nəzarət altında idarə olunması ixtisaslaşdırılmış eksperimental bacarıq olub, mühərrikin xüsusilə əks dartı qüvvəsi vəziyyətində olması zamanı tətbiq edilir.

Təqribən sübh çağı biz ALE-nin düşərgəsində bir kilometrə qədər uzanan sürüşkən mavi buzu keçərək sonuncu qitəyə ilk addımlarımızı atdıq. Mən qalın paltara daha tez öyrəşdim. PHD altında pencək və şalvar həddən artıq isti idi və havanın hərarətinin 0° C olmasına baxmayaraq gəzintinin sonunda mənim köynəyim tər içində idi. Antarktidaya ilk dəfə ayaq basan hər kəsə edilən "Tərləsəniz - ölərsiniz!" xəbərdarlığını xatırladım. Növbəti gün hava şəraiti daha da pisləşdi və Patriot Hills düşərgəsi yaxın bir həftə ərzində bizim evimizə çevrildi.

On iki nəfər bir həftə heç nə etmədən sağ qalmağa necə müvəffəq oldu? Biz kart oynayır (bir neçə yüz dəfə), kitabları təkrar oxuyur, ALE-nin əsas çadırında Yeni İli

bayram edir, ALE əməkdaşlarının məruzələrini dinləyir və Çili şərabı içirdik. Patriot Hillsə qalxaraq ləvazimatları sınaqdan keçirirdik. Ceyson ekspedisiyaların məlumat blokunu bərpa etmək üçün evə zəng etdi. Hər gün biz perspektivlərə həsr olunan brifinqləri gözləyirdik. Əksər günlər özümüz üçün işləyə bilirdik, hava isə buludlu və küləkli idi. Patriot Hillsdə, Vinson düşərgəsinin bazasında hava mülayimləşsə də, hələ də duman müşahidə olunurdu. Hava haqqında məlumat Antarktidada günəşdən müdafiə edən eynəyin, qara eynəyin taxılması və daimi gün işığına öyrəşmə qaydaları qədər ən vacib amil idi.

Peşmançılığa baxmayaraq, biz komunal çadırlı, sobalı və ayaq yolu olan bazada yaşayan bəxtəvərlərdən olduğumuzu anlayırdıq. Vinson baza düşərgəsində bir zamanlar alpinistlər olsalar da, onlar yalnız iki nəfər üçün nəzərdə tutulmuş çadırlarda yaşayırdılar.

**1-ci gün. 6 yanvar 2009-cu il.**

Nəhayət ki, hava həm Patriot Hillsdə, həm də Vinson dağındakı düşərgədə də aydınlaşdı. İlk öncə Otter qardaşları qütbə bir neçə yürüş etməli oldular və yalnız axşam saat 9-da düşərgə Vinson dağı boyu hərəkətə keçdi. Şon, Ben, Bred və Rudolf ilk uçuş zamanı, qalanları və mən isə saat 11-də yola düşdük. Yeni reys geri qayıdan alpinistləri gətirdi və biz sərhədi keçərək onlar ilə görüşən zaman aramızdakı fərqi hiss etdik. Həqiqətən də işi görmüş və görməyə borclu olan tərəflər arasında fərq böyükdür. Uçuş Antarktidanın gözəl mənzərələri - Elsuort dağ silsiləsini təşkil edən təpələrdən, zirvələrdən yaranan təhlükəli uçurumları və qar təbəqəsi ilə örtülən geniş çölləri ilə göz oxşayırdı.

Uçuşun sonuna yaxın sağ tərəfdəki təpələr təyyarədən də hündürdə görünürdü. Bu Vinson dağ massivi olsa da, pəncərələri örtən buz, dağa daha diqqətlə tamaşa etmək imkanı vermədi.

Dar keçiddən uçan təyyarə gözlənilmədən sağa döndü və Vinson baza düşərgəsində (cənuba doğru 78° bucaq altında 32` paraleldə və şimala doğru istiqamətdə 86° bucaq altında 00` paraleldə, hündürlük 2480 m) *Branscombe* buzlağının üzərinə oturdu.

Baza düşərgəsində 2007-ci ildə *Carstenz Pyramid* səfəri zamanı bizlərdən bəziləri ilə görüşən menecer Skott Voolumsa rast gəldik. Düşərgə buzlağın "ayağı altında" yerləşirdi və onun yamacları şərqdən qərbə doğru göz işlədikcə uzanırdı. Bizim ilk planımız buzlağa yollanmaqdan ibarət idi. Bütün bunlarla yanaşı biz, gecə soyuğunda dağa qalxmağın neçə çətin olduğunu bildiyimiz üçün düşərgəni səhərə kimi yığışdırmadıq.

**2-ci gün. 7 yanvar 2009-cu il.**

Buzlağın üzərindən şərqə boylanarkən yamacların arxasında itən yolun bir hissəsini görə bilirdik.

Daha sonra Vinson dağ massivinin üzərindən və arxasından görünən sıldırım daş-buz uçurumu gəlirdi.

Səhər saat 11-də bizim dağa dırmanmağımız başa çatdı və biz yolun sonuna çatdıq. Yol buzlaqdan keçirdi və dörd nəfərdən ibarət dəstədə kəndirlə aşağı enmək üçün hər kəs özü ilə çanta və xizək daşıyırdı. Xüsusi ləvazimatlara çadırlar, sobalar, həmçinin 10 gün üçün nəzərdə tutulmuş qida məhsulları və yanacaq da əlavə olunmuşdu. Yüklərin 40%-ni çantalara bölüşdürmək, qalanlarını isə xizəklərdə daşımaq haqqında qərar verildi. Mən dağ paltarı-

mı - içi hava ilə dolu şalvarı və nazik küləkəleyhinə qore-teks jileti, üstündən isə yüngül köynək və *long-johns* geyindim. Ayaqqabı üzlənmişdi, müntəzəm şəkildə istifadə olunan altlığının altı dəmir tikanlı *Olimp Monse* ayaqqabılarının altlığına isti corablar qoyulmuşdu.

Mən Şon, Lens və Ceyson ilə birlikdə birinci dəstənin tərkibində idim. Şon digər dəstələri qabaqlamaq və düşərgə üçün ən münasib yer seçmək üçün sürətlə hərəkət edirdi. Mənim hələ Denalidən xizək sürmək təcrübəm var idi, bu da aşağı səviyyələrdə və yüngül yüklə çox da çətin deyildi (amma bura qədər). Yumşaq qar da bizim əksimizə işləyirdi, bunun nəticəsində isə bizim xizəklər daha ağırlaşır, qar hissəcikləri isə daha da artırdı. Havanın təmiz və aydın olmasını gözləmək də xeyli vaxt apardı.

Qalxdığımız yerin birinci hissəsi sıldırımlı yollarla əhatə olunmuş buzlağın yanında idi. Ən çətin hissə isə buzlağa tərəf sola dönəndə idi. Şonun dediyinə görə, düşərgə əsas buzlağın yolundadır. Eniş daha da düz oldu, amma düşərgə heç görünmürdü. Antarktidada məsafələr aldadıcı da ola bilər. Saat 16-00 radələrində aşağı düşərgənin qarla örtülmüş divarı göründü və biz ancaq saat 5-də öz düşərgəmizi (dəniz səviyyəsindən 300 metr hündürlükdə) qura bildik. Ancaq bundan sonra, biz öz yüklərimizi yalnız kürəklərimizdə qaldırmalı idik, çünki xizək üçün bura çox dik idi.

Növbəti günün tapşırığı gözə görünməz cığırla müəyyən edilmiş daş divarın yuxarı hissəsinə doğru qalxmaq idi. Müəyyən edilmiş xətt divarın buzla örtülmüş hissəsində 45 dərəcə altında, 1200 metr hündürlükdə yerləşirdi.

**3-cü gün. 8 yanvar 2009-cu il.**

Məqsədimiz müəyyən edilmiş yerdə öz ləvazimatları-

mızı qoymaq və aşağı düşərgəyə doğru irəliləmək idi. Bu bizim yükümüzü iki dəfə azaltmalı və yuxarı qalxmağa bir dayaq olmalı idi (baxmayaraq ki, aşağı düşərgənin hündürlüyü 2800 metr idi, təzyiq isə tez-tez aşağı düşürdü və bu da hər 1000 metr qalxdıqca orqanizmdə öz əksini tapırdı).

Mən səhər erkən, düşərgəyə gün düşməmiş qalxdım. Kölgədə elə soyuq idi ki, ayaqlarım donurdu və baxmayaraq ki, mən əlcək geyinmişdim, məcbur olub üstündən isti bir şey də geyindim. Günəş altında yuxarı qalxmaq daha sərfəli idi.

Biz müəyyən edilmiş xətlə yuxarı doğru jumars (qayışlı, su keçirməyən torba) və karabinlərdən (zərbəyə davamlı bərkitmə) istifadə edərək qalxmağa başladıq. Kanatla qalxmaqda mən, Ceyson, Lans və Şonla birgə idim: ən gənc və ən yaşlı insanlarla birgə. Əvvəl tempimiz bir qədər canlı idi, bəzən dayanacaqlar edirdik, çünki komandanın hər bir üzvü lövbərə çatanda öz jumarsını digərinə ötürürdü. Dayanacaqlar çox ürək açan idi. Belə ki, biz daha da yuxarı qalxa bilirdik. Elə bizim qarşımızda digər bir qrup qayanın birinci hissəsinə gəlib çatdı, demək olar ki, bu yolun 3/4 hissəsi idi. Bu *lanç-taym* bizim qısa və əsas məqsədimiz idi.

Mən bu dar və qayalarla dolu yollarda qısa istirahətə çox sevinirdim, çünki növbəti meydançalarda tez yorulurdum. Birinci qrup öz yükünü lanç-taymda boşaltdı və aşağı düşməyə başladı, amma Şonun planı yükümüzü daha yuxarı yığmaq idi, çünki biz yükümüzü görünən qayaya tərəf aparırdıq. Qayaların altında yığışaraq öz yerimizi tapdıq və şəxsi əşyalarımızı gizlətdik. Ən pisi o idi ki, müəyyən edilmiş xətt yuxarıya doğru uzanırdı. Mən bu gün özümü elə də yaxşı hiss etmirdim və ümid edirdim ki, növbəti dəfə eyni yerə gedəndə mühitə uyğunlaşma daha da asanlaşar.

Müəyyən edilmiş xətlə eniş tez yerinə yetirilirdi - təhlükəsizlik baxımından ipi çiyinlərə dolamaq və aşağı düşmək lazım idi. Müəyyən edilmiş xəttə çatanda birdən Lansın kamerası kəmərdən çıxdı və aşağı sürüşdü. Bu onu göstərirdi ki, eniş çox dik idi və müdafiə tələb edirdi, lakin bizi heç nə saxlaya bilmədi, çünki əsas məqsədimiz yuxarıya qalxmaq idi.

**4-cü gün. 9 yanvar 2009-cu il.**

Aşağı düşərgədə istirahət günü. Biz özümüzə gələnə və yeməyimizi təmin edənə qədər digər qruplar da yuxarı düşərgəyə qalxdılar.

Yolun başındakı qayalar əyilmişdilər və nəhəng ilbizlərin evlərinin qabıqlarına bənzəyirdi. Təəssüf ki, günəş olmadığından şəkil çəkmək mümkün deyildi. Hava çox gözəl idi - görəsən yuxarı qalxana qədər belə qalacaqmı?

**5-ci gün. 10 yanvar 2009-cu il.**

Hava şəraitində yeganə dəyişiklik əsən meh idi. Biz daimi və dəyişməyən xətt üzrə bütün yolu qalxmalı idik, bundan sonra yuxarı düşərgəyə keçə bilərdik. İstirahət günü mühitə yaxşı uyğunlaşmağımız və əsən xoş meh hərəkətimizi yaxşılaşdırırdı. Lakin, sonuncu və sınaqdan çıxmamış təsbit edilmiş xətt bizi də yorurdu. Buza tərəf dioqanal şəkildə bağlanmış iplər isə yolumuzu daha da çətinləşdirirdi.

Həmin bu yolun başlanğıcında kimsə fikirləşə bilərdi ki, bu günə artıq iş görülüb - amma bu heç də elə deyildi. Sanki yuxarı qalxan yol sonsuz idi. Buzlaqlarda parçalanma yolumuzda daha da narahatçılıq yaradırdı.

Yuxarı düşərgə yeməyin qoxusu gələnə qədər görün-

məz idi və biz sıralardan keçərək qurulmuş çadırlara gəlib çatdıq. Yumşaq çökəklikdə, 10 metr arxamızda olan buzlaqda ucalan qayalıqda yerimiz çox rahat idi (78°30` C., 85° 44` Q., 4230 m). Mən qıraqla gedirdim. Mənzərəni təsvir etmək mümkün deyildi. Bizdən 1400 m aşağıda kiçik düşərgə görsənirdi. Brasncombe buzlağındakı sahələr hamar buzla örtülmüşdü və "zastruqa" sağdan sola doğru uzanırdı. Mən döndüm ki, buzla örtülmüş düzənliyə və təpəyə doğru aşağı düşüm. Hətta şəkillər belə bu haqda heç nə deyə bilməz - orada olmaq lazımdır ki, aydın səmada parlaq günəşlə işıqlanan bu mənzərəni qiymətləndirə biləsən.

**6-cı gün. 11 yanvar 2009-cu il - zirvəyə çatdığımız gün.**

Biz, üç-dörd nəfərdən ibarət dəstə, səhər saat 11-00-da günümüzü kanatla başladıq. Mən yenə də Ceyson, Lens və Şonla birgə idim. Hava arzuladığımız kimi aydın, təmiz və küləksiz idi. Yüksəklikdə ürəyim bulanırdı. Səhər bir fincan sıyığımı belə içə bilməmişdim. Əsas olan bütün günü buna tab gətirmək idi. Yüksəklikdəki soyuğa tab gətirmək üçün mən PHD şalvarımı geyindim. Qore-teks nazik gödəkcəmi geyindiyimə görə köynəyimi özümlə daşıyırdım.

Yol, Denalidə olduğu kimi bambuk ağacları ilə qeyd olunmuşdu. Təqribən bir kilometr sahədə eniş o qədər də sərt deyildi. Sonra yol düzələrək, Vinson dağının ətəklərinə tərəf əyilən geniş buz dərəsinə tərəf aparırdı. Biz, irəlidə - Vinson dağının ətəkləri ilə - qərb cinahında çox da böyük olmayan yüksəkliklə yavaş-yavaş yuxarı qalxan daha bir qrup görürdük. Dərədən yuxarı qalxdığımız zaman tempimiz zəiflədi və dayanacaqlarımızın sayı artdı. Yüksəkliklərdə külək hiss olunmağa başladı. Mən əlcəklərimi geyindim və üzümə balaklavanı (üz üçün maska) keçirdim.

Yuxarı qalxan yol massivin arxa tərəfindən keçirdi və bu yol dağ silsiləsinin zirvəsinə aparırdı. Mənim buz eynəklərim balaklavadan tərləyərək nəm olduğundan, qalxmaq daha çox narahatlıq yaradırdı. Nə qədər silsəm də, buzu təmizləyə bilmirdim. Görmənin zəifləməsi sürətimi azaldırdı və dağın ən dik hissəsində səndələməyə başladım.

Orada sərt şəkildə dağ silsiləsinin zirvəsinə aparan çoxlu sayda yanlış yollar var idi. Biz öz paketlərimizdən hər şeyi çıxartdıq və qayanın zirvəsinə doğru irəlilədik. Yuxarıya - dağ silsiləsinin ən yüksək nöqtəsinə baxanda, o çox uzaqda görsənirdi. Bunu mənim görməmdə olan zəiflik daha da çətinləşdirirdi. Biz yolumuzu dalğavari dağ silsiləsi ilə davam etdirirdik. Birdən Şon qarşıda, dağ silsiləsinin təpəsinə aparan yolun yarısında görünərək əlini triumfla qaldırdı. O haqlı idi. Baxmayaraq ki, Kris Boniqtonun öncəki fəthindən qalan izlər görünmürdü - biz zirvəyə çatmışdıq! Güclü külək əsirdi və bizim açmaq istədiyimiz ilk bayrağı külək apardı, ikincisini bütün kənarları boyu tutub saxladıq. Antiklimatik zirvəni fəth etmək çox təsiredicidir. Onun fəth edilməsinə bütün gücünü sərf etdikdən sonra yalnız bir neçə foto, qarşılıqlı təbriklər üçün vaxt qalır. Bir neçə dəqiqədən sonra isə aşağı enmək zamanı gəlir.

Vinson dağı istisna deyildi - görüntülər sarsıdıcı idi. Mən heyrət içində olsam da, indi yalnız enməyə doğru aparan GPS nöqtə ilə aşağı enmək və küləkdən mümkün qədər qorunmaq barədə düşünürdüm. Biz qarşıdakı üçlüyü keçərək əsas qrupdan bir saat əvvəl yüksəkliyə yetişdik.

100 %-lik nailiyyət əldə edə bildik. Öz paketimə çataraq xizək eynəklərimi və "qorilla" maskasını bura qablaşdırdığımı xatırladım. Onları balaklavanın və buzlamış eynəklərin əvəzinə geyinmək qaranlıqda işığın yandırılmasına bənzəyirdi.












O qədər böyük fərq var idi ki, mən daha yüksəyə - dağa qalxdıqdan sonra düşərgəyə saat 9-a yaxın yetişdim. Düşərgədə güclü soyuq hiss elədim - bütün qalxma müddətində mən yalnız indi köynəkləri bütün yolu özümlə daşıdığıma sevindim. Bu zamana qədər Şon düşərgəyə dönən sonuncu iştirakçıları müşayiət edirdi. Özümü yaxşı hiss edirdim və səyahət boyunca ilk dəfə iştahla yeməyə hazır olduğumu hiss etdim.

**7-ci gün. 12 yanvar 2009-cu il.**

Aşağı düşərgəyə bizim ağır yüklərimizlə enmə daha tez oldu. Qeyd olunmuş xətlər üzrə enmə suluqlar yaradırdı. Aşağı düşərgədə biz tam olaraq saat 06-00-da bazaya dönmək üçün yüklərimizi xizəklərə qoyduq. Həmin gün yalnız bir "Otter Twin" gəldi. Burada dörd yer var idi. Bu yerlər "Sonuncu fatehlər" üçün idi. Şon, Ceyson və azərbaycanlılar gəlib çıxana qədər (bir neçə saat) mən qal-

maq qərarına gəldim. Həmin günün əvvəli, sonrakı mərhələdə də xizək sürmənin davam edəcəyindən ehtiyatlanırdım, çünki mənim barmaqlarım donmuşdu. Bu haqda düşünsəm də, davam etmək qərarına gəldim. Əslində Antarktidanın iqlimini nəzərə alsaq, bu axmaqlıq idi. Növbəti təyyarənin gəlməsi o biri həftəyə qalsaydı bu xizək sürmək üçün gec ola bilərdi. Ben, Mendi və mən bu gecəni Vinson dağının baza düşərgəsində keçirdik. Bu bizim üçün *"deja vu"* kimi bir hiss idi. Altı ay öncə də gecəni bizi aparacaq təyyarəni gözləyərək Denalidə buz üzərində keçirmişdik.

Xoşbəxtlikdən hava onda da, indi də bizim lehimizə işləyirdi. Gec oyandıq, asta-asta səhər yeməyini yedik, öz əşyalarımızı yavaş-yavaş qablaşdırdıq, şəkillər çəkdirdik. Lens Fasebookdakı albomu üçün müxtəlif pozalar seçirdi. İki gün Patriot Hillsdən xəbər yox idi - ALE-dən olan Stiv tələsik gəlib yarım saata hazırlaşmalı olduğumuzu deməyənə qədər. "Otter Twin" təyyarəsi qrafikə uyğun olaraq göründü. Sürətini gurultu ilə azaldaraq yerə endi. Çoxlu sayda alpinistlər təyyarənin qapısında göründü. Vinsonda yenə insanların sayı çoxaldı. Sonra biz borta qalxdıq və uçduq. Antarktidanın saysız-hesabsız gözəl mənzərələrindən bir neçə şəkil çəkdim. Biz Patriot Hillsi təmizlədik və aşağı enməyə başladıq. Birinci mərhələ tamamlandı.

## 1. 2. CƏNUB QÜTBÜNƏ XİZƏKLƏ YÜRÜŞÜN SONU

Bu hissə bizim 2009-cu il yanvarın 13-də, günortadan sonra Vinson dağından Patriot Hillsin (təpə) baza düşərgəsinə çatmağımızdan başlayır. Burada, biz Vinson baza düşərgəsindən bir gecə əvvəl uçmuş Azərbaycandan olan ekspedisiya üzvləri tərəfindən qarşılandıq. Onların ilk xəbəri bu oldu ki, son yürüş üçün razılaşdırılmış yoladüşmə tariximiz 16 yanvardır. Bu müddət bizə təchizatın yenidən təşkili, xizəklərin yoxlanılması və (mümkün olsa) duş almaq üçün iki gün vaxt yaradırdı.

Mən Qütb komandasının başqa üzvlərini - Şonu (Disney), Ceyson (Qrov) və Voqanı (De la Harpe) - Voqanın çadırında tapdım. Voqan bizi yeni ildə Punta Arenasda, sonra da Patriot Hillsdə görmüşdü.

Vinson dağından qayıdan yeganə komanda üzvlərinin lap çox eşitmək istədikləri xəbər - İL-76 təyyarəsinin onları həmin gecə Punta Arenasa - sivilizasiya və rahatlığa geri aparmaq üçün gəlməsi idi.

Günün qalan hissəsi Vinson dağının fəthinin tamamlanmasının qeyd edilməsi və yola düşənlərin hazırlanmasına kömək etməklə keçdi. Heç kəs İL-76 təyyarəsinin qrafik üzrə uçduğuna onun həqiqətən də artıq havada olması xəbərini eşitməyənə qədər əmin ola bilməzdi və ona görə də bələdçi çadırında gözləmə bitmək bilmirdi. O zamana qədər ki, ALE-dən olan Piter saat 23-00-da başını içəri salaraq, "İlyuşin qalxıb!" dedi.

Kompressordan gələn uğultunun müşayiəti ilə İL-76 təyyarəsi təqribən saat 03-00-da gəldi. Pilot təyyarə daya-

nana qədər mühərriki əks itələmədə saxlamışdı. Bu cəld dönüş idi və biz təqribən saat 04-00-ə qədər vidalaşdıq. Ekspedisiyanı burada tamamlayaraq geri qayıdanlar enmə zolağına doğru Antarktidadakı son kilometrlərini qət etdilər. Onların getməyini qarışıq hisslərlə izlədim - Vinson dağına çıxan zaman artıq barmaqlarımda bir neçə donma olmuşdu, indi isə mən, onların 5 saatdan sonra isti duşdan və sərin pivədən həzz aldıqları vaxtda, hələ on gün daha soyuq və heç də qonaqpərvər olmayan bir şəraitdə, dünyadan təcrid olunmuş halda yaşamalı idim.

Gözlənilən dönüş vaxtı - 23 yanvarda qayıda bilməyəcəkdim. Ona görə də, Şonun peyk telefonundan ofisə zəng etmək üçün istifadə etdim və Lorani ilə (Kolfan, bizim HR menecerimiz) danışdım. O, Vinson dağındakı uğurumuz barədə hər şeyi qəzet məqaləsindən və informasiya blokundan bilirdi. Ceysonun reklam maşını işləyirdi. Qayıdış tarixi olaraq, mən “Təxminən 31 yanvar”, dedim.

**14 və 15 yanvar 2009-cu il.**

Biz yürüş əşyaları - krampon, bel çantaları, xizək yüklərini, sürüşmə xizəklərini və s. yenidən qablaşdırılmalı olduq. Mən bələdçi çadırındakı stolu götürdüm, paltarlarımı və təchizatı onun üstünə sərdim, başdan-ayağa yoxladım və sistemli şəkildə xizək çantası üçün nəzərdə tutulmuş əşya torbalarına doldurdum. Heç vaxt ilk dəfədən onları düzgün yerləşdirmək olmur, ona görə də 2 gün boyunca onları bir neçə dəfə açıb yenidən qablaşdırdım. Punta Arenasdakı brifinqlər zamanı Hannanın (ingilis bələdçisi) “Xizəklərdən yükü azaldan zaman amansız olun, bu dartma zamanı çox fərq edir”, məsləhəti haqqında fikirləşdim. Bu mənim son paltar seçimim idi.

* ***Ayaqlar:*** nazik astarlı corablar, yarımbuxarkeçirməyən corablar və qalın isti corablar. Bir dəst geyindim, bir dəst isə ehtiyat götürdüm.

* ***Aşağı hissə:*** bakteriyaları öldürmək üçün yeni, gümüş saplardan tikilmiş isti, uzun paltar və dağ təchizatı - yumşaq (yüngül sintetik tük) şalvar. Daha soyuq hava üçün PHD Omeqa alt şalvarını və isti, uzun alt paltarını da ehtiyat üçün qablaşdırdım.

* ***Bədənin yuxarı hissəsi:*** uzunqollu isti (həmçinin, gümüşlə örtülmüş parçadan) mayka, yüngül flis köynək və yumşaq pencək. Əlavə olaraq, Vinson dağına dırmaşdığım zaman başlıca dayağım olan nazik, küləyə davamlı qore-teks və PHD Omeqa gödəkcələrimi qablaşdırdım. Pencəyimi götürmək üçün tərəddüd edirdim - o ağır və böyük idi. Onu burda qoymağa meyilli idim, lakin hamı gödəkcəsini götürdüyünə görə mən də onu götürdüm.

* ***Baş:*** ehtiyat gün eynəyi, xizək sürmə eynəkləri, dəri, yun baş örtüyü (balaklava), beret və xəz qulaqcıqlı günlüklü papaq. Balaklava da həmçinin şübhə altında idi, çünki o zirvənin fəthi günü çox narahatlıq yaratmışdı, lakin bu mənim yeganə bütöv baş qoruyucum idi, ona görə onu da götürdüm.

* ***Əllər:*** bu mənim üçün, donmuş barmaqlarımın tarixçəsinə baxdıqda ən kritik yer idi. İki cüt nazik alt əlcəkləri götürdüm, iki cüt toxunma əlcəklər, bələdçi və iri tək barmaq Blək Daymond əlcəkləri.

****Digər təchizat:*** şəxsi ehtiyaclar üçün kiçik Sviseyr biznes klass çantası, tibb təchizatı çantası, GPS, *Canon* kamerası, *Silva* kompası, qeyd kağızı və xəritələr, ehtiyat batareyalar, hər ehtimala qarşı bir az ehtiyat məftil, yatmaq

üçün göz "kölgəsi", alışqanlar və s. idi. Bunların hamısını əşya torbalarına doldurdum ki, xizək çantasında tökülən əşya olmasın və qablaşdırma minimuma ensin. İçində əlcəklər, tualet kağızı və bəzi xırdavat olan çanta həmçinin, mənim yastığım (möhkəm lakin, kifayət qədər yumşaq). rolunu oynayırdı.

Əlavə olaraq qrup təchizatının mənim payıma düşən hissəsi bir ABŞ qallonu ağırlığında Kolman soba yanacağı qutusu, soba üçün yanacaq şüşəsi və ərzağımızın yarısı idi.

Xizəyimə yüklədiklərimin ümumi çəkisinin təqribən 22 kq olduğunu hesabladım. Digərlərinin də təxminən o qədər yükü var idi. Kənardan baxdıqda corabların ehtiyat dəsti, ehtiyat termal paltarlar, balaklava və bələdçi əlcəkləri və üst təkbarmaq əlcəklərə ehtiyac yox idi. Onları və bir neçə xırda şeyi çıxmaq xizəyin yükünü təxminən 1,5 kq-a qədər yüngülləşdirə bilərdi.

14 yanvar - günün əksər hissəsi qrupumuz tikiş sexində işləyənlərə bənzəyirdi. ALE-dan Karl və daha əvvəl qütbə gedənlər bizə eynəklərimizin alt kənarına parçadan qapaq tikməyi məsləhət gördülər ki, küləkdən tamamilə qoruna bilək. Nəticə Dart Vader görüntülü maskalar oldu. Tikiş mükəmməllik dərəcəsinə görə fərqlənirdi. Bu arada Ceyson "biş-düş" işini öz üzərinə götürmüşdü. Səfərdən qabaq kalori ehtiyatımızı bərpa etmək istəyirdik.

Yanvarın 15-də Çili bazasına gedərək xizəksürmə üzrə kiçik sınaq keçirdik və Bredin xizəklərində problem olduğunu aşkar etdik. Ön kəmərdə alüminium başlığı sürtülərək yeyilirdi və vaxtından əvvəl qırıla bilərdi. Biz problemi bağlayıcıları seçməklə və kəməri içəriyə yerləşdirməklə həll etdik. Şon və mən marşrutu İsveç bələdçisi

Corqla müzakirə edirdik. Bizə məsləhət gördü ki, GPS-lərlə maqnetik dayaq quraşdıraq və kompasın fərq həddini sıfırda saxlayaq. GPS-dən gələn başlıq birbaşa kompasa ötürüləcəkdir. Bu isə effektli şəkildə GPS-dəki maqnetik sahə modelindən istifadə etməklə, əsl hesablanmış maqnitə çeviriləcəkdi.

Patriot Hillsdə hava yaxşı idi. Aydın və günəşli, təqribən orta -10°C temperatur ilə. Duş qəbul etmək ümidi arzu olaraq qalırdı. Axırıncı dəfə yaxşı yuyunmağımızdan 15 gün keçirdi. Belə şəraitdə həmişə məndə çox pis kəpək yaranır.

Yanvarın 16-sı nəzərdə tutulmuş yoladüşmə günü idi. Antarktida üçün normal sayılan vaxtdan daha erkən durdum, ayaqlarımı plastr və köstəbək dərisi ilə sarıdım və planlaşdırılmış səfər paltarlarımı geyindim. ALE bizim qablaşdırılmış xizəklərimizi təqribən səhər saat 10-da götürdü və sonra - heç nə.

Xəbər ondan ibarət idi ki, düz enmə nöqtəsinin yaxınlığında alçaq bulud var, ona görə də pilotların enmə üçün kifayət qədər "müqavimət"i olmayacaq.

Biz bütün günü gözlədik: kart oynadıq və kitabları təkrar oxuduq, o vaxta qədər ki, yola düşməyin çox gec olduğu aydın oldu. Bizim təchizatımız artıq təyyarə üçün yüklənmişdi, ona görə də yenidən boşaldılmalı idi. Növbəti gün vaxta qənaət etmək üçün biz həmin gecə bələdçi çadırlarındakı stolların üzərində yatdıq.

Yanvarda Antarktidada gündüzün və ya gecənin, həmçinin günün başqa hissəsinin heç bir fərqi yoxdur. Günəş üfüq üzərində hiss edilə biləcək heç bir hündürlük dəyişikliyi olmadan sadəcə başının üstündə fırlanır, ona görə orada daimi olaraq gün işığı olduğundan günəşin batma və çıxma

zamanı ilə deyil, tarixlə danışılır. Biz Çili vaxtı ilə işləyirdik, çünki ordan gəlmişdik, lakin heç bir çətinlik olmadan başqa seçilmiş bir vaxtı da istifadə edə bilərdik. Seçilmiş vaxtda rejim təyin etmək çox vacib idi, çünki biz həddən çox yata bilərdik. Mən yatmaq üçün qaranlıq yaratmaqdan ötrü təyyarə "göz kölgə"lərini istifadə edirdim.

**1-ci gün.17 yanvar 2009-cu il.**

Günə 16 yanvar tarixində olduğu kimi başladıq. Təxminən saat 09-30-da Piter qayıdaraq seçim etmək lazım olduğunu xəbər verdi. Hava hələ də enmə nöqtəsində bulud göstərirdi. Lakin sonrakı və əvvəlki ərazilər açıq idi. Biz getmək istəyirdik, yoxsa yox? Çox qısa müzakirədən sonra "Gedirik!" dedik. Cənubdan 890 km uzaq (bizim daha uzaq yol haqda xəbərimiz yox idi) və yaxud 100 km-dən yaxın olmayan enmə zolağına seçim edildi.

Xizəklər yenidən gücləndi və Ceysonun bişirdiyi son sosiskalardan sonra, təxminən 10-30 da Tili dağlarındakı depoya yanacaq üçün yola düşdük. Uçuşun birinci hissəsində, buzun içərisindən çıxmış təsadüfi, tənha, iti uclu təpəliklərin qalxmasını hesaba almasaq, səth yastı idi. Tili dağları, Transantarktik silsiləsinin bir hissəsi idi.

Təyyarədə qəlyanaltı qutusu var idi. Mən şad idim ki, burada da çarter uçuşlarının üstünlükləri var və biz son dəbdəbələrimizdən olan kola içərək, çips və s. yedik. Qəlyanaltı qutusunda həmçinin qütbdə olan insanlar üçün işarələnmiş bir çanta da var idi. Onlar biz endikdən sonra götürülməli idilər. Qayıdacağımız zaman əldə edəcəyimiz qəlyanaltıları məmnuniyyətlə yadımda saxladım.

Tili dağlarındakı uçuş zolağı buz boyunca təmizlənmişdi və kənarında bir dəstə yanacaq qabı var idi. Yanacaq

4 saatlıq yolda qar maşını ilə gətirilmişdi. Tili dağlarından sonra yol bizi mərkəzi Antarktik Platosuna doğru pillə-pillə qalxan buzlaq və buz çıxıntıları sahələrinə apardı. Sərt və qayalı yoxuşda yer tamamilə hamar idi. 89°C.-a təqribi uçuş vaxtı saat yarım idi.

Yerə yaxınlaşdıqca yüngül duman olsa da, qar təpəciklərini hələ də aydınca görə bilirdim. Bununla belə, Hüseyn narahat idi ki, birdən enə bilmərik. Mən saatımdakı altimetri yoxladım və gördüm ki, yavaş-yavaş enirik. Sonra təyyarə üzü küləyə tərəf döndü və biz son yaxınlaşmamızı edərək, təqribən saat 15-20-də endik. Xizəklərimizi boşaltdıq, sürüşmə xizəklərini kəmərlədik, sonra Şonla mövqeyimizi və istiqamətimizi yoxlayıb, onları pilotla dəqiqləşdirdik. Heyət təyyarəyə mindi.Təyyarə bir qədər irəli getdi və yerdən qalxdı. İndi biz tənha idik və özümüz öz qayğımıza qalmalı idik - qarşıda bizi təxminən 8-10 gün ərzində, 111 km-lik buz üstündə “gəzinti” gözləyirdi.

Enmə nöqtəsi 89° 00` 412``C., 082° 44` 096`` Q. və hündürlük 3154 m idi. Temperatur -20° C. Biz xizək sürmə səfərimizi 15-40-da başladıq. 17 yanvar 2009-cu il - Cənub Qütbünə yürüşün birinci günüdür.

Məsafə və istiqamət 89°C. enliyi qütbdən 60 dəniz mili və ya 111 km uzaqlıqdadır. Bununla belə, biz birbaşa qütbə doğru hərəkət etmirdik, çünki qütbə yaxın VLF antenası yerləşirdi və ondan yan keçmək lazım idi. Antenanın son kənar nöqtəsi kimi 89° 57`790``C., 121°22` 900``Q. verilmiş və bunu GPS-imdə “Getmək” istiqaməti olaraq qeyd etmişdim. Biz qütbə yaxınlaşdıqca qütb və antena arasındakı fərq çox az, bizim antenanın sonuna olan məsafə isə nisbi idi. Bu səbəbdən də enmə nöqtəsindən antenanın sonuna qədər 108 km var idi.

Kompaslarımıza nəzər saldıq və Şonun liderliyi ilə yola düşdük. Plan saat 19-00-a qədər xizək sürmək, sonra isə çadır qurmaq idi ki, Şon saat 19-40-da Patriot Hills bazasına gündəlik peyk zəngini etsin.

İlk saatda mən özümü xizək üzərində Patriot Hillsdəki təcrübələrdən daha müvazinətli hiss etdim. Daha az yellənirdim. Sonra bir bağlayıcını digərinin üzərində tapdım və hiss etdim ki, endikdən sonrakı tələsiklikdə mən onları ayağıma səhv geyinmişəm, ona görə də topalar içəri tərəfdə idi və bir-birinə ilişirdi. Onları olduğu kimi saxlamaq istədim, lakin ilişmələrin çoxaldığına görə 1 saat 15 dəq-dən sonrakı ilk dayanacaqda onları dəyişməyə məcbur oldum. Beləliklə, mən yenidən yellənməyə başladım, lakin daha yaxşı sürüşürdüm. Xizəkləri paralel olaraq irəli hərəkət etdirməyə çalışırdım və onları qaldırmadan hər addımı yeriş addımından daha çox sürtünmə ilə edirdim. Mən bunu düz edirdim, lakin yeriyərkən və ya qaçarkən baş barmaqlarım yuxarı qalxacaq şəkildə sol ayağımı fırlatmağım təbii çevrilmə idi. Xizəklə bu çəp istiqamətdə hərəkət böyük dartılma yaradırdı. Səfər boyu bunun üzərində fikrimi cəmləməli oldum. Əgər diqqətimi itirirdimsə sol ayağımın sol tərəfə getdiyini görürdüm və onu bir neçə addım geri gətirməli olurdum.

Xizək sürmə üçün eynəklərim içəridən dumanlanmışdı, buzlaşmışdı və maskanın içərisində nəfəsimdən əmələ gələn buz var idi.

Biz yürüşümüzü 19-00-dan sonra dayandırdıq və Ceysonla mən dərhal çadır qurmağa başladıq. Biz çadır və ipləri lövbərləmək üçün xizəklərimizi və çubuqlarımızı istifadə etdik.

Çadır qurulduqdan sonra Ceyson xizəyini içəri çəkdi və boşaltdı. Mən də qarın suya dönməsi üçün onu belə içəri itələdim və sonra da bazanı küləkdən qorumaq üçün qarı onun ətrafına yerləşdirdim. O vaxta qədər Ceyson özünü içəri yerləşdirmişdi, ona görə də indi xizəyi içəri çəkmək və boşaltmaq mənim növbəm idi. Bu bizim hər gün standart iş nümunəmizə çevrildi. Mən köpdürülən yatma çantamı, əşya çantası olan yastığımı və içində şəxsi gigiyenik vasitələr olan kiçik torbamı, daha sonra ərzaq, kasa, qaşıq və su şüşələrini içəri gətirdim.

Maraqlıdır, çadırdakı havanın temperaturu Kolman sobasının istiliyi (hansını ki, biz ehtiyat yanğının və karbon monoksidlə zəhərlənmənin qarşısını almaq üçün çadırda saxlayırdıq) olmadan bədən hərarəti və zəif günəş işığından yaranan istixana effektinin nəticəsində çöldəkindən necə daha yüksək ola bilər?

Günün qalan hissəsini qar əritməklə və isti sup düzəltmək üçün su qızdırmaqla, quru dondurulmuş və qablaşdırılmış naharımızı (Meksika toyuğu və çipsiləri) əritməklə və içməli su şüşələrimizi doldurmaqla məşğul olduq. Biz həmçinin isti şüşələrdən paltarlarımızı, xüsusilə də üz maskalarımızı qurutmaq üçün istifadə etdik. Şüşələri yataq çantamıza qoyaraq yatmalı olduq, yoxsa onlar donardı. İşləri təxminən saat 24-00-da bitirdik və dərhal yataq kisələrimizə girdik. Mənim *Keyp Storm İnferno* çantam belə şərait üçün əla idi - ayaqlarım hətta corabsız da isti idi.

1-ci gün düşərgənin mövqeyi 89° 03`748``C., 83°03`414`` Q. idi. Biz 6 km getmişdik, 102 km qalmışdı. Mən mövqeyi GPS-də qeyd etdim. Növbəti gün üçün yeni başlanğıc götürdüm və kompasımı qurdum. Bu mərhələdə gündən-günə elə də çox dəyişiklik yox idi.

**2-ci gün.18 yanvar 2009-cu il.**

Nəzərdə tutulan başlanğıc vaxtı saat 11-00 idi. Ona görə biz 09-00-dan duraraq, corabları, şalvarları (PHP alt şalvarlarını), yumşaq gödəkcələrimizi və əlcəklərimizi geyindik. Səhər dünən axşam müşahidə olunan havanın eyni idi - əriyən qar və istiləşən hava. Səhər yeməyi və isti içəcək üçün əsl məqam idi. Səhər yeməyi üçün hazır yulaf qablarımız var idi. Evə qayıdanda, yulaf mənim ən az sevəcəyim səhər yeməyi olacaqdı. Ancaq indi enerji almaq üçün onun əhəmiyyətini anlayırdım, ona görə qabın yarısını Ceysonla paylaşdım. Lakin, Ceyson yulafa məndən də az həvəsliydi və günlər ötdükcə öz payını tədricən azaldırdı. Adətən mən səhərlər isti içəcək içmirəm. Ceyson isə əksinə, azaldılmış yulafın əvəzinə çay və enerji əlavəsi içirdi.

Biz çadırdan çıxmağı mümkün qədər ləngidirdik, xizəkləri hazırlayırdıq. Nəhayət, 10-40 da çadırlardan çıxıb, xizəkləri qayışla çəkib bərkitdik və getməyə hazır olduq. Mən izləmək üçün kompası Şona verdim, özüm isə müşahidə edirdim. Hər günün ən soyuq keçən hissəsi 20 dəqiqə çəkirdi. Bu vaxt biz xizək sürməyə başlamazdan əvvəl bədənimiz isinənə qədər çadırları yığmaqla məşğul olurduq. Gərək heç kim nazik əlcək geyinməsin, çünki çadırların dəmir bəndləri elə kiçikdir ki, onlarla işləyərkən əllər tez dona bilər.

Hava çox şaxtalı və dumanlıdır, yalnız zəif günəş görünür. 60-75 dəqiqə xizəklə gedib, sonra bir az şokolad yeyib, nəsə içmək üçün qısa fasilə götürüləcəkdir. Gərək əvvəlcədən hazırlıqlı olasan - donmadan qorunmaq üçün fasilə 5 dəqiqədən artıq olmayacaqdı.






2009






GEOGRAPHIC
SOUTH POLE






Air Almaty
ИЛ-76ТД
ALE



Xizəkləri dartmaq asan deyildi - qar yumşaq və “yapışqanlı” idi. Elə bil ki, qumun üstü ilə dartırdım. Külək tamamilə sol tərəfdən idi.

Əsl müşahidə qabaqdan kompasla idi və bir neçə kiçik yer qeydə alınırdı. Başçı həmin yerə çatdıqca proses təkrarlanırdı. 2-ci gün bizdən əvvəl keçən ekspedisiyanın açdığı cığırları görməyə başladıq, onlar da bizə bələdçilik edirdi. Bulud zolaqları birbaşa cənubu göstərirdi və rahat hava kompas rolunu oynayırdı.

2-ci gün hava heç aydınlaşmadı. Saat 17-00-a yaxın duman sıxlaşdı, 10 dəqiqə də davam etdi, ancaq istiqamətini itirəndən sonra dayanmalı oldu.

2-ci gün düşərgə 89° 09`437``C., 83° 38`372``Ş., 3212 m. hündürlükdə yerləşirdi. Biz cəmi 11 km getmişdik, ancaq yürüşü davam etdirmək ağıllı fikir deyildi.

Mən fikir verdim ki, sağ əlimin balaca barmağının ucu dırnağın özülünün müəyyən sərhədinə qədər ağarmağa başlayıb - bu donmanın birinci mərhələsidir. Bu haqda Şona dedim. O məsləhət gördü ki, isti su ilə barmağımı isidim. Deyiləni etdikdən sonra barmağımın rəngi geri qayıtdı. Vəziyyətdən qurtula bildim, ancaq bu bir xəbərdarlıq idi! Şonun da barmaqlarında yüngül donvurma var idi və o, çadırında olarkən sobadan barmaqlarını isidirdi.

**3-cü gün. 19 yanvar 2009-cu il.**

Planlaşdırılmış qalxma vaxtı saat 09-00 idi və hər yer hələ də tamamilə ağ idi, ona görə yataq kisələrimizdə saat 11-00-a qədər gözləməli olduq. Hava indi aydın idi, günəş birinci dəfə idi ki, parıldayırdı. Temperaturun çadırda mənfi 25 °C olmasına baxmayaraq günəş istini paltarlarımızda və əlcəklərimizdə hiss etdirirdi və bu ruh yüksəkliyi yaradırdı.

Biz saat 13-00 da xizəklə yürüşə başladıq və ilk dəfə idi ki, hədəfimiz olan 16 km yolu getdik. Mən daha artıq isinməyə və tərləməyə başladım. Narahat oldum. Antarktidada tərləsən ölərsən. Tər paltarlarımın içində yenidən donur. Həmin gecə çadırda paltarlarımızdan buxar buludları qalxırdı.

Qoruyucu eynəklərin donması hamımız üçün böyük problem idi. Buzlanma artdıqca hərəkət etmək mümkünsüz olurdu. Mən silməyə, fasilə vaxtı soba üzərində qızdırmağa çalışırdım, ancaq heç nə kömək etmirdi, görmə qabiliyyətim getdikcə məhdudlaşırdı. Yalnız öndəki adamı seçə və xizək cığırlarını görə bilirdim. Məhdudlaşmış görmə qabiliyyəti həmçinin yürüşümü yavaşıdırdı, daha az dözümlü və yıxılmağa meyilli idim.

Əvvəl fikirləşdim ki, tərləmə mənim nəfəsimdəndir. Hər axşam üz maskamı bir az kəsirdim. Ancaq sonralar bunun heç bir dəyişikliyə səbəb olmadığını gördüm. Hələ ki, donma təsadüfi görünür - bəzi günlər bu heç problem olmur və ya ilkin saatlar yaxşı olur, sonra tədricən inkişaf edir.

Düşərgə 89° 17`507``C., 84° 027` 542`` Ş.-da 3180 m. hündürlükdə yerləşirdi. Ceysonun barmaqlarından birində ağ ləkə əmələ gəlməyə başlamışdı. Onun əlcəkləri hissələrə ayrılmışdı və donmuş yer əlcəklərin deşik hissəsinin altında idi. Mən ona əlcəklərimin ikinci cütünü verdim. Dərisi isinməyə başladı, yürüşün sonuna kimi onun donma problemi olmadı.

**4-cü gün. 20 yanvar 2009-cu il.**

Yenə aydın gün idi, ancaq 1-ci saatın sonuna doğru o qədər isinmişdim ki, yumşaq gödəkcəmi çıxararaq əvəzinə külək keçirməyən nazik qore-teks gödəkcəmi geyindim. Özümü daha yaxşı hiss etdim və sürətimin yaxşılaşdığını gördüm. Çox sərt şaxtada əynimdə üç nazik geyi-

min olmasını düşünmək qəribə gəlir. Həmin axşam fasilə üçün dayananda yumşaq gödəkcəmi yenidən geyindim. Mən bu gödəkcəni yalnız səhər hərəkətə başlayana kimi geyindim, sonra soyunub uzun sürən fasilələr üçün xizək çantamda saxladım.

Biz 89° 25`582``C., 084° 48` 090``Ş.-da 3115 m. hündürlükdə dayandıq. Planda tutduğumuz 15 km məsafəni qət etmişdik. Ayaqlarımın temperatur tənzimləyicisi şalvarımın aşağısındakı düymələr tərəfdən qaydaya salınırdı. İşləyərkən bədənin istisinin necə artdığını hiss etmək çox maraqlıdır. Hündürlükdə baş verən gündəlik dəyişikliklər barometrik təzyiq dəyişiklikləri idi.

Çadırın içində yenə bir problem aşkar etdim. Sol əlcəyimi çıxardıqda ortancıl barmağımın qaraldığını və dırnağımın aşağısına kimi suluq atdığını gördüm.

2000-ci ildə Akonqaquada sağ barmaqlarımdan birini donvurmadan itirmişdim. Ona görə bunun nə olduğunu çox yaxşı bilirdim. Şon və mən fikrimizdə olanları müzakirə etdik. Suluğu qopmaqdan qorumaq üçün dərhal isitməyə və sarımağa başladıq. Qərara gəldik ki, səhərə kimi gözləyək.

**5-ci gün. 21 yanvar 2009-cu il.**

Mən suluğun üstündəki sarğını dəyişdirdim. İsti qaralmış hissəni tədricən azaldırdı, getdikcə daha yaxşı olacağı gözlənilirdi.

Qoruyucu eynəklərin donması yenə planları puç edirdi. Səhər üz maskasız, təkcə günəş eynəkləri ilə xizək sürməyə çalışdım. Onlar donmurdu, ancaq birinci saatın sonuna yaxın üzümün donmağa başladığını hiss etdim. Yenidən qoruyucu eynəyi və maskanı taxdım.

Saat 17-00-də duman artmağa başladı və müşahidəni mümkünsüz etdi (əsasən donmuş qoruyucu eynəklərlə). Beləliklə, biz dayandıq və 89° 031`323``C., 84° 44`743``Ş.-da, 3212 m hündürlükdə düşərgə qurduq.

11 km - hədəfimizdən az idi, ancaq axır ki, indi II mərhələdə idik. Hər saat, hər gün keçmiş və ya gələcək günün eyni idi - hamar, ağ qar. Heç bir dəyişiklik olmurdu. Yeganə dəyişiklik batan və ya çıxan günəş, aydın və ya dumanlı hava idi. Sonsuz boşluq və bitməyən eynilik Antarktida qüdrətinin bir hissəsi idi. Biz bunu şəkillərdə dondururduq.

**6-ci gün. 22 yanvar 2009-cu il.**

Özümüzü güclü hiss edirdik. Hava yaxşı idi. Günün ən yaxşı yürüşünü etmişdik -16,2 km. 89°040` 008``C., 87° 026`309``Ş., 3137 m hündürlükdə düşərgə saldıq. Mən güc yığırdım və bir neçə saat da davam edə bilərdim. Ceyson və Şon kürək və daban ağrısı hiss edirdilər, ona görə ağrıkəsici qəbul etdilər. "Baffin" uzunboğaz ayaqqabıları onlarda və Voqanda suluq yaratmışdı. Mənim "Sorel" uzunboğaz ayaqqabılarım isə heç bir problem yaratmadı.

**7-ci gün. 23 yanvar 2009-cu il.**

Biz indi yolun sonuna çatdığımızı hiss edə bilərdik. Şifahi hesablamalar apardım: əgər bu gün yaxşı yürüş etsəydik, sabah qütbə çata bilərdik? Yemək qurtarmaq üzrə idi. Səhərlər yediyimiz yulaf da qurtarmışdı. Dehidratlaşmış çiyələk dondurma desertləri səhər yeməyinin əvəzi idi.

Gün ərzində ilk dəfə idi həyat əlamətləri gördük - sol tərəfimizdəki məsafənin ortasında açıq-aşkarca bir neçə qaranlıq düzbucaqlı formalar və hərəkət edən obyektlər görünürdü. Bir az sonra onlar getdilər. Mən hələ də başa

düşə bilmirəm, onlar ABŞ Cənub Qütb bazasının stansiyadan kənar mərasimi idi, yoxsa bir xəyal - bazanın istiqamətini dəyişmiş əksi idi.

Nəzərdə tutulan 15 km-i getdik və düşərgəni 89° 048`471``C., 93°010`408`` Ş.-da, 3172 m hündürlükdə qurduq. O biri gün qütbə çatmaq üçün çox uzun və çətin yürüş olmalıydı.

**8-ci gün. 24 yanvar 2009-cu il.**

Bu sonuncu dolğun gün olmalı idi. Görəsən sonuncu gün olacaqdımı?

Ceyson itirilmiş bir paket yulaf tapdı, bu uzun gün ərzində möhkəmlənməmiz üçün lazım olacaqdı.

Ətrafda hər şeyi yaxşı görmək olurdu. Bu işığın “hiylə”si olmalıydı, çünki bir az sonra boz-bulanıq ləkə öz köhnə yerində yenidən əmələ gəldi. Biz hələ də GPS və kompasla istiqaməti müəyyənləşdirirdik. Ancaq mən indi stansiyaya uyğun olaraq özüm də istiqamət verə bilirdim.

Günortaya kimi hava aydın idi. Bir neçə saat əlavə getməyə razı olmasaq, qütbə çata bilməyəcəkdik. 15 km getdikdən sonra dayandıq. Düşərgənin istiqaməti 89° 056`249``C., 111°053`224``Ş. enliyi idi. Hündürlük 3253 metr idi. Ceyson və mən, sonuncu gecəni dondurulmuş quru yemək əvəzinə Viena sosiskaları yeyərək qeyd etdik. Şon və Voqana da hərəsinə birini verdik.

**9-cu gün. 25 yanvar 2009-cu il.**

Gün yaxşı başlamamışdı. Gecə güclü külək başladı. Biz ötən gün artıq bir neçə saatı getmədiyimizə görə təəssüflənirdik. Həmişəki qalxma saatımızda (11-00-da) külək güclü idi, heç bir şey görünmürdü, ona görə də, yataq

kisələrimizdən çıxmadıq. Bir az sonra Şon qışqırdı, “ Biz saat 2-də çıxacağıq!”. Ona görə 12-də ayağa durmalıydıq. Yulaf tamamilə qurtarmışdı, səhər yeməyi dondurulmuş quru çiyələk dondurması desertindən ibarət idi. Mən dondurulmuş bərk pendir də əlavə etdim.

Saat ikiyə az qalmış çadırlardan çıxıb ətrafa baxdıq - sərt şaxta və güclü külək idi. Ətrafı seçmək gah mümkün olurdu, gah da yox. Ümumiyyətlə isə ətraf çox çətin seçilirdi. Çox vaxt biz stansiyanı görə bilirdik, ancaq hədəfimiz bu deyildi. Hələ 3 km uzaqlıqda görünməz olan antenanın ətrafına çatmalıydıq. Kompas istiqaməti müəyyənləşdirirdi. Problem onda idi ki, qütbün yaxınlığında idik, ancaq hər kilometrdən bir maqnit dəyişikliyi baş verirdi, kompas göstəricisi aldadıcı olurdu. Mən GPS vasitəsilə antenanın istiqamətini müəyyənləşdirib, onu kompasla əvəz etdim.

Vaxtında hərəkətə başladıq. Soyuğa qarşı getmək üçün çevik addımlar atırdıq. 15 dəqiqə sonra GPS-də ayrı istiqamət gördüm. Əvvəlkinə nisbətən 30° dəyişmişdi, yenə eyni şübhə baş qaldırdı. Silva kompasının iynəsi sabit idi, biz onunla yola davam etdik. 45 dəqiqədən sonra öndə, yaxınlaşdığımız xətt üzrə bir neçə bayraq qaldırdıq.

Biz antenaya çatdıq və yanından keçdik. 9 gündən bəri əsas istiqamətimiz olan bu obyektin şəklini çəkmək istədim. Ancaq kameranın batareyalarını isinmək üçün çantamda qoymuşdum. İndi onu yükləmək zamanı deyildi. Antena ətrafında dövrə vurduqdan sonra Şonun konkisinin bərkidicisi qırıldı. Onun təmiri bu şəraitdə mümkün olan iş deyildi. Final mərhələmiz 3 km irəlidə idi. Ona görə Şon konkilərini çıxarıb yolu ayaqla davam etdi. Asan deyildi, qar ayağının altında maneə yaradırdı, onun qoruyucu eynəkləri do-

nurdu və sol yanağı donmağa başlamışdı.

Biz bir neçə bayraq gördüyümüzü zənn edib, o istiqamətə getməyə başladıq. Boz bir tikili elə geniş və etibarlı görünürdü ki, ora çatmağa çalışırdıq, hətta küləkdən sığınacaq kimi olsa belə. Qeyri-dəqiqlikdən narahat olur və donmağa başlayırdıq.

Bizə tərəf kim isə gəlirdi. O, özünü Patti kimi təqdim etdi. Geniş boz tikili isə ABŞ Elmi Təşkilatının Cənub Qütb Stansiyası idi. Patti bizi salamlayıb, düşərgəmiz olan tərəfə apardı. Yolda bayraqlar çevrəsinin yanından keçdik.

Biz çatmışdıq, biz bunu bacardıq!

Şon Pattiyə özünün və mənim donvurmam haqqında danışdı. O, dərhal bizi həkimin yanına apardı. Konkilərimizi çıxarıb Pattini izlədik. Bura başqa dünya idi - isti və rahat. Adamlar qısaqol paltarlarda gəzirdilər. 9 gün dəyişmədiyim paltarlarda özümü bir az xəcalətli hiss etdim.

Mən və Şon müalicə alarkən yoldaşlarımız ALE müəyyən etmiş olduğu hissədə çadırları qururdular. Şon, mən, Ceyson və Voqan bir çadırda idik. İsinmək üçün sobanı yandırmalı olduq.

Günorta bazanın içərisində gəzişdik. Meg bələdçi idi.

* Baza yeni tikilmişdi. 2008-ci ildə tamamlanmışdı. Ehtimal olunan dəyər 500 milyon ABŞ dolları idi.

* Yay proqramı oktyabrdan fevralın ortalarınadək davam edir. Bu vaxt ərzində bazada 300-ə yaxın adam olur - alimlər və kömək edən işçilər.

* Elektrik enerjisi hava cərəyanı vasitəsilə idarə olunan dizel generatorlarından yaranırdı.

* Baza Yeni Zelandiya vaxtilə işləyir. Biz saatımızda göstərilən Çili vaxtı ilə yanvarın 25-i saat 17-30-da ora çatmışdıq. Bazada isə Yeni Zelandiya vaxtı 26 yanvar saat

10-30 idi.

* İşçilərin çoxu könüllü surətdə bir neçə iş görür. Məsələn Meg, həm ALE-də işləyir, həm də baza turlarına bələdçilik edir. İdman və mədəni proqramlar kimi bütün məşğuliyyətlər könüllü heyət tərəfindən təşkil olunur. Bazanın yanğın komandası da könüllülərdən ibarətdir.

* Hər cümə axşamı, mətbəxdə rəhbərlik işləməklə, sıravi heyətə istirahət günü verir.

* Heyətin hər həftə hər biri 2 dəqiqə olmaqla 2 dəfə duş almaq hüququ var.

Bufetdə kofe içdikdən və bulka yedikdən sonra yenidən soyuğa atıldıq. Dəbdəbəli evin yanındakı komada yaşamağın nə olduğunu mən indi başa düşdüm.

Həmin gecə tuna yedik. Sonuncu yeməyimiz idi. Biz fəslin sonuncu ALE ekspedisiyası idik. Burdan uçub getmək indi bizim tələf olmuş xəyalımız idi.

Çadırlarımız 89°059`906``C., 18°09`461``Ş. enliyində, həqiqi qütbdən 200 metr aralıda idi.

**10-cu gün. 26 yanvar 2009-cu il.**

Şonun Patriot Hillsə birinci zəngi saat 10-00-da oldu. Xəbərlər məyusedici idi. Qar narahatlıq yaradır, Patriot Hillsdə yolu seçmək olmurdu, ona görə uçuş mümkünsüz idi. Biz ilişib qaldıq.

Səhər gəzməyə çıxdıq, bir neçə şəkil çəkdirmək istəyirdik. Kəskin soyuq vardı, hətta kameram donmağa başlayırdı. Çəkdiyimiz şəkillər iztirablarımızı əks etdirirdi.

Günün ən əsas hadisəsi peyk vasitəsilə zəng oldu, "Donald bura gəl, Cənub Qütbündən zəng var!". Yenə uçuş mümkün olmadı, "Sabah səhər 10-da zəng edin", dedilər.

Günün çox hissəsini yataq kisəmdə keçirdim. Başdan ayağa geyinmişdim, təkcə uzunboğaz çəkmələrimdən başqa. Ceyson nahar hazırladı. Yeməkdən sonra qonşularımıza baş çəkdik.

**11-ci gün. 27 Yanvar 2009-cu il.**

Erkən ayağa qalxdım. Gecə külək güclənmişdi, heç nəyi görmək olmurdu. Azərbaycanlıların yataq kisələri yaş idi, sobaları yanmırdı. Şon və Voqanun yeməkləri bir gün əvvəl qurtarmışdı. Temperatur çadırda - 31° idi, indiyə qədər müşahidə olunan ən soyuq temperatur. Biz getməliydik!

Saat 10-da olan zəng günün axarını dəyişdi. 15-00-15-30 arası toplanmaq vaxtı idi. Hər şeyi qablaşdırdıq. Külək güclənirdi. Əgər pilot yerə enməyi təhlükəli hesab etsəydi, nə olacaqdı?

15-00 gəlib keçdi. 15-30-da da Otterdən əlamət yox idi. Bu qorxunc səhnə baş verə bilərdi! 15-32-də Hüseynin səsini eşitdim: "Şon, Otter çatdı!".

18-30-da Patriot Hillsdə yerə endik.

ALE "Sonuncu fatehlər"in qeydinə qalırdı. Bizim üçün əsas çadırda nahar süfrəsi hazırlanmışdı. Çili şampanları, şərab, yüngül qəlyanaltı və s. Sonra biz Britaniyanın "sonuncu mövqeçilər"inə qoşulduq. Onlar bir neçə gün əvvəl yürüşlərini tamamlamışdılar. Qeydetmə mərasimi səhərə kimi davam etdi.

**12-ci gün. 28 Yanvar 2009-cu il - Antarktidada son gün.**

Həyəcanverici xəbər İl-76 təyyarəsinin bu gecə gəlməsi oldu (hərçənd bu xəbərin dəqiqliyinə əmin deyildik).

Günümüz çadırları yığmaq, şey-şüylərimizi yenidən

yerləşdirmək, digər qrupla Vinson zirvəsinə və Cənub Qütbünə yürüş barədə təəssüratları bölüşməklə keçdi.

Günorta Mayk Horna qoşulduq. O, macəralar dünyasının əfsanəsidir. Qütbə sahildən gəzərək gəlmişdi. Onun xizəyi balaca qayıq ölçüsündə idi.

23-00-da İl-76 təyyarəsinin yolda olması xəbəri təsdiqləndi. Bu fəslin sonuncu - ikinci uçuşu idi. ALE baza heyətinin bir hissəsi də orda olacaqdı.

Hamımız əsas çadırda toplaşmışdıq. 00-50-də kimsə təyyarənin yaxınlaşdığını xəbər verdi.



*Əlavə 2*

## VİNSON ZİRVƏSİNƏ YÜRÜŞDƏ İSTİFADƏ OLUNAN AVADANLIQLARIN SİYAHISI

(maksimum 30 kq)

**Dağ geyim dəsti:**

1ədəd  külək əleyhinə kapüşonlu gödəkcə
1 ədəd külək əleyhinə şalvar
1 ədəd 300 seriyalı yundan hazırlanmış parıltılı gödəkcə
1 ədəd 200 seriyalı parıltılı şalvar
1 ədəd qalın kapüşonlu gödəkcə
2 ədəd polipropilenli alt-üst geyim dəsti
2 ədəd polipropilenli uzun alt geyim dəsti
3 ədəd ipək corablar
5 ədəd qalın corab dəsti (70% yundan)
2 ədəd ehtiyat qaytanları
1 cüt üçqat plastik Everest Sammiti neopren uzunboğaz çəkmə və yaxud, 1 ədəd everest tipli ikiqat idman çəkmə dəsti
1 cüt nazik polipropilenli əlcək
1 cüt qalın yun əlcək və ya yundan hazırlanmış təkbarmaq əlcək
1 cüt qore-teksdən uzun əlcək
2 ədəd yundan hazırlanmış toxunma şlyapa
1 ədəd şərf/boyun qızdırıcısı
2 ədəd gün eynəyi/buz eynəyi
2 ədəd xizək avadanlığı
1 ədəd neoprenli üz maskası

**Dağ avadanlığı:**

1 ədəd dağın qılıcında istirahət üçün xalı (döşək)
1 ədəd maksimum uzun termarest
1 ədəd yataq dəsti kisəsi (40 dərəcə şaxtada)
1 ədəd 80 litr tutumlu yundan hazırlanmış əl çantası
1 ədəd ədəd 80 litr tutumlu çiyin çantası
1 ədəd 35 litr tutumlu çiyin çantası
2 ədəd bağlamanı quru saxlayan geniş plastik çanta
1 ədəd bağlamalı plastik laynerlər
1 ədəd ləvazimat dəsti (mehmanxanada qalmaq üçün)
1 ədəd baş fənəri
1 ədəd baş fənəri üçün batareyalar
2 ədəd 1 litrlik şüşə butulkalar (geniş ağızlı)
1 ədəd termos (plastik)
2 ədəd qayışlı sukeçirməyən torba
1 cüt buzda yerimək üçün dişli ayaqqabı altı
1 ədəd buz baltası (uzun saplı)
2 ədəd vintli bərkitmə karabini
6 ədəd zərbəyə davamlı karabin bərkitməsi
10 metrlik 6 mm qalınlıqda kəndir (xizək üçün)
1 ədəd alpinist qoşqu ləvazimatları
1 ədəd gözləri küləkdən və günəş radiasiyasından qoruyan eynək
1 asılqanlı oymaqlı kəndir (kirşəyə bərkitmək üçün)

**Tibbi ləvazimatlar:**

1 aylıq fərdi tibbi dərmanlar
Günəşdən yanmaya qarşı losyon
Parfümeriya ləvazimatları
Məhrəba

2 ədəd balzam (dodaq üçün)
3 ədəd tualet kağızı
Şəxsi tibbi ləvazimat (ilkin tibbi yardım)
Başağrı kəsici dərmanlar
Diamoks (20 ədəd 1 nəfər üçün)
İmodium (mədə dərmanı)
Valoid tabletləri (ürək bulanmaya qarşı)
Suluq üçün geyim (moleskin)

**Digər:**

Pasport
Viza
Xərclik pul
Yüngül qəlyanaltı, enerjili şirnilər və qurudulmuş ət
Şokolad
1 ədəd su qabı
1 ədəd tayqulplu parç
1 ədəd bıçaq, qaşıq, çəngəl dəsti
1 ədəd enli yemək kasası
1 ədəd enli yemək boşqabı
2 ədəd alışqan
1 ədəd yapışqanlı lent
Hava doldurulmuş yorğan
1 sm qalınlığında termodöşək

**Əlavələr:**

1 ədəd qatlanan bıçaq
Videokamera
GPS
Kitab\jurnal\musiqi kartı\şahmat
Altimetr cihazı

Kamera quraşdırıcısı
Kamera qutusu
Əl qızdırıcısı
Termometr
Buxar əleyhinə corablar
Sıxılmış avadanlıq kisəsi

*Əlavə 3*

## CƏNUB QÜTBÜNƏ YÜRÜŞDƏ İSTİFADƏ OLUNAN AVADANLIQLARIN SİYAHISI

**Avadanlıqlar:**

Yataq torbası - 40
İzoləedici xalça
Şəxsi gigiyena ləvazimatları
Peyk telefonu
Şəxsi noutbuk

**Xüsusi ləvazimatlar:**

40-50 litrlik rüqzak
Termos
Fotokamera
Videokamera və aksesuarlar
Akkumlyatorlar

**Geyim və ayaqqabılar:**

Gəzinti çəkmələri
Everest Millet tipli hündürlük botinkaları
Narın tükdən gödəkcə və şalvar
Qore-teks gödəkcəsi (böyük başlıqla)

Qore-teks materialdan şalvar
Küləyə qarşı gödəkcə
Küləyə qarşı şalvar
Polartek-100 gödəkcəsi
İsti alt geyimi (2 cüt)
Alt geyimi
Polartek materialından əlcək
Sinsuleyt materialdan əlcək
Sinsuleyt materialdan qalın əlcək (2 cüt)
İsti yun corablar (4-5 cüt)
Adi papaq
İsti papaq
Üz üçün küləyə qarşı maska
Ultrabənövşəyi eynəklər
Dağ xizək eynəkləri
Qamaşlar (çəkmənin üstündən geyilən altsız corablar)


BURA
ANTARKTÎDADIR...





























## MÜNDƏRİCAT

Ön söz . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .5
**I Hissə. Antarktida gündəliyi** . . . . . . . . . . . . . . .7
**1. Ekspedisiyaya hazırlıq** . . . . . . . . . . . . . . . . .7
1.1. Ekspedisiyanın tərkibi necə formalaşdı? . . .10
1.2. Son hazırlıqlar . . . . . . . . . . . . . . . . . . . . . . . .15
1.3. Sınaq yürüşləri . . . . . . . . . . . . . . . . . . . . . .23
**2. Başlandı!** . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .24
2.1. Punta-Arenas . . . . . . . . . . . . . . . . . . . . . . .26
2.2. Cənubi Afrikalılar, Mayk Horn və Antarktida Müqaviləsi . . . . . . . . . . . . . . . . . . . . . .32
2.3. Patriot-Hills . . . . . . . . . . . . . . . . . . . . . . . .35
2.4. Gözləmək, yatmaq, tədqiqat aparmaq və yenə də gözləmək . . . . . . . . . . . . . . . . . . . .44
2.5. Antarktida insanı sınayır . . . . . . . . . . . . . . .47
2.6. Elm üçün çalışmalar . . . . . . . . . . . . . . . . . .54
2.7. Yeni il gecəsi çadırda . . . . . . . . . . . . . . . .57
2.8. 2009-cu ilin ilk günləri . . . . . . . . . . . . . . . .59
**3. Vinson zirvəsinə doğru** . . . . . . . . . . . . . . .64
3.1. Aşağı düşərgədə . . . . . . . . . . . . . . . . . . . . .68
3.2. Yuxarı düşərgəyə doğru . . . . . . . . . . . . . . . .71
3.3. İstirahət günü və ya odla buz arasında . . . . .73
3.4. Buzadırmanma sınağı . . . . . . . . . . . . . . . . . .76
3.5. Yuxarı düşərgənin psixoloji kolliziyaları . . .77

3.6. 4500 metr yüksəklikdə buz yürüşü . . . . . . .82
3.7. Mistika, ruhun səfərbərliyi və ya Antarktida kimə tapşırılıb? . . . . . . . . . . . . . . . . . . . . . .85
3.8. Zirvə! . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .86
3.9. Fizika qanunları ilə mübarizədə . . . . . . . . . .96
3.10. Geriyə . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .97
**4. Cənub Qütbünə doğru** . . . . . . . . . . . . . . . .100
4.1. Son hazırlıqlar . . . . . . . . . . . . . . . . . . . . . .100
4.2. Birinci gün . . . . . . . . . . . . . . . . . . . . . . . .108
4.3. Yürüş həyatı . . . . . . . . . . . . . . . . . . . . . . .116
4.4. İkinci gün . . . . . . . . . . . . . . . . . . . . . . . . .119
4.5. Həyacanlı saatlar. Ekspedisiyanın nəticəsi sual altındadır . . . . . . . . . . . . . . . . . . . . . .122
4.6. Üçüncü gün . . . . . . . . . . . . . . . . . . . . . . . .125
4.7. Antarktida yuxuları, kiçik kəşflər və Antarktida təbabəti . . . . . . . . . . . . . . . . . . .127
4.8. Dördüncü gün . . . . . . . . . . . . . . . . . . . . . .130
4.9. Antarktidasayağı düşüncələr . . . . . . . . . . .132
4.10. Əllərimiz və əlcəklərimiz . . . . . . . . . . . .135
4.11. Yüngülləşən qida çantaları, “rəhmətə gedən” MP3 və meteorologiya . . .136
4.12. Altıncı gün və ya Şonun sınmış xizəyinin yaratdığı risk . . . . . . . . . . . . . . . . . . . . . .138
4.13. Yeddinci gün və Cənub Qütbünün yaratdığı mirajlar . . . . . . . . . . . . . . . . . . . . . . . . . .141
4.14. Deyəsən Cənub Qütbünə yox, “əlçatmazlıq qütbü”nə gedirik . . . . . . . . . . . . . . . . . . . .143
4.15. Yeni təhlükə: qida və yanacaq qıtlığı . . .145

4.16. Səkkizinci gün . . . . . . . . . . . . . . . . . . . . . .147
4.17. Əsl soyuq müharibə . . . . . . . . . . . . . . . . . . .148
4.18. Ekstremal idman xarakteri formalaşdırır? . .151
4.19. Məsafə azalır, gərginlik artır . . . . . . . . . .155
4.20. Nəhayət! . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .156
4.21. Ən qısa və çətin gün . . . . . . . . . . . . . . . . .158
4.22. Bu da Cənub Qütbü! . . . . . . . . . . . . . . . . . .160
**5. Amundsen-Skott stansiyasında** . . . . . . . . .166
5.1. "Marsdan gələn" azərbaycanlılar . . . . . . .167
5.2. Bir az Amundsen-Skott stansiyası barədə . .169
**6. Biz bunu etdik** . . . . . . . . . . . . . . . . . . . . .179
**7. Yenə də gözləmək** . . . . . . . . . . . . . . . . . . .181
**8. Geriyə** . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .182
8.1. Yenə də Patriot-Hillsdə . . . . . . . . . . . . . . .183
8.2. Ekspedisiyanın son günləri: yenə də Punta-Arenas . . . . . . . . . . . . . . . . . . . . . .191
**II Hissə. Əlavələr** . . . . . . . . . . . . . . . . . . . . .194
**Əlavə 1. I. Cənubi Afrika Respublikasından olan Donald O Konnorun gündəliyindən** . . . . . . . . . . . . . .194
1.1. Uzun və soyuq yay mövsümü - Cənub Qütbündə yerləşən Vinson dağlarına xizəklə dırmanmanın sonuncu mərhələsi . . . . . . . .194
I.2. Cənub Qütbünə xizəklə yürüşün sonu . . . .215
**Əlavə 2. Vinson zirvəsinə yürüşdə istifadə olunan avadanlıqların siyahısı** . . . . . . . . . .240
**Əlavə 3. Cənub Qütbünə yürüşdə istifadə olunan avadanlıqların siyahısı** . . . . . . . . . .243
**III Hissə. Bura Antarktidadır** (şəkillər seriyası) .245

**Hüseyn Seyid oğlu BAĞIROV**

**İlk Azərbaycan-Antarktida Ekspedisiyası.**
**Cənub Qütbünə xizək yürüşü**

**I KİTAB**
**Antarktida gündəliyi**

Direktor: ***Sevda Mikayılqızı***
Dizayn: ***Şamil Qurbanov***

Çapa imzalanıb: ***10.11.2009***
Həcmi: ***16***
Tiraj: ***1000***

***"Ziya"***
ziyamika@rambler.ru